# Allahın 99 İsmi

***Həqiqətən, həmd (şükür və tərif) yalnız Allaha məxsusdur! Biz Ona həmd edirik, Onu köməyə çağırırıq, Ondan bağışlanma və bizi haqq yoluna yönəltməyi diləyirik, nəfslərimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Allah kimə hidayət versə o, haqq yolunda olar və kimi də azdırsa onu haqq yoluna yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ilah (ibadətə haqqı olan məbud) yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Məhəmməd Onun qulu və elçisidir.***

Bu kitab Allah təbərak və təalənin doxsan doqquz ismi və onların geniş mənalarından bəhs edir. Etiqad edirəm ki, müvəffəqiyyət Allahu təalə tərəfindəndir. Əgər Allah təbərak və təalə xeyrə müvəffəq etməsə  insan ona çata bilməz və yenə etiqad edirəm ki, söylədiyim xeyir və doğru sözlər Allahdandır. Etdiyim xətalar isə öz nəfsimdəndir. Buna görə Allahu təaləyə istiğfar edir və bu kitabın oxucular üçün faydalı olmasını diləyirəm.

Öncə qeyd edim ki, Allahu təalənin adlarının sayı bizə məlum deyildir. Elə adlar mövcuddur ki, uca Allah onu heç bir kəsə bildirməmişdir. Yəni, Allahın adları müəyyən bir ədəd sayı ilə bitmir. Bu bizim, yəni, Əhli-Sünnə vəl Cəməanın etiqadıdır. O ki qaldı, peyğəmbərimizin ﷺ “Allahın doxsan doqquz ismi var ki, hər kim onları sayarsa Cənnətə daxil olar!” –hədisi Allahın isimlərinin cəmi doxsan doqquz olmasına dəlalət etmir. Bu hədisdən çıxan məna odur ki, Allahın doxsan doqquz ismini sayan Cənnətə daxil olar, yəni bu doxsan doqquz isim Cənnətə daxil olmaq üçündür.

Və bir məqamı da qeyd edim ki, heç bir səhih hədisdə Allah bu doxsan doqquz ismi zikr edilməmişdir. Yəni, heç bir hədisdə bu doxsan doqquz ad sayılmamışdır. Məhz bu səbəbdən də, alimlər Allahın bu adlarının təyini haqqında ictihad etmişdirlər. Bu doxsan doqquz adın təyini peyğəmbər ﷺ deyil, alimlər tərəfindən ictihad yolu ilə olmuşdur. Məlum olduğu kimi, ictihadı bir məsələlərdə də, hansısa alimə eyb tutmaq olmaz. Bəzi alimlərin zikr etdiyi adları, digər alimlər Allahın adlarından saymamışdırlar. Məsələn, Şeyx Səadi “əl-Kəfi” ismini Allahında isimlərindən gördüyü halda, Şeyx ibn Usyemin bu ismi Allahın isimlərindən saymamışdır. Yaxud, İbnul Qeyyim, İbn Həcər, İbnul Arabi, ibn Məndəh və s. alimlər “ən-Nur” ismini Allahın isimlərindən saydıqları haqda, şeyx ibn Useymin bu ismi Allahın isimlərindən saymamışdır. Və ya, İbnul Qeyyim “ər-Raşid” ismini Allahın isimlərindən gördüyü halda, Şeyx ibn Useymin, İbn Həcər, İmam Qahtani və s. alimlər bu ismi Allahın isimlərindən görməmişdirlər. Həmçinin, Şeyxul İslam İbn Teymiyyə “əl-Hədi” ismini Allahın isimlərindən gördüyü halda, Şeyx ibn Useymin və digər alimlər bu ismi Allahın isimlərindən saymamışdır. Yəni, alimlər Quran və Sünnəyə əsasən ictihad edərək,

Allahın isimlərini təyin etmişdirlər. Məhz bu səbəbdən, hər kim öz tərcih etdiyi, yəni üstün gördüyü adı bizim zikr etdiyimiz adlar arasında görməzsə, təəccüblənməsin. Fəqət, bu kitabda qeyd etdiyim və mənalarını izah etdiyim isimlər, bir çox alimlərin kitablarından topladıqlarım və tərcih etdiyim adlardır.

Sonda Allahu təaalədən diləyirəm ki, bizə Öz adlarını öyrətsin, əzbərləyəmə kömək olsun və hər bir adın tələblərinə əməl etməyi bizə müvəffəq etsin. Həqiqətən, Allah təbərak və təalə buna qadirdir.

# *Ər-Rahmən və ər-Rahim*

**Lüğəti məna:**

Ər-Rahmən və ər-Rahim adları lüğəti mənada rəhimli, riqqətli və şəfqətli olmaq, həmçinin kiməsə acımaq, rəhmi gəlmək və s. bu kimi anlamlara gəlir. Ər-Rahmən və ər-Rahim ismi "rəhmət" sözündən alınıb. Lakin geniş, yüksək rəhimli deməkdir. Ər-Rahmən ismi ər-Rəhim ismindən daha geniş mənanı kəsb edir. Çünki ər-Rahmən "fi'lən" vəznindədir. Bu vəzn isə "fəil" vəznindən daha şiddətlidir. Ər-Rahim "fəil" vəznindədir. Ona görə ər-Rahmən adı daha geniş məna daşıyır. Əksər alimlər ittifaq ediblər ki, ər-Rahmən ərəb ləfzidir. Həmçinin alimlər Qurani-Kərimdə ərəb dilindən başqa bir dildə sözün olub-olmaması haqda ixtilaf etmişdirlər. Lakin əksər alimlər, məs: İmam Şafi, İbn Cərir, İbn əl-Fəris və başqaları Quranda bütün sözlərin ərəbcə olduğunu söyləmişdirlər. Dəlilləri isə bu ayədir:

**{إِنَّا أَنزَلْنَاهُ قُرْآناً عَرَبِيّاً لَّعَلَّكُمْ تَعْقِلُونَ}**

***"Biz onu ərəbcə bir Quran olaraq nazil etdik ki, (mənasını ) anlayasınız." (Yusuf /12 )***

O ki qaldı bu hədisə, hansı ki, Hudeybiyyə sülhündə peyğəmbər ﷺ Əli İbn Əbi Talibə "Yaz, Bismilləhir Rahmənir Rahim" dedikdə, Suheyl adlı birisi "Biz bu sözün nə olduğunu bilmirik! Sən bizim bildiyimizi – BismikAllahum (Allahın adı ilə) yaz!" demişdir.
Həmçinin Uca Allah buyurur:

**{وَإِذَا قِيلَ لَهُمُ اسْجُدُوا لِلرَّحْمَٰنِ قَالُوا وَمَا الرَّحْمَٰنُ أَنَسْجُدُ لِمَا تَأْمُرُنَا وَزَادَهُمْ نُفُورًا}**

***Onlara (müşriklərə): "Rəhmana (rəhmli olan Allaha) səcdə edin!" – deyildiyi zaman, onlar: "Rəhman nədir? Bizə əmr etdiyin şeyə səcdəmi edəcəyik?" – deyə cavab verərlər. Bu (səcdə əmri) onların (imana olan) nifrətini daha da artırar. (əl-Furqan /60)***

Bu hədis və ayə ərəblərin bu adı bilmədiklərinə dəlalət etmir. Bəs nə üçün onlar belə deyirdilər? Cavab olaraq deyirik ki, Ərəblər bunu inad edərək, inkar mənasında deyirdilər. Yəni, onlar "ər-Rahmən" kimdir? – dedikdə, bunu inkar mənasında söyləyirdilər. Necə ki, Allah təalə Zuxruf surəsində buyurur:

**{ وقالوا لو شاء الرحمن ما عبدناهم ما لهم بذلك من علم إن هم إلا يخرصون }**

***Onlar dedilər: "Əgər Rəhman istəsəydi, biz onlara (mələklərə) ibadət etməzdik!" Onların (dedikləri sözün həqiqətə nə qədər uyğun olması barədə) heç bir biliyi yoxdur. Onlar ancaq yalan danışarlar. (Zuxruf /20 )***

Bu ayə dəlalət edir ki, onlar Rəhman adını bilirdilər. Həmçinin ərəblərin bəzi cahiliyyə şeirlərində bu ad zikr olunmuşdur. Bəzi şairlər Rəhman adını öz şerlərində zikr edirdilər. Deməli səhih rəyə görə, ərəblər ər-Rahmən ismini bilirdilər.

ər-Rahmən ismi Quranda 57 dəfə zikr olunub.Məsələn:

**{الرَّحْمَنُ عَلَى الْعَرْشِ اسْتَوَى}**

***Rəhman ərşə istiva etdi.(Taha /5)*** və s.

***Ər-Rahim*** adı isə Quranda 114 dəfə zikr olunub. Bəs bu iki isim arasında fərq nədir? Yuxarıda qeyd etdiyim kimi bu iki isim rəhmətdən alınıb. Ər-Rahmən ismi rəhmətdə ər-Rəhim adından daha geniş və daha şiddətli mənanı ifadə edir. Lakin bu adlar arasındakı fərq haqqında iki görüş mövcuddur:

Birinci görüş odur ki, ər-Rahmən olan Allah rəhmət sahibir və bu rəhmət dünyada olan bütün məxluqatlara, Axirətdə isə möminlərə şamil edilir. Ər-Rahmən adından alınan sifət bütün yaradılmışları əhatə edir.

Ər-Rahim isə Qiyamət günü möminlərə şamil olunur. Bu fərqi bu ayəyə əsaslanaraq söyləyiblər.

**{الرَّحْمَنُ عَلَى الْعَرْشِ اسْتَوَى}**

***Rəhman ərşi yaradıb hökmü altına almışdır (ərşə hakimdir). (Taha /5)***

Ayədə Allahu təalə "istiva" kəlməsini Rahmən ismi ilə zikr etdi. Bu da rəhməti ilə bütün məxluqatlara şamil edilir. Yəni, rəhmətinin bütün məxluqarlara aid olsun deyə, uca Allah "Rahmən" adı ilə zikr etdi. İstiva kəlməsinin bu adla zikr olunması bu mənadadır.

ər-Rahim isminə gəldikdə isə Allahu subhənə təalə bu ad haqqında buyurur:

**{ وَكَانَ بِالْمُؤْمِنِينَ رَحِيماً }**

***"...Allah möminlərə rəhm edəndir!" (Əhzəb /43)***

Bu görüşdə olan alimlər söyləyir ki, Allah subhənu və təalə burada möminləri xüsusiləşdirərək, Rahim adını vurğuladı. Bu səbəbdən də, Rahmən adı ümumi hamı üçün, Rahim adı isə yalnız möminlər üçündür.

İkinci görüş isə budur ki, ər-Rahmən Allahın zatı sifətinə, ər-Rahim isə feli sifətinə dəlalət edir. Necə ki bunu İbn Qeyyim söyləmişdir.

Birinci dəlalət edir ki, rəhmət onun sifətidir. İkinci isə dəlalət edir ki, Allah rəhməti ilə yaratdıqlarına rəhm edir. Bu fərqi daha aydın başa düşmək üçün bir misalı sizin diqqətinizə çatdırıram. Allah subhənə təalə buyurur:

***{...وَكَانَ بِالْمُؤْمِنِينَ رَحِيماً}***

***"...Allah möminlərə rəhm edəndir!" (Əhzəb /43)***

***{إِنَّهُ بِهِمْ رَؤُوفٌ رَّحِيمٌ}***

***"O, həqiqətən, onlara qarşı çox şəfqətli, çox rəhimlidir." (Tövbə /117)***

Quranda elə bir ayə yoxdur ki, orada "Onlara qarşı rahməndir!" – deyilsin. Ancaq "Onlara qarşı rəhimlidir" deyilir. Bununla da bilinir ki, ər-Rahmən- Allah təalə bu sifətlə vəsflənib. ər-Rahim - isə rəhməti ilə rəhm edir. Bunu ibn Qeyyim "Bədəi əl-Fəvaid"kitabında qeyd etmişdir.
Allah təbərak və təalə ər-Rahmən adı ilə Allahdan başqasının adlanmasına izn verməyib. ər-Rahmən adı qoymaq olmaz. Həsən (Allah ondan razı olsun) deyir ki, ər-Rahmən elə bir isimdir ki, insanlar bu adı özlərinə götürə bilməzlər. Lakin ər-Rahim ismi ilə insanlar adlana bilər. Necə ki, Allahu təalə bu adla öz peyğəmbərini ﷺ adlandırmışdır:

***{... بِالْمُؤْمِنِينَ رَءُوفٌ رَّحِيمٌ }***

***(Muhəmməd) möminlərlə şəfqətli, mərhəmətlidir! (Tövbə/128)***

Bu da dəlalət edir ki, ər-Rahim adı qoymaq olar, lakin ər-Rahmən qətiyyən olmaz. Çünki bu adla yalnız Allahu təalə adlanıb. Ona görə ibn Kəsir buyurur ki, Allahın elə adları var ki, o adlarla başqası adlana bilər və elə adlar var ki, o adlarla Allahdan başqası adlana bilməz. O adlardan məsələn: ər-Rahmən, əl-Xaliq və s.

# *Əl-Məlik, əl-Məliyk, əl-Mə'lik*

**Lüğəti məna:**

Bu üç adın mənası mülk sahibi deməkdir. Yəni, mülk Onun öhdəsindədir, Onun ixtiyarındadır və onu istədiyi kimi sərf edir. Quranda əl-Məlik ismi beş dəfə zikr olunub. Məsələn,

**{هُوَ اللَّهُ الَّذِي لا إِلَهَ إِلاَّ هُوَ الْمَــلِكُ}**

***O, Özündən başqa heç bir məbud olmayan, Hökmran, Müqəddəs, Pak, haqqı təsdiq edən, hər şeyi müşahidə edən, Qüdrətli, Qadir, Məğrur Allahdır. (Həşr /23)***

**{مَلِكِ النَّاسِ}**

***"... insanların Hökmdarına". (ən-Nəs /2) və s.***

Əl-Mə'lik ismi isə iki dəfə zikr olunub. Məsələn:

**{مَالِكِ يَوْمِ الدِّينِ}**

***Haqq-hesab gününün Hökmdarına! (Fatihə /4)***

**{قُلِ اللَّهُمَّ مَالِكَ الْمُلْكِ تُؤْتِي الْمُلْكَ مَن تَشَاء ...}**

***De: "Ey mülkün sahibi Allahım! Sən istədiyin kəsə mülkü verir və istədiyindən də onu geri alırsan; istədiyin kimsəni yüksəldir və istədiyini də alçaldırsan. (Ali İmran /26)***

Əl-Məliyk ismi isə yalnız bir dəfə zikr olunub.

**{فِي مَقْعَدِ صِدْقٍ عِندَ مَلِيكٍ مُّقْتَدِرٍ}**

***"... qadir Hökmdarın hüzurundakı haqq məclisində olacaqlar!" (əl-Qəmər /55)***

**Allah haqqında bu ismin mənası:**

Zuccəci buyurur ki, əl-Məliik - mülkündə əmrləri icra edəndir. Xattabi buyurur ki, tam şəkildə mülkiyyətə sahib olmaqdır. Bütün mülklərə sahib olan- deməkdir. Amma əl-Məəlik əl-Məlikdən xasdır. Yəni əl-Məlik ümumidir. Əl-Məəlik isə əl-Məlikin xasıdır. Əl-Leysə buyurur ki:"əl-Məlik huvallah" – Məlik Allahdır. Mülklərin məlikidir, sahibidir. Həmçinin qiyamət gününün məlikdir. Yaradılmışların rəbbidir və məlikidir. İbn Cərir buyurur ki, əl-Məlik hansı ki, ondan yuxarıda, yüksəkdə məlik yoxdur. İbn Kəsir "O, Özündən başqa heç bir məbud olmayan, Hökmran, Müqəddəs, Pak, haqqı təsdiq edən, hər şeyi müşahidə edən, Qüdrətli, Qadir, Məğrur Allahdır. (Həşr /23)" ayəsinin şərhində buyurur ki, yəni, bütün şeylərin məlikidir. Mülkündə istədiyini edir və ona heç kim mane ola bilmir. Allahın qüdrəti var öz mülkündə və onun bunda şəriki yoxdu. Mütləq mülkə sahib olan tək Allahdır. Mülkündə kamil şəkildə təsarruf edən Allahdır.

***{ لِلَّهِ مُلْكُ السَّمَاوَاتِ وَالْأَرْضِ يَخْلُقُ مَا يَشَاء يَهَبُ لِمَنْ يَشَاء إِنَاثًا وَيَهَبُ لِمَن يَشَاء الذُّكُور}***

***" Göylərin və yerin hökmü Allahın əlindədir. O, istədiyini yaradır, istədiyinə ancaq qız, istədiyinə də ancaq oğlan verir." (Şura /49);*** başqa bir ayədə isə buyurur:

***{قُل لِّلَّهِ الشَّفَاعَةُ جَمِيعًا لَّهُ مُلْكُ السَّمَاوَاتِ وَالْأَرْضِ ثُمَّ إِلَيْهِ تُرْجَعُونَ}***

***"De: Bütün şəfaət yalnız Allaha məxsusdur. Göylərin və yerin hökmü Onun əlindədir. Sonra siz (qiyamət günü) Onun hüzuruna qaytarılacaqsınız!" (Zuxruf /44)***

Mülk surəsində Allahu təalə buyurur:

***{تَبَارَكَ الَّذِي بِيَدِهِ الْمُلْكُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ}***

***"Hökm (hər şeyin ixtiyarı) əlində olan Allah nə qədər ucadır (nə qədər uludur). O, hər şeyə qadirdir!" (Mülk /1)***

Başqa bir ayədə isə:

***{لَهُ مُلْكُ السَّمَاوَاتِ وَالْأَرْضِ يُحْيِي وَيُمِيتُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ}***

***"Göylərin və yerin hökmü Onun əlindədir. Dirildən də, öldürən də Odur. O, hər şeyə qadirdir!" (Hədid /2)***

Bu ayədə Allah təbərak və təalə öz geniş və dərin mülkünü zikr etdi və axırda buyurdu ki, o, hər şeyə qadirdir. Mülkündə hər şey etməyə qadirdir. Heç bir şeyə aciz deyildir.

Və həmçinin buyurur:

***{... وَسِعَ كُرْسِيُّهُ السَّمَاوَاتِ وَالأَرْضَ وَلاَ يَؤُودُهُ حِفْظُهُمَا وَهُوَ الْعَلِيُّ الْعَظِيمُ}***

***"...Onun kürsüsü (elmi, qüdrət və səltənəti) göyləri və yeri əhatə etmişdir. Bunları mühafizə etmək Onun üçün heç də çətin deyildir. Ən uca, ən böyük varlıq da Odur" (Bəqərə /255)***

Bu böyüklükdə mülkü qoruyub saxlamaq Allaha ağır gəlmir. Lakin insanlar belə deyil. İnsanlar hansısa bir mülkə sahib olduqda aciz ola bilir. Tam şəkildə qüdrəti çatmaya bilir və s. Şovkəni buyurur ki, əl-Məlik yoxsa, əl-Məəlik isminin əbləğ olmasında alimlər ixtilaf etmişdirlər. Deyilir ki, əl-Məlik həm ümumidir, həm də əbləğdir. Belə ki, hər Məliyk Məəlikdir. Hər Məəlik isə Məliyk deyildir. Həmçinin Məəlik Məlikdən daha əbləğdir. Çünki həm insanların məəliki olur, həm də qeyrilərinin. Xaliqi mədh etməkdə əl –Məəlik Məlikdən daha əbləğdir. Əl-Məlik isə məxluqatı mədh etməkdə əl-Məəlikdən daha əbləğdir. Çünki məxluqatlardan olan məəlik bəzən məlik olmur. Allahu təala isə Məəlikdirsə artıq Məlikdir. Bu görüşü alimlərdən deyənlər olmuşdur. Abu Bəkr ibnul Arabi bu görüşü dəstəkləmişdir. Şovkani buyurur ki, haqq odur ki,

bunların hər ikisinin də öz xüsusiyyətləri var. Hansı ki, biri digərində yoxdur. Həmçinin buyurur ki, Məəlik elə bir şeyə qadirdir ki, Məlik ona qadir deyil. Həmçinin də əksi. Məlik bəzi işlərdə Məəlikdən daha güclüdür. Lakin Allaha nisbətdə dedikdə isə Məlik Allahın zatı sifətidir. Məəlik isə Allahın feli sifətidir. Bunları Şovkani "Fəthul-Qadir" kitabında qeyd etmişdir. Xülasə bu ad barəsində onu qeyd edim ki, mütləq şəkildə mülk sahibi Allahdır. Həqiqi mülkə layiq olan Allahdır. Lakin bəzi insanlar gördüyünüz kimi bəzi mülkə sahib olduqları halda müstəqil şəkildə heç bir şeyə qadir deyillər. Allahın izni olmadan və ya Allah onlara mülk bəxş etməsə onlar mülkə sahib dura bilməzlər. Uca Allah buyurur:

**{قُلِ اللَّهُمَّ مَالِكَ الْمُلْكِ تُؤْتِي الْمُلْكَ مَن تَشَاء وَتَنزِعُ الْمُلْكَ مِمَّن تَشَاء... }**

***"De: "Ey mülkün sahibi olan Allah! Sən mülkü istədiyin şəxsə verər, istədiyin şəxsi yüksəldər və istədiyin şəxsi alçaldarsan... " (Ali İmran /26)***

**Mülkü verən və alan Allahdır. Öz-özlüyündə məxluqat heç bir şeyə qadir deyildir. Hətta Allahu təalə məxluqata ibadət edən müşriklərə inkar edərək buyurur:**

**{وَيَعْبُدُونَمِنْدُونِاللَّهِمَالَايَمْلِكُلَهُمْرِزْقًامِنَالسَّمَاوَاتِوَالْأَرْضِشَيْئًاوَلَايَسْتَطِيعُونَ}**

***"(Müşriklər) Allahı qoyub göylərdən və yerdən onlara verəcək heç bir ruzisi olmayan və buna gücləri də çatmayanlara (bütlərə) ibadət edirlər." (ən-Nəhl /73)***

Başqa bir ayədə isə Uca Allah buyurur:

**{قُلْ أَتَعْبُدُونَ مِن دُونِ اللَّهِ مَا لَا يَمْلِكُ لَكُمْ ضَرًّا وَلَا نَفْعًا ۚ وَاللَّهُ هُوَ السَّمِيعُ الْعَلِيمُ}**

***"De: Allahı qoyub sizə nə bir zərər, nə də bir xeyir verə bilməyən şeylərəmi ibadət edirsiniz? Halbuki Allah (hər şeyi) eşidəndir, biləndir!" (Maidə /76)***

Həqiqi yerlərin və göylərin xəzinələrinə malik olan Allahdır. Xeyir onun əlindədir. İstədiyinə ruzi verən də odur. Həmçinin Allahu subhənəhu və təalə hər gün bir işdədir. Öz mülkündə istədiyi şeyi edir. Əbu Dərda (Allah ondan razı olsun) Rahmən surəsində keçən **"O hər gün (hər an) bir işdədir" (ər-Rahmən /29) ayə haqqında** peyğəmbərin ﷺ belə dediyini buyurur: "Onun işindən odur ki, günahları bağışlayar, çətinlikləri aradan götürür, bəzi qövmü ucaldır, bəzi qövmü isə alçaldır."

Bəqərə surəsində buyurur:

**{...وَاللَّهُ يُؤْتِي مُلْكَهُ مَن يَشَاءُ ۚ وَاللَّهُ وَاسِعٌ عَلِيمٌ}**

***"Allah Öz mülkünü (səltənətini) istədiyinə verər. Allah (Öz lütfü və kərəmi ilə) genişdir, (Allah hər şeyi) biləndir!" (Bəqərə /247).***

Bəzi insanlar təkəbbürlüklərindən  elə hesab edirlər ki, onun sahib olduğu mülk və ya əldə etdiyi var dövləti, hörməti, cah-cəlalı sanki özü qazanıb və haqsız olaraq insanlara zülm edirlər. Necə ki, Allah Firon barəsində xəbər verir ki:

**{وَنَادَىٰ فِرْعَوْنُ فِي قَوْمِهِ قَالَ يَا قَوْمِ أَلَيْسَ لِي مُلْكُ مِصْرَ وَهَٰذِهِ الْأَنْهَارُ تَجْرِي مِنْ تَحْتِيٓ ۖ أَفَلَا تُبْصِرُونَ}**

*“Firon öz qövmünə müraciət edib dedi: “Ey qövmüm! Məgər Misir səltənəti, altımdan (saraylarımın altından) axıb gedən bu çaylar mənim deyilmi?! Məgər görmürsünüzmü?!” (Zuxruf /51)*

Hətta təkəbbürlüyündən dedi ki:

**{فَحَشَرَ فَنَادَى. فَقَالَ أَنَا رَبُّكُمُ الأَعْلَى}**

*“ O, camaatını toplayıb onlara hündür səslə müraciət edərək: Sizin ən uca rəbbiniz mənəm!” (Nəziət /23-24)*

Uca Allah buyurur ki:

**{فَاسْتَخَفَّ قَوْمَهُ فَأَطَاعُوهُ إِنَّهُمْ كَانُوا قَوْمًا فَاسِقِينَ}**

*“Beləliklə, (Firon) öz qövmünü yelbeyin (yüngül) yerinə qoydu, onlar da ona itaət etdilər . Həqiqətən, onlar fasiq bir qövm idilər!”*

**{فَلَمَّا آسَفُونَا انتَقَمْنَا مِنْهُمْ فَأَغْرَقْنَاهُمْ أَجْمَعِينَ.فَجَعَلْنَاهُمْ سَلَفًا وَمَثَلًا لِلْآخِرِينَ}**

*“Onlar Bizi qəzəbləndirdikdə onlardan intiqam alıb hamısını (dənizdə) batırdıq.Və onları sonradan gələnlərə misal və ibrət dərsi etdik.” (Zuxruf /55-56).*

Başqa bir ayədə isə buyurur:
*“Həqiqətən bunda Allahdan qorxanlar üçün ibrət vardır”*

Həqiqətən Allahın Fironu həlak etməsində bu dünyada zalımlar və təkəbbürlülər üçün ibrətlər var. Firon da zənn edirdi ki, o, əbədi qalacaq, ölməyəcək. O, unutmuşdur ki, onu mülkü bir gün əldən gedəcək və ölüm onu haqlayacaq. Allah subhənə təalə bu barədə insanları oyadaraq buyurur:

**{... وَلِلَّهِ مُلْكُ السَّمَاوَاتِ وَالْأَرْضِ وَمَا بَيْنَهُمَا وَإِلَيْهِ الْمَصِيرُ}**
*“...Göylərin, yerin və onların arasında olan hər bir şeyin ixtiyarı Allahın əlindədir və axır dönüş də onun hüzurunadır!” (Məidə /18)*

Həmçinin bu barədə olan məsələlərdə heç kimi Məlikəl-muluk (mülklərin sahibi),

padşahların padşahı adlandırmaq olmaz. Muhəmməd peyğəmbər ﷺ buyurur: ***"Allah yanında ən pis ad məlikil əmlək adıdır."***

Sufyan buyurur ki, şahların şahı adlandırmaq olmaz. Çünki məlikəl muluk Allahdır. İnsanlar buna qadir deyillər. İnsanlar sahib olduğu mülkdən xərclədikdə azalır. Lakin Allah mülkündən sərf etdikdə heçnə azalmır. Ona görə də heç kimi məlikəl muluk adlandırmaq olmaz.

# *Əl-Quddus*

**Lüğəti məna:**

Əl-Quddus sözü lüğətdə iki mənada işlənib.

Birinci mənası ***"ət-təhəra – təmizlik"*** deməkdir. Ona görə də "***beytul məqdis"*** dedikdə ***"təmiz ev"*** mənasını verir. Əl Fərrau buyurur ki: Cəbrailə ***"ruhul quds (ruhut-təhəra)"*** dedikdə "***təmizlikdən xəlq olunan"*** mənasına gələr.

İkinci mənası isə ***"bərəkət"*** mənasında işlənər. Məsələn, ***"ərdul-muqəddəs"*** dedikdə "müqəddəs yer, bərəkətli yer" mənasını verir. Qatədə, İbnul Arabi bu kəlmələri işlətmişlər. Qurandakı ayələr bu kəlmələri daha da qüvvətləndirir. Ayədə deyilir ki, müqəddəs yer bərəkətli yerdir.

***{ سُبْحَانَ الَّذِي أَسْرَى بِعَبْدِهِ لَيْلاً مِّنَ الْمَسْجِدِ الْحَرَامِ إِلَى الْمَسْجِدِ الأَقْصَى الَّذِي بَارَكْنَا حَوْلَهُ لِنُرِيَهُ مِنْ آيَاتِنَا إِنَّهُ هُوَ السَّمِيعُ البَصِيرُ}***

***"Bəzi ayələrimizi göstərmək üçün bəndəsini bir gecə (Məkkədəki) Məscidülhəramdan ətrafını mübarək etdiyimiz (bərəkət verdiyimiz) Məscidüləqsaya (Beytülmüqəddəsə) aparan Allah pak və müqəddəsdir. O, doğrudan da, (hər şeyi) eşidəndir, görəndir." (əl-İsra /1)***

Başqa bir ayədə isə deyilir:

***{وَنَجَّيْنَاهُ وَلُوطًا إِلَى الْأَرْضِ الَّتِي بَارَكْنَا فِيهَا لِلْعَالَمِينَ}***

***"Biz onu da (İbrahimi də), Lutu da aləmlər üçün bərəkət verdiyimiz yerə qovuşdurduq."(Ənbiyə /71)***

Buna görə də əl-Quddus sözünün mənasından biri də bərəkət deməkdir. Əl-Quddus ismi Quranda iki yerdə zikr olunub. Həşr və Cumə surəsində.

{هُوَ اللَّهُ الَّذِي لَا إِلَهَ إِلَّا هُوَ الْمَلِكُ الْقُدُّوسُ...}

***"O, özündən başqa heç bir məbud olmayan, (bütün məxluqatın) ixtiyar sahibi, müqəddəs (pak) olan Allahdır..." (Həşr /23).***

{يُسَبِّحُ لِلَّهِ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الْأَرْضِ الْمَلِكِ الْقُدُّوسِ الْعَزِيزِ الْحَكِيمِ}

***"Göylərdə və yerdə nə varsa, (hamısı) mülkün (yer-göy mülkünün) hökmdarı (sahibi), müqəddəs (pak), yenilməz qüvvət, hikmət sahibi olan Allahı təqdis edib Onun şəninə təriflər deyər!" (Cumə /1)***

**Allah haqqında bu ismin mənası:**

Qatədə buyurur ki, əl-Quddus, Mübarək deməkdir. Beyhəqi buyurur ki, əl-Quddus, yəni eyblərdən təmiz olan, övladdan və şərikdən münəzzəh olan – deməkdir. Bu, onun zatı sifətidir. İbn Kəsir buyurur ki, əl-Quddus, yəni naqisliklərdən münəzzəh olub kamil sifətlərlə vəsf olunan deməkdir. Həmçinin Şovkani "Fəthul-Qadir" kitabında İbn Kəsirin dediyi mənaya yaxın bir mənada demişdir: "Naqisliklərdən münəzzəh olub kamil sifətlərlə vəsf olunan." Burada naqislik dedikdə, ona bütün naqisliklər daxildir. Onlar ki, (müşriklər) deyirlər: Allahın oğlu var və ya Allah filan şeyi etməkdə acizdir və s. bu kimi naqisliklərdən, uca Allah münəzzəhdir və kamil sifətlərlə vəsf olunub. Əl-Quddus isminin mənası budur.

# *Əs-Sələm*

**Lüğəti məna:**

Lüğəti mənası salamat və afiyət deməkdir. Necə ki, bunu İbnul Arabi qeyd etmişdir. Quranda Allah subhənə təalə buyurur:

{... وَإِذَا خَاطَبَهُمُ الْجَاهِلُونَ قَالُوا سَلَاماً}

***"...Cahillər onlara xoşagəlməz bir söz dedikləri zaman (onları incitməmək üçün) salam deyərlər."(Furqan /63)***

Ona görə də cənnətə ***"darus-sələm" (salamatçılıq evi)*** deyilir. Bəlalardan, pisliklərdən və s. bu kimi şeylərdən salamatdır.

***{...السلام على من اتبع الهدى}***

***"Doğru yolla gedənlərə salam olsun!" (Ta-hə /47)***

Kim Allahın qoyduğu yolla gedərsə, onun əzabından və qəzəbindən salamat (səlim) qalar. Həmçinin bir müsəlman digər bir müsəlmana salam verdikdə, yəni əs-sələmu əleykum dedikdə sanki onu əmin edir ki, məndən sənə şər gəlməz. Məndən salamatsan. Əs-Sələm Quranda cəmi bir dəfə zikr olunub:

***{هُوَ اللَّهُ الَّذِي لَا إِلَهَ إِلَّا هُوَ الْمَلِكُ الْقُدُّوسُ السَّلَامُ...}***

***"O Özündən başqa heç bir məbud olmayan, (bütün məxluqatın) ixtiyar sahibi, müqəddəs (pak) olan, (bəndələrinə) salamatlıq, (bəxş edəndir)..." (Həşr /23)***

**Allah haqqında bu ismin mənası:**

İbn Kəsir təfsirində buyurur ki: Allah bütün eyblərdən, naqisliklərdən sələmdir (təmizdir, münəzzəhdir). Həm zatında, həm sifətlərində, həm də fellərində. Əl-Əlusi buyurur ki, əs-Sələm - bütün naqisliklərdən və müsibətlərdən salamat olan deməkdir. Beyhəqi buna yaxın bir mənada deyir ki, əs-Sələm – bütün eybdən salamat qalan və bütün müsibətlərdən, bəlalardan uzaq olan deməkdir. Bu sifət onun zatı sifətidir. Bəziləri bu ad barəsində buyurur ki, əs-Sələm, yəni öz əzabından möminləri salamat edən. İbn Qeyyim "Nuniyyə" şerində buyurur ki: "O, bütün oxşarlıqdan və nöqsanlardan salamdır."

Allahın əs-Sələm ismi aşağıdakıları əhatə edir:
Allah feillərində sələmdir. Əbəs yerə nəsə etməkdən, kiməsə zülm etməkdən və ya hikmətsizlik etməkdən səlimdir, münəzzəhdir. Allahın sifətləri məxluqatın sifətlərinə oxşamaqdan səlimdir. Onun zatı bütün eybdən və naqisliklərdən səlimdir. Həmçinin onun isimləri bütün pisliklərdən, məzəmmətdən səlimdir. Tərifə layiqdir. Allahın kamil sifətlərinə tək-tək nəzər salsan görərsən ki, kamilliyinə zidd olan hər bir şeydən səlimdir. Məsələn, Allahın Həyat sifətinə nəzər salsan görərsən ki, yuxudan, mürgüdən və ölümdən səlimdir. Həyat sifəti kamildir. Həmçinin Allahın qeyyumiyyəti və qüdrəti yorğunluqdan, zəiflikdən münəzzəhdir. Allahın elmindən heçnə gizli deyildir. Onun kamil elminə unutqanlıq gəlmir. Fikirləşməsinə, nəyisə xatırlamasına ehtiyac yoxdur. Və yaxud da bilmədiyi bir şeyləri sonradan bilməsi və s. bu kimi şeylərdən münəzzəhdir. Onun elmi hər şeyi əhatə edib və bu sifət kamil sifətdir. Həmçinin Allahın kəlam sifətinə baxsan, görərsən ki, yalan danışmaqdan, zülmdən uzaqdır. Əksinə onun kəlamı sadiqlik və adilliklədir. Beləliklə, Allah subhənə təalənin bütün

sifətlərinə tək-tək nəzər yetirsən görərsən ki, kamilliyinə zidd olan hər bir şeydən səlimdir.

## *Əl-Mu’min və əl-Muheymin*

**Lüğəti məna:**

Əl-Mumin isminin iki lüğəti mənası var. Birinci mənası təsdiqdir. Zuccəci buyurur ki, imanın əsli təsdiq və siqadır.

**{...وَمَا أَنتَ بِمُؤْمِنٍ لِّنَا ...}**

***“...İndi biz doğru danışsaq da, sən bizə inanmayacaqsan!(sən bizi təsdiq edən deyilsən)”***

İkinci mənası isə əmin olmaqdır.

**{... وَآمَنَهُم مِّنْ خَوْفٍ}**

***“...onları qorxudan əmin etdi”(Qureyş /4)***

Bu isim Quranda yalnız bir yerdə, Həşr surəsində zikr olunub.

**{هُوَ اللَّهُ الَّذِي لَا إِلَهَ إِلَّا هُوَ الْمَلِكُ الْقُدُّوسُ السَّلَامُ الْمُؤْمِنُ ...}**

***“O, özündən başqa heç bir (məbud) olmayan, (bütün məxluqatın) ixtiyar sahibi, müqəddəs olan, salamatlıq, əmin-amanlıq bəxş edən Allahdır ...” (Həşr /23)***

**Allah haqqında bu ismin mənası:**

İbn Abbas deyir ki, yaratdıqlarını onlara zülm etməkdən əmin edir. Həmçinin İbn Cərir buyurur ki, əl-Mu’min -yaratdıqlarını onlara zülm etməkdən əmin edir. İbn Cərir burada Qatədəyə nisbət edir. Şovkani buyurur ki, əl-Mu’min – öz qullarına onun əzabından əminlik verib. Allahın bu adı haqqında deyiblər ki, möminlərə vəd verdiyi savabları təsdiq edən və kafirlərə vəd verdiyi əzabı təsdiq edəndir. Mucahid buyurur ki, əl-Mu’min – öz nəfsini bu sözlə təkləşdirəndir. Sə’di buyurur ki, əl-Mu’min – öz nəfsini kamil sifətlərinə görə səna edəndir

*Əl-Muheymin* ismi Quranda yalnız bir dəfə zikr olunub.

**{ هُوَ اللَّهُ الَّذِي لَا إِلَهَ إِلَّا هُوَ الْمَلِكُ الْقُدُّوسُ السَّلَامُ الْمُؤْمِنُ الْمُهَيْمِنُ...}**

*"O Özündən başqa heç bir  (məbud) olmayan, (bütün məxluqatın) ixtiyar sahibi, müqəddəs (pak) olan,  salamatlıq, əmin-amanlıq bəxş edən, (hər şeydən) göz-qulaq olub (onu) qoruyan Allahdır..." (Həşr /23)*

**Allah haqqında bu ismin mənası:**

İbn Cərir buyurur ki, təfsirçilər bu ad barəsində müxtəlif sözlər deyiblər. Mucahid və Qatədə deyiblər ki, əl-Muheymin, yəni əş-şəhid. Həmçinin buyurur ki, *"heymənə"* sözünün əsli ***"qorumaq"*** və ***"izləməkdir"***. Məsələn, bir kişi filankəsi izlədi, təqib etdi, müşahidə etdi  (qad heymənə fulanun əleyhi).

Bəzi təfsirçilər bu ismi qorumaq, izləmək, müşahidə etmək mənasında işlədib. İbn Kəsir buyurur ki: İbn Abbas və başqaları dedi ki, əl-Muheymin, yaratdıqlarının əməllərinə şahid olandır.

**{ والله على كل شيء شهيد}**

*"Allah hər şeyə şahiddir"*

**{... ثُمَّ اللّهُ شَهِيدٌ عَلَى مَا يَفْعَلُونَ}**

*"...Allah onların nə etdiklərinə şahiddir!" (Yunus /46 )*

Sə'di buyurur ki, əl-Muheymin- gizlində olanları, qəlblərdə gizlənənləri biləndir. Hansı ki, hər şeyi elmi ilə əhatə edib. Başqa alimlər buyurur ki, əl-Muheymin – nəzarət edəndir. Ondan heç bir şey gizli qalmır. Sirrləri və gizlində olanları bilir. Bütün hərəkətləri və sükunu bilir.

# *Əl-Əziz və əl-Cəbbar*

**Lüğəti məna:**

Əl-Əziz ismi lüğətdə qüvvət, şiddət, qalib gəlmək, yüksəklik və s. bu kimi mənalarda işlənir. UcaAllah buyurur:  ***{ولله العزة- İzzət  Allaha məxsusdur.}*** Yəni, qələbə, zəfər Allahındır  və s. Məsələn, deyəndə ki, filankəs mənə qarşı izzətli oldu, yəni mənə qalib gəldi. Bu isim Quranda doxsan iki dəfə zikr olunub.
Misal olaraq:
***{وَاللَّهُ عَزِيزٌ حَكِيمٌ} , {فَاعْلَمُوا أَنَّ اللَّهَ عَزِيزٌ حَكِيمٌ.***

**Allah haqqında bu ismin mənası:**

Qatədə buyurur ki, intiqam alanda intiqamında şiddətlidir. İbn Cərir buyurur ki, əl-Əziz: düşmənlərindən intiqam aldıqlarında intiqamında şiddətlidir. Hansı ki, bu intiqamın qarşısını heç kəs ala bilməz. Həmçinin Qurtubi buyurur ki, əl-Əziz, yəni güclüdür və heç kəs ona qalib gələ bilmir. İbn Kiysən buyurur ki, əl-Əziz, yəni heç nəyə aciz deyil. Necə ki, Allah Quranda buyurur:

**{... وَمَا كَانَ اللَّهُ لِيُعْجِزَهُ مِنْ شَيْءٍ فِي السَّمَاوَاتِ وَلَا فِي الْأَرْضِ ۚ إِنَّهُ كَانَ عَلِيمًا قَدِيرًا}**

***"Göylərdə və yerdə Allahdan qaçıb xilas ola biləcək heç bir şey yoxdur. Həqiqətən, o, biləndir və (hər şeyə) qadirdir." (Fatir /44)***

Əl-Kəsəi buyurur ki, əl-Əziz, qalib gələn deməkdir. Beyhəqi buyurur ki, əl-Əziz Allahın zatı sifətidir. Həmçinin Şeyx Sə'di buyurur ki, əl-Əziz, yəni bütün izzət onundur. Qüvvət izzəti, qalibiyyət izzəti və bütün məxluqat onun əzəmətinə boyun əymişdir.

***Əl-Cəbbar,*** əzəmətli olan, güclü olandır.

**{قَالُوا يَا مُوسَىٰ إِنَّ فِيهَا قَوْمًا جَبَّارِينَ ...}**

***"Ey Musa, orada nəhəng (qüvvətli) adamlar vardır." (Məidə /22)***

Həmçinin deyilir ki, bir insan təkəbbürlənəndə cabbar olur.

**{... وَلَمْ يَجْعَلْنِي جَبَّاراً شَقِيّاً}**

***"...Məni cəbbar və bədbəxt etmədi " (Məryəm /32)***
Yəni, məni təkəbbürlü və lovğa etmədi.
Allahın bu adı Quranda cəmi bir dəfə zikr olunub.

**{هُوَ اللَّهُ الَّذِي لَا إِلَٰهَ إِلَّا هُوَ الْمَلِكُ الْقُدُّوسُ السَّلَامُ الْمُؤْمِنُ الْمُهَيْمِنُ الْعَزِيزُ الْجَبَّارُ...}**

***"O Özündən başqa heç bir (məbud) olmayan, (bütün məxluqatın) ixtiyar sahibi, müqəddəs (pak) olan, (bəndələrinə) salamatlıq, əmin-amanlıq bəxş edən, (hər şeydən) göz-qulaq olub (onu) qoruyan, yenilməz qüdrət (qüvvət) sahibi, (hamını istədiyi hər hansı bir şeyə) məcbur etməyə qadir olan Allahdır..." (Həşr /23)***

**Allah haqqında bu ismin mənası:**

Qatədə buyurur ki, yaratdıqlarına istədiyini əmr edəndir. Xattabi buyurur ki, əl-Cəbbar yaratdıqlarına istədiyini əmr edib və istədiyini nəhy edəndir. Həmçinin Şovkani buyurur ki, ərəblər məlikə (padşaha) əl-Cəbbar deyirlər. Sə'di buyurur ki, əl-Cəbbar, uca olanların ucası, ən uca olan – deməkdir

# *Əl-Kəbir və Əl-Mutəkəbbir*

**Lüğəti məna:**

Əl-Kəbir sözünün əksi əs-səğir deməkdir. Əl-Kəbir böyük, əs-səğir isə kiçik mənasındadır. Əl-Kəbir ismi Quranda altı dəfə zikr olunub. Məsələn:

***{عَالِمُ الْغَيْبِ وَالشَّهَادَةِ الْكَبِيرُ الْمُتَعَالِ}***

***"O, qeybi də, aşkarı da biləndir, (hər şeydən) böyükdür, ucadır! " (Rəd /9)***

***{... وَأَنَّ اللَّهَ هُوَ الْعَلِيُّ الْكَبِيرُ}***

***"...Həqiqətən, Allah ucadır, böyükdür" (Həcc /62)***

**Allah haqqında bu ismin mənası:**

İbn Cərir buyurur ki, yəni Allah böyükdür, əzəmətlidir. Ondan böyük heçnə yoxdur. Xattabi buyurur ki, əl-Kəbir, yəni Allah məxluqata oxşamaqdan böyükdür. Şovkani buyurur ki, əl-Kəbir, yəni əzəmətli, hansı ki, hər bir şey Ondan kiçikdir. Qəhtani buyurur ki, Allah məcd və kibriyə sifətləri ilə həmçinin əzəmət və cəlal sifətləri ilə vəsflənib. Hansı ki, o, hər şeydən böyükdür, hər şeydən əzəmətlidir. Bununla da müsəlmanlar namaza başlayarkən Allahu Əkbər dedikdə bu sözün nə məna daşıdığını bilirik. Şeyxul islam İbn Teymiyyə (r) buyurur ki, Allahu Əkbər dedikdə, bu onun əzəmətinin isbatıdır. Çünki böyüklük əzəmətliyi əhatə edir. Lakin böyüklük (kəbir) daha kamildir. Məhz buna görə də namazda və azan verilərkən Allahu Ə'ləm (əzəmətli) deyil, Allahu Əkbər (ən böyükdür) deyilir.

***Əl-Mutəkəbbir*** ismi yuxarıda qeyd olunduğu kimi əl-Kəbir isminə yaxın mənadadır. Əl-Mutəkəbbir hər şeydən böyük olandır. Xattabi buyurur ki, əl-Mutəkəbbir, yəni məxluqatın sifətlərindən uca olandır. Qurtubi buyurur ki, əl-Mutəkəbbir, rübubiyyətində böyük olandır. Hansı ki, onun mislində heçnə yoxdur. Həmçinin əl-Mutəkəbbir bütün pisliklərdən uca və böyük olan. Pis, məzəmmət olunan və layiq olmayan sifətlərdən əzəmətli və böyük olan.

# *Əl-Xaliq və Əl-Xalləq*

**Lüğəti məna:**

***Əl-Xaliq.*** Xəlq, ərəb dilində iki mənada işlənir. Birinci mənası yoxdan yaratmaq, xəlq etmək. Yəni heç bir şeysiz, heç bir oxşarsız, yoxdan yaratmaq- deməkdir. İkinci mənası təqdir etmək, düzəltməkdir.

Birinci mənaya misal olaraq:

{... يَخْلُقُكُمْ فِي بُطُونِ أُمَّهَاتِكُمْ خَلْقاً مِن بَعْدِ خَلْقٍ فِي ظُلُمَاتٍ ثَلَاثٍ ...}

*"O sizi analarınızın bətnində üç zülmət  içində yaranışdan-yaranışa salaraq yaradır"(Zumər /6)*

İkinci mənaya (təqdir mənasında) misal olaraq:

{... وَتَخْلُقُونَ إِفْكاً...}

*"...və siz yalan uydurursuz..." (Ənkəbut /17)*

Yəni yalan təqdir edirsiz. Bu ayədəki  "xəlq" (təxluqun) təqdir etmək mənasındadır. Burdakı xəlq kəlməsi yaratmaq mənasında deyildir. Bununla da aydın olur ki, xəlq sözünün iki mənası var. Xəlq etmək və təqdir etmək. Əl-Xaliq ismi Quranda on bir dəfə zikr olunub.

Misal olaraq:

{هُوَ اللَّهُ الْخَالِقُ الْبَارِئُ...}

*"O, (hər şeyi) yaradan, yoxdan var edən, (hər şeyə) surət verən Allahdır..." (Həşr /24)*

**Həmçinin:**

{... فَتَبَارَكَ اللَّهُ أَحْسَنُ الْخَالِقِينَ}

*"...Yaradanların ən gözəli olan Allah nə qədər (uca, nə qədər) uludur!" (Muminin /14)*

{ أَفَرَأَيْتُم مَّا تُمْنُونَ . أَأَنتُمْ تَخْلُقُونَهُ أَمْ نَحْنُ الْخَالِقُونَ }

*Bəs (bətnlərə) axıtdığınız nütfəni gördünüzmü ? Onu siz yaradırsız yoxsa biz ?! (Vaqiə /58-59)*

Allahın əl-Xaliq isminin mənası, *Allah yaradandır* deməkdir. Xəlq edəndir və ya yoxdan icad edəndir. Amma deyəndə ki, insan filan şeyi xəlq etdi. Xəlq insana nisbət olunduqda artıq ikinci məna qəsd olunur. Birinci mənada ola bilməz. Çünki birinci mənaya qadir olan Allahdır. Necə ki, Quranda buyurur:

{...هَلْ مِنْ خَالِقٍ غَيْرُ اللَّهِ...}

*"..Allahdan başqa xaliq varmı ?..." (Fatir /3)*

Əlbəttə ki, yoxdur. Amma deyəndə ki, insan xəlq etdi, artıq başa düşülür ki, təqdir etdi, düzəltdi.

Uca Allah buyurur:

**{...أَخْلُقُ لَكُم مِّنَ الطِّينِ كَهَيْئَةِ الطَّيْرِ فَأَنفُخُ فِيهِ فَيَكُونُ طَيْراً بِإِذْنِ اللّهِ..}**

***"...sizin üçün palçıqdan quşa bənzər bir surət düzlədib ona üfürərəm, o da Allahın iznilə quş olar..." (Ali İmran /49)***

Ayədəki ***"əxluqu"*** kəlməsi *düzəldirəm, palçıqdan quşa bənzər bir şey düzəldib ona üfürürəm* anlamına gəlir. Xəlq kəlməsi insana nisbət olunanda düzəltmək və ya təqdir etmək anlamına gələr.

***Əl-Xalləq*** ismi isə Quranda iki yerdə zikr olunub:

**{ إِنَّ رَبَّكَ هُوَ الْخَلَّاقُ الْعَلِيمُ}**

***"Həqiqətən, Rəbbin xalləq əlimdir (yaradandır və biləndir )" (Hicr/86)***

**{... وَهُوَ الْخَلَّاقُ الْعَلِيمُ}**

***"Şübhəsiz ki, Allahyaradan (xalləq) və biləndir (əlim)." (Yə Sin/81)***

Lakin əl-Xalləq ismi ilə əl-Xaliq isminin arasında olan fərqə gəlincə isə alimlər qeyd edirlər ki, əl-Xaliq öz elmi ilə təqdir edir, qüdrəti ilə icad edir və yoxdan xəlq edir. Əl-Xalləq isə ***"siğətun mubələğa"***, yəni mübaliğə formasındadır. Daha genişdir. Belə ki, əl-Xalləq yaratdıqlarında nə istəyir və necə istəyir icad edir.

Allah buyurur:

**{ إِن يَشَأْ يُذْهِبْكُمْ أَيُّهَا النَّاسُ وَيَأْتِ بِآخَرِينَ وَكَانَ اللّهُ عَلَى ذَلِكَ قَدِيراً}**

***"Ey insanlar! Əgər O istərsə, sizi yox edər, (yerinizə) başqalarını gətirər. Allah buna qadirdir! " (Nisə /133)***

Allah öz yaratdıqlarında mütləq qüdrəti ilə nə istəyir, necə istəyir xəlq edir. Hətta olan şeyi olduğundan daha da gözəl bir şəkildə xəlq edir. Bu izah mötəzilə əqidəsinə rəddir. Onlar iddia edirlər ki, əgər bir şey varsa mümkün deyil ki, ondan gözəli icad olsun. Bu cür demək Allahın əl-Xalləq ismini inkar etməkdir. Lakin biz bilirik ki, Allah subhənəhu və təalə hər bir şeyi gözəl biçimdə xəlq edib. Uca Allah buyurur:

**{الَّذِي أَحْسَنَ كُلَّ شَيْءٍ خَلَقَهُ وَبَدَأَ خَلْقَ الْإِنسَانِ مِن طِينٍ}**

***"O, yaratdığı hər şeyi gözəl yaratdı, insanı palçıqdan xəlq etməyə başladı." (Səcdə /7)***

Alimlər bu iki ad arasında olan fərqi yuxarıda qeyd etdiyim kimi izah etmişdirlər. Bəziləri deyir ki, əl-Xalləq mübaliğə formasındadır, yəni çox xəlq edən deməkdir.

# *Əl-Musavvir*

**Lüğəti məna:**

Əl-Musavvir ismi Quranda cəmi bir yerdə zikr olunub. Allah təbərak və təalə buyurur:

**{هُوَ اللَّهُ الْخَالِقُ الْبَارِئُ الْمُصَوِّرُ...}**

***"O, (hər şeyi) yaradan, yoxdan var edən, (hər şeyə) surət verən Allahdır..." (Həşr /24).***

Ayə dəlalət edir ki, əl-Musavvir Allahın ismidir. Feil formasında isə bir neçə yerdə zikr olunub:

**{هُوَ الَّذِي يُصَوِّرُكُمْ فِي الأَرْحَامِ كَيْفَ يَشَاءُ...}**

***"Bətnlərdə (anaların bətnində) sizə istədiyi surəti verən odur..." (Ali İmran /6)***

**{وَلَقَدْ خَلَقْنَاكُمْ ثُمَّ صَوَّرْنَاكُمْ...}**

***"Sizi yaratdıq, sonra sizə surət verdik..." (Əraf /11).***

**{...وَصَوَّرَكُمْ فَأَحْسَنَ صُوَرَكُمْ وَإِلَيْهِ الْمَصِيرُ}**

***"Sizə surət verdi, surətlərinizi də gözəl yaratdı. Son dönüşünüz də onadır." (Təğabun /3)***

İsim kimi isə tək bir yerdə Həşr surəsində zikr olunub.

**Allah haqqında bu ismin mənası:**

İbn Cərir buyurur ki, İstədiyi kimi xəlq edən – deməkdir. Həmçinin İbn Cərir Allahın **"O Rəbbin ki, səni (yoxdan) yaratdı və sənə gözəl bir surət verdi. Səni istədiyi şəkilə saldı."** ***(İnfitar /7-8)*** ayəsini təfsirində buyurur ki, yəni istədiyi surətdə xəlq etdi. İbn Kəsir ***"O, (hər şeyi) yaradan, yoxdan var edən, (hər şeyə) surət verən Allahdır..." (Həşr /24)*** ayəsinin təfsirində buyurur ki, xəlq etmək istədikdə "Ol" deyir və istədiyi, seçdiyi kimi də olur. Xattabi buyurur ki, əl-Musavvir, yəni yaratdıqlarını tanısınlar deyə, müxtəlif surətdə xəlq etdi. Uca Allah Ğafir surəsində buyurduğu kimi ***"Sizə surət verdi və surətlərinizi gözəl şəklə saldı"***

Xattabi buyurur ki, insanı anasının bətnində üç xilqətə saldı. Qan formasında, ət parçası və sonra isə surət etdi. Forma verdi. Hansı ki, bu görkəmlə başqasından fərqlənir. Yaradanların ən yaxşısı olan Allah nə qədər xeyirxahdır. Bununla da aydın olur ki, əl-Musavvir ismi iki məna daşıyır:

Birincisi, əl-Musavvir, yəni yaratdığını rəhmətinə, elminə və təqdirinə müvafiq olaraq və həmçinin xalqın məsləhəsinə və mənfəatinə münasibliklə xəlq edən.
İkinci mənası isə müxtəlif surətdə, görkəmdə xəlq edən. Məsələn birini hündür, birini isə qısa, birini kişi, birini qadın və s. Yəni hər birini özünə xas surətdə xəlq edən.

# Əl-Bəri

**Lüğəti məna:**

İbnul Arabi deyir ki, bəria- təmizlənmək, bir şeydən uzaq olmaq, xilas etmək, qurtarmaq kimi mənaları daşıyır. Məsələn, xəstə bir insan xəstəliyindən azad oldu, xilas oldu, xəstəliyi bitdi – cümləsi ***"asbəhə bəəriən min məradihi"*** kimi ifadə olunur. Yəni, xəstəliyindən bəri oldu.

Əl-Bəri ismi Quranda üç yerdə zikr olunub.

{**هُوَ اللَّهُ الْخَالِقُ الْبَارِئُ**...}

***"O, (hər şeyi) yaradan, yoxdan var edən, (hər şeyə) surət verən Allahdır"(Həşr /24)***

Qalan iki "bəriə" kəlməsi isə Bəqərə surəsində zikr olunmuşdur:

{.. **فَتُوبُواْ إِلَى بَارِئِكُمْ فَاقْتُلُواْ أَنفُسَكُمْ ذَلِكُمْ خَيْرٌ لَّكُمْ عِندَ بَارِئِكُمْ**..}

***"Yaradanınıza tövbə edin, özünüzü öldürün! Bu, yaradanınızın yanında sizin üçün xeyirlidir!" (Bəqərə /54)***

**Allah haqqında bu ismin mənası:**

İbn Cərir buyurur ki, məxluqatı qüdrəti ilə mövcud edən, xəlq edən – deməkdir. Şovkani buyurur ki, əl-Bəri, yəni xaliq, yaratmaq – deməkdir. Xattabi buyurur ki, əl-Bəri xəlq edəndir. Sonra isə buyurur ki, bu ləfzdə canlıların xüsusiləşməsi vardır. Hansı ki, xəlqdə bu yoxdur. Çox az bir halda yerlərin və göylərin yaradılması əl-Bəri ismi ilə gələr. Məsələn, ***"Bəra-Allahu-SSəmə"-Allah səmanı xəlq etdi.*** Səmanın xəlq olunması "Bəraə" sözü ilə az işlənir. Lakin "bərəa" hansı məxluqata işlənir? Məsələn, ***"Bəraə-Allah əl-insən"*** – Allah insanı xəlq etdi və s. –deyilir. Xattabi bu ləfzdə olan ixtisası qeyd edir. Həmçinin başqa alimlər buna yaxın mənalar deyiblər. Allahın əl-Bəri ismi üç mənadadır:

Birinci mənası əl-Bəri, yəni icad edən, var edən və ya xəlq edən. Allahın bu ismi əl-Xaliq isminə oxşardır.

İkinci mənası, yaratdıqlarından bəzisini bəzisindən fərqləndirən.

Üçüncü mənası isə bu isim dəlalət edir ki, Allah insanı torpaqdan xəlq edib:

***{ مِنْهَا خَلَقْنَاكُمْ وَفِيهَا نُعِيدُكُمْ..}***

**"Biz sizi torpaqdan yaratdıq. Sizi ora qaytaracaq və bir daha oradan çıxardacağıq." (Ta Hə /55)**

Bu sözün əsli "bəri" sözündəndir, bəri sözü isə torpaq deməkdir.

Bir məsələni də qeyd etmək istəyirəm. Zəməxşəri dördüncü mənanı da qeyd etmişdir. O, buyurur ki, əl-Bəri insanları təfəvutsuz xəlq edəndir. Təfavutdan uzaq xəlq edəndir. Uca Allah buyurur:

***{ الَّذِي خَلَقَ سَبْعَ سَمَاوَاتٍ طِبَاقاً مَّا تَرَى فِي خَلْقِ الرَّحْمَنِ مِن تَفَاوُتٍ فَارْجِعِ الْبَصَرَ هَلْ تَرَى مِن فُطُورٍ}***

***"Yeddi göyü təbəqələr şəklində quran Odur. Sən Rəhman olan Allahın yaratdığında qətiyyən bir uyuşmazlıq, ixtilaf tapmazsan. Bir başını qaldırıb göyə diqqət yetir, heç onda bir çat görürsənmi?" (Mülk /3)***

Həmin bu dediyimiz "təfəvut" yəni ixtilaf, naqislik, eyb, xələl və.s bu kimi mənalardadır. Yəni Allah təala bunlarsız xəlq edib. Bu, Zəməxşərinin gətirdiyi dördüncü məna idi.

# *Əl-Ğafur və Əl- Ğaffər*

**Lüğəti məna:**

Ğafəra lüğəti mənada örtmək, gizlətmək və s bu kimi mənalar daşıyır. Məsələn, ***"ğafərallahu zunubəhu" – Allah onun günahını bağışladı,*** yəni günahının üstünü örtdü. Əl-Ğafur ismi Quranda doxsan bir yerdə zikr olunub. Əl- Ğaffər ismi isə cəmi beş ayədə zikr olunub.

***{نَبِّئْ عِبَادِي أَنِّي أَنَا الْغَفُورُ الرَّحِيمُ}***

***"Qullarıma xəbər ver ki, mən, həqiqətən, ğafur və rəhiməm" (Hicr /49)***

***{... أَلَا إِنَّ اللَّهَ هُوَ الْغَفُورُ الرَّحِيمُ}***

***"...Bilin ki, Allah, həqiqətən, ğafur və rəhimdir."***

***{وَهُوَ الْغَفُورُ الْوَدُودُ}***

***"O,ğafur, (bağışlayan) sevəndir."***

***{ إِنَّ اللَّهَ يَغْفِرُ الذُّنُوبَ جَمِيعًا إِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيمُ}***

*“Allah (tövbə etdikdə) bütün günahları bağışlayar. Həqiqətən, ğafur və rəhimdir!” (Zumər /53)*

***{إِنَّهُ كَانَ حَلِيماً غَفُوراً }***

*“Həqiqətən Allah həlimdir, ğafurdur” (Zumər /41)*

Əl-Ğaffər isminə gəldikdə isə Allah subhənə təalə Qurani-Kərimdə buyurur:

***{ رَبُّ السَّمَاوَاتِ وَالْأَرْضِ وَمَا بَيْنَهُمَا الْعَزِيزُ الْغَفَّارُ}***

*“O, göylərin, yerin və onların arasında olanların (bütün məxluqatın) Rəbbidir! O, yenilməz qüvvət sahibidir, çox bağışlayandır(ğaffərdir) .” (Sad /66)*

Başqa bir ayədə isə buyurur:

***{ فَقُلْتُ اسْتَغْفِرُوا رَبَّكُمْ إِنَّهُ كَانَ غَفَّاراً}***

*“Və dedim: Rəbbinizdən bağışlanmağınızı diləyin. Çünki o, çox bağışlayandır! (ğaffərdir) ” (Nuh /10)*

**Allah haqqında bu isimlərin mənası:**

Xattabi buyurur ki, yəni qullarının günahlarını örtəndir. Sə’di buyurur ki, əl-Ğafur və əl-Ğaffər – bağışlayan və əfv edəndir. Sonra buyurur ki, hər bir insan Allahın əfvinə və məğfirətinə möhtacdır. Allahın məğfirəti və əfvi o kəslərə vəd edib ki, onlar səbəblərdən tuturlar. Uca Allah buyurur:

***{ وَإِنِّي لَغَفَّارٌ لِّمَن تَابَ وَآمَنَ وَعَمِلَ صَالِحاً ثُمَّ اهْتَدَى}***

*“Həqiqətən mən tövbə edib iman gətirəni yaxşı işlər görüb, sonra da doğru yolu tutanı çox bağışlayanam! ” (Ta Hə /82)*

Bağışlanmağa səbəb saleh əməl edib düz yol tutmaqdır. Bu, məğfirətə və əfvə səbəbdir. İbn Qeyyim şeirində bildirir ki, əl-Ğafur ismi odur ki, şirkdən başqa nə qədər günah və asiliklə gəlsən Allah ğafurdur.

Həmçinin əl-Ğaffər ismi haqqında deyiblər ki, bu dünyada gözəl işləri izhar edib pis işləri gizlədəndir. Axirətdə isə onun aqibətindən keçəndir. Günah böyük olsa belə, O, günah bağışlayandır. Günahın çoxluğuna baxmayaraq o, örtüb gizlədəndir.

Xülasə, bilmək lazımdır ki, Allahın əl-Ğafur və əl-Ğaffər adının mənası qullarının günahlarını, eyblərini örtən və xətalarından keçəndir.

# *Əl-Qahir və Əl-Qahhər*

**Lüğəti məna:**

Bu ad lüğətdə əl-qahru, yəni qalib gəlmək, məğlub etmək, üstün gəlmək, düşmənə qalib gəlmək, yuxarıdan götürmək və s. bu kimi mənalar daşıyır. Əl-Qahhər "fə'əl" formasında olduğu üçün əl-Qahirdən daha geniş mənadadır. Əl-Qahir ismi Quranda cəmi iki yerdə zikr olunub:

**{وَهُوَ الْقَاهِرُ فَوْقَ عِبَادِهِ ۚ وَهُوَ الْحَكِيمُ الْخَبِيرُ}**

***"O,öz qulları üzərində qahirdir. O, hikmət sahibidir, (hər şeydən) xəbərdardır!" (Ənam /18)***

**{وَهُوَ الْقَاهِرُ فَوْقَ عِبَادِهِ وَيُرْسِلُ عَلَيْكُم حَفَظَةً...}**

***"O,öz bəndələri üzərində qahirdir. O sizə gözətçi mələklər göndərir..." (Ənam /61)***

Əl-Qahhər ismi isə Quranda altı dəfə zikr olunub:

**{... قُلِ اللَّهُ خَالِقُ كُلِّ شَيْءٍ وَهُوَ الْوَاحِدُ }**

***"...De: "Allah hər şeyin xaliqidir. O birdir, qahhərdir" (Rəd /16)***

**{... لِّمَنِ الْمُلْكُ الْيَوْمَ لِلَّهِ الْوَاحِدِ الْقَهَّارِ}**

***"Bu gün hökm kimindir?" "Bir olan , hər şeyə qalib gələn qahhər olan Allahındır!"***

**Allah haqqında bu isimlərin mənası:**

İbn Kəsir buyurur ki, qullarının üstündədir, yəni boyunlar ona əyilib. Qəddarlar, zalım hökmdarlar onun qarşısında zəlildir və O, hər bir şeyə qalib gəlmişdir. Xattabi buyurur ki, əl-Qahhər bütün cəbbar olanlara, qəddar olanlara qalib gələn və onları öldürməklə, onlara istədiyi vaxt istədiyi şeyi etməklə qalib gələn və üstələyəndir. Əl-Huleymi buyurur ki, əl-Qahir yaratdıqlarını istədiyi kimi idarə edir. Məxluqatın üzərində qahirdir. Məsələn, məxluqatından istədiyini öldürür, istədiyini naqis edir və s. Bunun qarşısını heç kim ala bilmir. Onun təqdirindən heç kim çıxa bilmir. Allahın məxluqunun üzərinə nəyisə təqdir edibsə, artıq o məxluq bundan qaça bilmir. Həmçinin Huleymi buyurur ki, əl-Qahhər məğlub edən, üstün gələn və heç bir halda məğlub olmayandır. Bəzi alimlər buyurur ki, əl-Qahhər- yəni, bütün mövcud olanların hamısı aciz şəkildə Allahın qahrının və qüdrətinin altındadır, Allahın tabeçiliyindədir.

# *Ər-Raziq və Ər-Razzəq*

**Lüğəti məna:**

Ər-Rizq sözünün lüğəti mənası odur ki, faydalandığın hər bir şey rizq sayılır. Ər-Razzəq tək isim formasında Quranda cəmi bir yerdə gəlib:

**{ إِنَّ اللَّهَ هُوَ الرَّزَّاقُ ذُو الْقُوَّةِ الْمَتِينُ}**

***"Həqiqətən Allah razzəqdir, qüvvət və mətin sahibidir"* (Zəriyət /58)**

Cəm formasında isə beş dəfə zikr olunub.

**{ ... وَارْزُقْنَا وَأَنتَ خَيْرُ الرَّازِقِينَ}**

***"Bizə ruzi ver , sən ruzi verənlərin ən xeyirlisisən"* (Məidə /114)**

**{... وَاللَّهُ خَيْرُ الرَّازِقِينَ}**

***"Allah ruzi verənlərin xeyirlisidir!"***

**Allah haqqında bu ismin mənası:**

Allah haqqında bu ismin mənasına gəldikdə isə yaratdıqlarına ruzi verən anlamına gəlir. Xattabi buyurur ki, bu, tək möminlərə xas olmayıb, həm möminlərə, həm də kafirlərə aiddir. Allah ruzini həm öz dostuna, həm də düşməninə verir. Həm zəif insana, həm də güclü insana verir. Allah subhənə təalə buyurur:

**{ وَكَأَيِّن مِّن دَابَّةٍ لَّا تَحْمِلُ رِزْقَهَا اللَّهُ يَرْزُقُهَا وَإِيَّاكُمْ وَهُوَ السَّمِيعُ الْعَلِيمُ}**

***"Neçə-neçə canlılar vardır ki, ruzisini öz yanında daşıya bilmir. Onların da, sizin də ruzinizi Allah verir. O, eşidəndir, biləndir."* (Ənkəbut /60 )**

Huleymi buyurur ki, ər-Razzəq bol-bol ruzi verəndir. İbnul Əsir buyurur ki, ər-Razzəq odur ki, ərzaq yaratdı və məxluqata ruzilərini verdi. Sə'di buyurur ki, ər-Razzəq bütün qullarına ruzi verəndir. Yer üzündə elə bir canlı yoxdur ki, Allah onun ruzisini verməsin. Sonra şeyx buyurur ki, Allahın qullarına olan ruzisi iki növdür. ***Ümumi Ruzi və xüsusi Ruzi.*** Ümumi ruzi odur ki, həm facir qullara aiddir, həmdə itaətkar qullara, yəni bütün hamıya aiddir və bu ruzi bədən ruzisidir. Xas ruzi isə qəlbin ruzisidir, yəni qəlbin elm və imanla qidalanmasıdır. Ona görə də mömin dua edəndə və deyəndə ki, ***"Allahummə ərzuqni" Allahım mənə ruzi ver,*** yaxşı olar ki, qəlbində bu ikisini də keçirsin. Həm qəlbinin imanla, hidayətlə, saleh əməllə ruzilənməsini, həm də öz bədəni ilə halal yolla ruzi əldə etməsini. Xülasə, bu isimdən hədəf - ruzinin Allahın əlində olmasını bilməkdir. Bu da sənə iki şeyi öyrədir. Birincisi haram yeməmək. İkincisi isə yaşayışın üçün bir tikə çörəyə görə məxluqatın qarşısında zəlil olmamaq.

Bu iki isim arasında fərqə gəldikdə isə bəzi alimlər deyirlər ki, ər-Raziq verir və alır. Bəzisinə verir və bəzisindən alır. Ər-Razzəq isə verir və almır. Ər-Razzəq tək bəşəriyyəti deyil, bütün kainatı, həm kafiri, həm də mömini əhatə edir. Uca Allah buyurur:

***{ وَمَا مِنْ دَابَّةٍ فِي الْأَرْضِ إِلَّا عَلَى اللَّهِ رِزْقُهَا وَيَعْلَمُ مُسْتَقَرَّهَا وَمُسْتَوْدَعَهَا كُلٌّ فِي كِتَابٍ مُبِينٍ}***

***"Yer üzündə elə bir canlı yoxdur ki, onun ruzisini Allah verməsin. Allah onların qərar tutduqları yeri də, qorunub saxlanıldıqları yeri də bilir. Bunların hamısı açıq-aydın Yazıdadır (Lövhi-məhfuzdadır)." (Hud /6)***

Bəzi alimlər deyir ki, ayədə keçən ***"Onun ruzisini Allah verməsin"*** – kəlməsindəki sirr odur ki, məxluqun ruzisi yalnız ona aiddir. Alimlər buyurur ki, əgər insan bu ayəni tədəbbür etsə, görər ki, bu kəlimə lüzumluluğu göstərir. Allah subhənə təalə bütün kainatın ruzisini öz nəfsinə ilzəm edib. Bu isə tək Allaha aiddir.
Amma insanlardan ola bilsin ki, kimsə sənə nəsə versin və desin ki, *"Bunu verirəm və sonuncu dəfədir. Daha verməyəcəm."* Lakin Allah subhənə təalə bütün canlıların ruzisini verəndir. Qarışqanı öz yuvasında ruziləndirən, suyun dibində olan balıqları ruziləndirən Razzəq olan Allahdır.

# *Əl-Vahhəb*

**Lüğəti məna:**

Əl-Vahhəb lüğəti mənada malından çox verən mənasındadır. Əl-Vahhəb "fə'əl" vəznindədir. Mübaliğə mənasındadır. Allahın əl-Vahhəb ismi Quranda cəmi üç yerdə zikr olunub.

***{ رَبَّنَا لاَ تُزِغْ قُلُوبَنَا بَعْدَ إِذْ هَدَيْتَنَا وَهَبْ لَنَا مِن لَّدُنكَ رَحْمَةً إِنَّكَ أَنتَ الْوَهَّابُ}***

***"Ey Rəbbimiz! Bizi hidayət yoluna yönəltdikdən sonra qəlbimizi azdırma və bizə öz tərəfindən mərhəmət bəxş et. Həqiqətən, sən Vahhab-sən." (Ali İmran /8)***

***{ أَمْ عِندَهُمْ خَزَائِنُ رَحْمَةِ رَبِّكَ الْعَزِيزِ الْوَهَّابِ}***

***"Yoxsa sənin qüdrətli və bəxşedən Rəbbinin rəhmət xəzinələri onlardadır?" (Sad /9)***

***{ قَالَ رَبِّ اغْفِرْ لِي وَهَبْ لِي مُلْكاً لَّا يَنبَغِي لِأَحَدٍ مِّنْ بَعْدِي إِنَّكَ أَنتَ الْوَهَّابُ}***

***"O dedi: "Ey Rəbbim! Məni bağışla və mənə elə bir səltənət ver ki, məndən sonra heç kimə nəsib olmasın. Həqiqətən, sən bəxş edənsən." (Sad /35)***

**Allah haqqında bu ismin mənası:**

İbn Cərir "İnnəkə əntəl vəhhəb" ayəsinin təfsirində buyurur ki, həqiqətən sən qullarına dinlərində, həmçinin rəsulu və kitabı təsdiq etməyə müvəffəqiyyət verənsən. Yaratdıqlarından istədiyinə, mülk, sultanlıq və nübuvvət bəxş edənsən. Sən istədiyini bəxş edənsən. Hər şeyin xəzinəsi sənin əlindədir, bu xəzinədən istədiyin kəsə istədiyin şeyi verirsən.

Xattabi buyurur ki, əl-Vahhəb odur ki, bəxşiş verir və əvəzində heçnə tələb etmir. Yəni, müqabilsiz verəndir.

Huleymi buyurur ki, əl-Vahhəb o, layiq olmasa belə, ona nemət bəxş edəndir.

Həqiqətən Allah təalə əl-Vahhəbdir. İnsan Allahın öz qullarına nemətlər verməyinə baxarsa görər ki, insanlar layiq olmasa belə, haqqları çatmadıqları halda Allah təalə öz qullarına nemətlər bəxş edir.

Allah təala günahları bağışlayır, çətinlikləri aradan qaldırır, fəqir birini zəngin edir, xəstəyə şəfa verir, sonsuz birinə övlad verir, cahil kimsəni öyrədir, zəlalətdə olana hidayət verir, geyimsizləri Allah onu geyindirir, şükür edənin nemətini artırır, tövbə edənin tövbəsini qəbul edir, məhrum olan birinə nemət verir, zalıma kömək edir və s. Bunların hamısını Allah təala insanların haqqı olmadan onlara verir, yəni insan layiq olmur, amma Allah təala ona nemətlər bəxş edir.

Elə bir məxluq yoxdur ki ona nemət verilsin və o neməti Allah verməsin. Hər bir məxluq ki, nemətlənir, o nemətin sahibi, o neməti ona verən Allah təaladır. Həmçinin elə bir insan yoxdur ki, hədiyyə ilə, sövqatla, bəxşişlə, ənamla nemətlənsin və onun sahibi Allah olmasın. İnsana verilən hər bir hədiyyə, sövqat Allahdandır.

Necə ki Firon Musa aleyhi sələm-dən soruşur:

**{ قَالَ فَمَنْ رَبُّكُمَا يَا مُوسَى }**

***"Firon dedi: "Rəbbiniz kimdir, ey Musa?" (Ta Hə /49)***

Musa əleyhi sələm cavabında buyurur:

**{ قَالَ رَبُّنَا الَّذِي أَعْطَى كُلَّ شَيْءٍ خَلْقَهُ ثُمَّ هَدَى }**

***"Musa dedi: "Rəbbimiz hər şeyə öz xilqətini verən, sonra da ona doğru yolu göstərəndir!" (Ta Hə /50)***

Allah təala bizə öz kitabında özünün istədiyi qullarına bəxş etdiyi nemətlərdən xəbər verib. Məsələn, Allahın bəxş etdiyi hədiyyələrdən, nemətlərdən biridə saleh övladdır.

Allah təala İbrahim peyğəmbər haqqında buyurur:

**{وَوَهَبْنَا لَهُ إِسْحَاقَ وَيَعْقُوبَ نَافِلَةً وَكُلّاً جَعَلْنَا صَالِحِينَ }**

*“Biz ona İshaqı və bir də Yaqubu bağışlayıb hamısını əməlisaleh insanlar etdik.” (Ənbiyə /72)*

Həmçinin Allah təala Davud peyğəmbər haqqında buyurur ki:

**{ وَوَهَبْنَا لِدَاوُودَ سُلَيْمَانَ نِعْمَ الْعَبْدُ إِنَّهُ أَوَّابٌ}**

**“Biz Davuda Süleymanı bəxş etdik. O necə də gözəl qul idi! Daima Allaha üz tutardı” (Sad /30)**

Həmçinin Allah təala Zəkəriyyə peyğəmbər haqqında buyurur:

**{...  وَوَهَبْنَا لَهُ يَحْيَى...}**

*“Biz Ona Yəhyəni bəxş etdik.” (Ənbiyə /90)*

Saleh övlad Allah tərəfindən insana verilən hədiyyədir və ən gözəl nemətdir. Bəzən Allah təala istədiyi quluna həm qız uşağı, həmdə oğlan uşağı bəxş edir, yəni bunu istədiyində cəm edir.

Allah  buyurur:

**{... وَيَهَبُ لِمَن يَشَاءُ الذُّكُو }**

*“...O, istədiyini yaradır; kimə qız uşaqları, kimə də oğlan uşaqları bəxş edir” (Şura /49)*

Həmçinin saleh zövcə Allah tərəfindən bir hədiyyə və bir nemətdir. Uca Allah bu barədə buyurur:

**{ وَالَّذِينَ يَقُولُونَ رَبَّنَا هَبْ لَنَا مِنْ أَزْوَاجِنَا وَذُرِّيَّاتِنَا قُرَّةَ أَعْيُنٍ وَاجْعَلْنَا لِلْمُتَّقِينَ إِمَاماً}**

*“Onlar deyərlər: "Ey Rəbbimiz! Bizə gözümüzün aydınlığı olan zövcələr və övladlar bəxş et və bizi müttəqilərə imam et!"(Furqan /74)*

Həmçinin Allah təala Zəkəriyyə peyğəmbər haqqında buyurur:

**{ فَاسْتَجَبْنَا لَهُ وَوَهَبْنَا لَهُ يَحْيَى وَأَصْلَحْنَا لَهُ زَوْجَهُ ...}**

*“Biz onun duasını qəbul etdik, ona Yəhyanı bəxş etdik və zövcəsini ona uşaq doğmağa qadir etdik” (Ənbiyə /90)*

Həmçinin Allah təala bizə xəbər verib ki Nübuvvət yəni Peyğəmbərlik Allah tərəfindən verilən hədiyyədir:

**{  فَفَرَرْتُ مِنكُمْ لَمَّا خِفْتُكُمْ فَوَهَبَ لِي رَبِّي حُكْماً وَجَعَلَنِي مِنَ الْمُرْسَلِينَ}**

*“Mən sizdən qorxduğum üçün yanınızdan qaçıb getdim. Amma sonradan Rəbbim mənə hökmranlıq (peyğəmbərlik) verdi və məni elçilərdən etdi.” (Şuəra /21)*

Gözəl əxlaq Allahdan verilən nemət və bəxşişdir. Peyğəmbər ﷺ bu cür dua edərdi:

***اللَّهُمَّ اهْدِنِي لأَحْسَنِ الأَخْلاَقِ وَأَحْسَنِ الأَعْمَالِ لاَ يَهْدِي لأَحْسَنِهَا إِلاَّ أَنْتَ وَقِنِي سَيِّئَ الأَخْلاَقِ وَالأَعْمَالِ لاَ يَقِي***

***سَيِّئَهَا إِلاَّ أَنْتَ***

*“Ey Allahım! Məni gözəl əxlaqa və ən gözəl əmələ doğru hidayətləndir. Onun gözəlinə səndən başqa yönəldən yoxdur. Məni pis əxlaqdan və pis əməldən qoru, onun pisindən səndən başqa uzaqlaşdıran və ya qoruyan yoxdur.”*

Allah təala bəzi rəsulları haqqında xəbər verib ki:

***{وَوَهَبْنَا لَهُم مِّن رَّحْمَتِنَا وَجَعَلْنَا لَهُمْ لِسَانَ صِدْقٍ عَلِيّاً }***

*“Biz onlara öz mərhəmətimizdən əta etdik və gələcək nəsillər həmişə yada salsın deyə onlara yaxşı ad qismət elədik.” (Məryəm /50)*

Və xülasə, bilmək lazımdır ki, insanın üzərinə nə nemət gəlirsə hamısı Allah tərfindəndir.

# *Əl-Əliym*

**Lüğəti məna:**

Əl-İlmu (elm) lüğəti mənada cahilliyin əksidir. Elmli insan dedikdə bilən insan, cahil insan isə bilməyən, cahil olan nəzərdə tutulur. Həmçinin deyəndə ki, “əlləəmə” – elmdə yüksək mərtəbəyə çatan, daha çox bilən anlamına gəlir.

Allahın əl-Əliym ismi Quranda cəmi yüz əlli yeddi dəfə zikr olunub:

***{ قَالُوا سُبْحَانَكَ لاَ عِلْمَ لَنَا إِلَّا مَا عَلَّمْتَنَا ۖ إِنَّكَ أَنْتَ الْعَلِيمُ الْحَكِيمُ}***

*“Onlar: “Sən paksan, müqəddəssən! Sənin bizə öyrətdiklərindən başqa biz heç bir şey bilmirik. Həqiqətən sən əl-Əlim əl-Həkimsən”, - dedilər.”(Bəqərə /32)*

***{... إِنَّ اللَّهَ بِكُلِّ شَيْءٍ عَلِيمٌ}***

*“Allah hər şeyi biləndir (əlimdir)!” (Ənkəbut /62)*

***{ قَالَ رَبِّي يَعْلَمُ الْقَوْلَ فِي السَّمَاء وَالأَرْضِ وَهُوَ السَّمِيعُ الْعَلِيمُ}***

*“(Peyğəmbər) dedi: “Rəbbim göydə və yerdə (söylənən) hər sözü bilir. O, (hər şeyi) eşidəndir, əl-Əlimdir(biləndir)!” (Ənbiyə /4)*

**Allah haqqında bu ismin mənası:**

İbn Cərir buyurur ki, ***“Ey rəbbimiz! Sən öyrədilməmiş hər şeyi bilənsən.”*** Bu Allahın zatı sifətidir. Allah insanların qəlblərində olan gizli şeyləri biləndir.

İbn Mənzur buyurur ki, Allah təalə olacaq şeyləri olmamışdan qabaq bilir. Allahın elmi naqis deyil. Alahın elmi kamildir. Nə olursa, nə baş verirsə hamısını Allah bilir. Ondan gizli bir şey yoxdur.
Sə’di buyurur ki, əl-Əlim, onun elmi bütün şeyləri, zahiri və batini, gizlini və aşkarı, mümkün olmayan və mümkün olan şeyləri, keçmişdə və hal-hazırda, gələcəkdə nə varsa hamısını əhatə edib.
İbn Qeyyim öz Nuniyyə şeirində buyurur ki, *“O, əlimdir və onun elmi bütün kainatda olan sirri və aşkarı əhatə etmişdir. Sabah nə olacaqsa, nə olubsa, hal-hazırda mövcud olanları bilir. Olmayan bir işi olduqda necə olacağını bilir.”*
Kim desə ki Allah bir şeyi olmamışdan qabaq bilmir o insan ən şərli insandır. Məsələn, bəzi insanlar bu cür iddia irəli sürürlər ki, mən qələmi götürüb stolun üzərinə qoydum. Mən bunu etməmişdən qabaq Allah bilmirdi mən bunu edəcəm. Elə ki, etdim o zaman Allah bildi.
Bu rafizilərin əqidəsidir. Rafizi əqidəsinə görə Allahın səbiq elmi yoxdur, yəni Allah əzəldən deyil, olandan sonra bilir. Maraqlısı burasındadır ki, onlar nəyə görə belə deyiblər ? Onlar bunun cavabında belə deyiblər ki, əgər biz desək ki, Allah əvvəlcədən hər şeyi bilirdi onda Allah İmam Huseynin o cür ölümünə razı olmazdı. Qarşısını alardı əgər bilsəydi. Buna görə də onlar bu cür iddia edirlər.

# *Əl-Fəttəh*

**Lüğəti məna:**

Əl-Fəthu kəliməsi *açmaq* deməkdir. Əksi isə *“iğləq”* sözüdür, yəni *bağlamaq*. Həmçinin mənalarından biri *“ən-nəsru” – kömək etmək- dir.*

***{إِن تَسْتَفْتِحُواْ فَقَدْ جَاءكُمُ الْفَتْحُ ...}***

***“Əgər siz kafirlər ədalətli kömək istəyirsinizsə, artıq sizə kömək gəlmişdir.”****(Ənfal /19)*

Ayədəki fəth kəlməsi kömək mənasındadır. Əl-Əzhəri buyurur ki, əl-Fəth iki qövm arasında hökm verməkdir:

***{... رَبَّنَا افْتَحْ بَيْنَنَا وَبَيْنَ قَوْمِنَا بِالْحَقِّ وَأَنتَ خَيْرُ الْفَاتِحِينَ}***
***“Ey Rəbbimiz! Bizimlə qövmümüz arasında ədalətlə hökm et. Həqiqətən sən hökm verənlərin ən yaxşısısan!”*** *(Əraf /89)*

Ayədəki "*iftəh*" kəlməsi "*hökm ver*" mənasındadır. Allahın bu ismi Quranda tək formasında cəmi bir dəfə zikr olunub:

***{قُلْ يَجْمَعُ بَيْنَنَا رَبُّنَا ثُمَّ يَفْتَحُ بَيْنَنَا بِالْحَقِّ وَهُوَ الْفَتَّاحُ الْعَلِيمُ }***

***"De: "Rəbbimiz bizi bir araya cəmləşdirib və aramızda ədalətlə hökm verəcək. O, ən ədalətli hakimdir və əlimdir. " (Səbə /26)***

Uca Allah buyurur:

***{... رَبَّنَا افْتَحْ بَيْنَنَا وَبَيْنَ قَوْمِنَا بِالْحَقِّ وَأَنتَ خَيْرُ الْفَاتِحِينَ}***

***"Ey Rəbbimiz! Bizimlə qövmümüz arasında ədalətlə hökm et. Həqiqətən sən hökm verənlərin ən yaxşısısan!" (Əraf /89)***

Ayədəki "əl-Fətihin" cəm formasındadır. Allah haqqında bu adın mənasına gəldikdə isə Qatədə buyurur ki, ***"iftəh bəynənə və bəynə qauvminə bilhaqq"***, yəni ***"bizimlə qövmümüz arasında ədalətlə hökm et"***

**Allah haqqında bu ismin mənası:**

Allah haqqında bu adın mənası hökm verəndir. İbn Cərir yuxarıda qeyd olunan ***"əntə xayrul fətihin"*** ayəsinin təfsirində buyurur ki, ***"və əntə xayrul həkimin"***, yəni sən hökm verənlərin ən xeyirlisisən.
Xattabi buyurur ki, əl-Fəttəh, yəni qulları arasında hökm verən. Həmçinin buyurur ki, bəzən əl-Fəttəh öz qullarına rəhmət və ruzi qapısını açmaq mənasında işlənir. Sonra buyurur ki, bəzən qullarının qəlblərini açır və onunla haqqı görürlər. Bəzən isə kömək edən mənasında işlənir. Şeyx Sə'di də, eyni mənada sözlər deyib.

Xülasə demək olar ki, Allahın əl-Fəttəh isminin mənası aşağıdakılardır:

1. ***Əl-Fəttəh: qulları arasında ədalətlə və haqqına hökm verən.***
2. ***Əl-Fəttəh: qullarına rəhmət və ruzi qapısını açan***
3. ***Əl-Fəttəh: kömək edən.***

# *Əs-Səmi*

**Lüğəti məna:**

Əs-Səmi lüğəti mənada eşitmək deməkdir. İnsanın və ya qeyrisinin eşitməyi. Əz-Zucəcə buyurur ki, *"səmiə"* - əcəəbə mənasında da işlənir, yəni cavab verdi. Bu isim Quranda qırx beş dəfə zikr olunub. O ayələrdən:

**{... رَبَّنَا تَقَبَّلْ مِنَّا إِنَّكَ أَنتَ السَّمِيعُ الْعَلِيمُ}**

***"Ey rəbbimiz bizdən qəbul et. Həqiqətən sən səmi və əlimsən"* (Bəqərə /127)**

**{قُلْ أَتَعْبُدُونَ مِن دُونِ اللّهِ مَا لاَ يَمْلِكُ لَكُمْ ضَرّاً وَلاَ نَفْعاً وَاللّهُ هُوَ السَّمِيعُ الْعَلِيمُ }**

***"De: "Allahı qoyub sizə nə bir zərər, nə də bir xeyir verən şeylərəmi ibadət edirsiniz? Allah səmi'dir və əlimdir!"***

**Allah haqqında bu ismin mənası:**

İbn Cərir buyurur ki, qulları danışdığı zaman onların sözlərini eşidir. İbn Kəsir ***"innallahə səmiun basir"*** ayəsinin təfsirində buyurur ki, qullarının sözlərini, səslərini eşidəndir. Xattabi buyurur ki, Allah sirri və aşkarda deyilənləri eşidir. Həmçinin buyurur ki, bəzən ***"əs-simə" - (eşitmək) qəbul etmək, cavab vermək*** mənasında işlənir. Peyğəmbər ﷺ buyurur ki: «***Allahummə inni əuzu bikə min 'ilmin ləə yənfə' və min duəin ləə yusmə'» Allahım faydasız elmdən, eşidilməyən duadan sənə sığınıram.***

Hədisdəki «*ləə yusmə'*» kəlməsi eşidilməyən deməkdir. Lakin burda «*səm'*» sözü qəbul və icəbə mənasındadır, yəni qəbul olunmayan və ya cavab verilməyən duadan sənə sığınıram. Həmçinin namazda söylədiyimiz *"səmiallahu limən həmidəh"* cümləsindəki *«səmiə»* sözü qəbul etmək mənasındadır, yəni Allah həmd edənin həmdini qəbul etdi. İbn Qeyyim buyurur ki, eşitmək feli dörd mənada işlənir.

Birincisi, dərk etmək. Bu, səslər ilə əlaqəlidir. Səsləri dərk etmək.
İkincisi, başadüşmək və bilmək. Bu, sözlərin mənaları ilə əlaqəlidir.
Üçüncüsü, icabət etmək və istənilən şeyi vermək.
Dördüncüsü, qəbul edib boyun əymək.

Birinci mənaya misal olaraq:

**{ قَدْ سَمِعَ اللَّهُ قَوْلَ الَّتِي تُجَادِلُكَ فِي زَوْجِهَا وَتَشْتَكِي إِلَى اللَّهِ وَاللَّهُ يَسْمَعُ تَحَاوُرَكُمَا إِنَّ اللَّهَ سَمِيعٌ بَصِيرٌ }**

***"Əri barəsində səninlə mübahisə edən və Allaha şikayət edən qadının sözünü Allah eşitdi. Allah sizin söhbətinizi (səslərinizi) eşidir. Həqiqətən, Allah səmiun (eşidəndir), basir ( görəndir)!"***

İkinci mənaya misal olaraq:

**{ يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَقُولُواْ رَاعِنَا وَقُولُواْ انظُرْنَا وَاسْمَعُوا ْوَلِلكَافِرِينَ عَذَابٌ أَلِيمٌ}**

***"Ey iman gətirənlər! (Peyğəmbərə:) "Bizə qayğı göstər!"– deməyin; "Bizə nəzər yetir!"– deyin və eşidin! Kafirləri ağrılı bir əzab gözləyir."***

Bu ayədə «*səm'*» kəlməsi tək kəlamı başa düşmək deyil. Ayədəki eşitmək "*vəsməu*" kəlməsi mənanı bilib başa düşməkdir. Həmçinin möminlər deyirlər: "*səmi'nə və əta'nə*" - eşitdik və iman gətirdik, ayədəki eşitmək *bildik və başa düşdük* mənasındadır.

Üçüncü mənaya misal olaraq:

**{ سمع الله لمن حمده }**

***"Səmiallahu limən həmidəh"*** -Allah həmd edənin həmdini qəbul etdi.

Dördüncü mənaya misal olaraq:

**{... سَمَّاعُونَ لِلْكَذِبِ ... }**

**"Yalana həvəslə qulaq asırlar." *(Məidə /41)***

Ayədəki "*samməun*" (qulaq asmaq) kəlməsi, yalana boyun əymək, qəbul etmək mənalarında işlənir. Yəni, yalanı inkar etmirlər.

Xülasə, Allahın əs-Səmi isminin mənası odur ki, Allah bütün qullarının səslərini eşidir. Gizlində və aşkarda deyilən elə söz yoxdur ki, Allah onu eşitməsin.

# *Əl-Basir və Əl-Xabir*

**Lüğəti məna:**

Əl-Basir sözü məxluqlara aid edildikdə görmək, gözün hiss etməsi mənalarında işlənir. Məsələn "raculun basir" , yəni görən kişi. Əl-Basir ismi Quranda qırx iki dəfə zikr olunub. Misal olaraq:

**{ ... وَاعْلَمُواْ أَنَّ اللّهَ بِمَا تَعْمَلُونَ بَصِيرٌ }**

***"Allah, həqiqətən, sizin nə etdiklərinizi görəndir! (basirdir)"(Bəqərə /233)***

**Allah haqqında bu ismin mənası:**

İbn Cərir buyurur ki, qullarının etdiklərini görür və onların əməllərindən Allaha heçnə gizli qalmır. Xattabi buyurur ki, əl-Basir gizlin işləri biləndir. İbn Kəsir "*vallahu basirun bil ibəd*" ayəsinin təfsirində buyurur ki, Allah hidayətə və azğınlığa layiq olanları bilir. Allah feilləri barəsində soruşulmur. İnsanlar isə etdikləri barəsində sorumludurlar. Bu

isə yalnız Allahın hikməti və rəhməti ilə olur. Əlusi "*vallahu basirun bil ibəd*" ayəsinin təfsirində buyurur ki, Allah qulları əhvallarını və nə etdiklərini bilir.

Həmçinin şeyx Sə'di buyurur ki, əl-Basir, hər şeyi görəndir. Hətta xırda, kiçik, incə olsa belə Allah hər şeyi görəndir. Zülmətli gecədə qara daşın üzərində olan qarışqanın ayaq izlərini görəndir. O, yeddi qat yerin altında olanları gördüyü kimi yeddi qat göyün üzərində olanları da görür. Cəzaya layiq olanı hikmətinə görə eşidən və görəndir.

Başqa bir mənası isə hikmətə qayıdır.

***Əl-Xabir*** lüğəti mənada bir şey barəsində elmi olmaqdır. Məsələn, deyəndə ki, bu, xəbəri haradan aldın, bu xəbəri haradan bildin? Əl-Kəsəi buyurur ki, əl-Xabir bir şeyi elmi ilə xəbər verir. Əl-Xabir ismi Quranda cəmi qırx beş dəfə zikr olunub. Misal olaraq:

**{... وَلِلّهِ مِيرَاثُ السَّمَاوَاتِ وَالأَرْضِ وَاللّهُ بِمَا تَعْمَلُونَ خَبِيرٌ }**

***"...Göylərin və yerin mirası Allaha məxsusdur. Allah hər bir əməlinizdən (xabirdir) xəbərdardır!" (Ali İmran /180)***

**{ ... إِنَّ اللَّهَ بِعِبَادِهِ لَخَبِيرٌ بَصِيرٌ }**

***"Həqiqətən, Allah bəndələrindən xabirdir və basirdir." (Fatir /31)***

**{... قَالَتْ مَنْ أَنبَأَكَ هَذَا قَالَ نَبَّأَنِيَ الْعَلِيمُ الْخَبِيرُ }**

***"Bunu sənə kim xəbər verdi?" – deyə soruşmuş, o da: "Bunu mənə əlim, xabir olan (Allah) xəbər verdi!" – deyə cavab vermişdi."*** və s. bunun kimi ayələr.

**Allah haqqında bu ismin mənası:**

Allah haqqında bu adın mənasına gəldikdə isə İbn Cərir "*nəbbəəni əl əlimul xabir*" ayəsinin təfsirində buyurur ki, əl-Əlim, yəni qullarının sirrində olanlarını və qəlblərində gizlətdiklərini bilən, onların işlərindən xəbərdar olandır. Həmçinin buyurur ki, qullarının bütün etdiklərindən və qazandıqlarından xəbərdardır. Xattabi buyurur ki, Allah bir şeyin olduğunu bilən və onun həqiqətini biləndir:

**{ ... فَاسْأَلْ بِهِ خَبِيراً}**

***"Bunu Xəbir (biləndən) olandan soruş" (Furqan /59)***

İmam Qəzali buyurur ki, əl-Xabir odur ki, batini xəbərlər ondan gizli qalmır. Onun mülkündə zərrə qədər nə baş verirsə ondan Allahın xəbəri var. Sonra buyurur ki, əl-Xabir əl-Əlim mənasındadır. Həmçinin buyurur ki, əgər elm batini işlərə izafət olunsa bu zaman "*xibr*" adlanır və onun sahibi əl-Xabir olur.

Şeyx Sə'di "*əl-əlimul xabir*" haqqında buyurur ki, onun elmi bütün zahiri və batini işləri, sirləri və aşkarda olanı, vacibləri, mümkün olanları və mümkün olmayanları, keçmişi, hal-hazırı və gələcəyi əhatə etmişdir. Heç bir şey ondan gizli qalmır. Həmçinin digər alimlər buyururlar ki, əl-Xabir mübaliğə mənasındadır. "*Xibra*" sözündən alınmışdır. Xibra isə hər hansı bir şeyin həqiqətini bilməkdir.

# *Əl-Həkim və Əl-Həkəm*

**Lüğəti məna:**

Əl-Həkim və əl-Həkəm isminin hər biri əl-Həkim yəni hökm verən mənasındadır. Həmçinin əl-Həkəm ismini "*zul hikmə*" , yəni *hikmət sahibi* kimi də adlandırıblar. Əz-Zucəcə buyurur ki, əl-Həkəm və əl-Həkim eyni mənadadır. "*Əl hukmu*" (hökm) deyildikdə elm, fiqh və ədalətli hökm vermək anlamına gəlir.

Əl-Həkəm ismi Quranda cəmi bir yerdə zikr olunub:

**{أَفَغَيْرَ اللَّهِ أَبْتَغِي حَكَمًا ... }**

***"Allahdan başqasınımı özümə hakim istəməliyəm?!..."(Ənam /114)***

Əl-Həkim isə Quranda doxsan dörd dəfə zikr olunub:

**{وَاللّهُ عَزِيزٌ حَكِيمٌ }**

***"Allah əzizdir, həkimdir" (Məidə /38)***

**{... وَاللّهُ عَلِيمٌ حَكِيمٌ}**

***"Allah əlimdir, həkimdir" (Nisə /26)***

**{... وَهُوَ الْحَكِيمُ الْخَبِيرُ}**

***"Allah həkimdir, xabirdir" (Ənam, 18)***

**Allah haqqında bu ismin mənası:**

İbn Cərir buyurur ki, əl-Həkəm ədalətli olan və sözü düz deyəndir. Allahdan daha ədalətli və düz danışan yoxdur. İbn Kəsir buyurur ki, Allah "*əhkəmul həəkimin*"dir. Heç kəsə pislik və ya zülm etmir. Huleymi buyurur ki, əl-Həkəm, yəni hökm onadır. Allahın şəriəti bütünlüklə insanların islah olunması üçündür.

Əl-Həkim isminə gəldikdə isə İbn Cərir buyurur: əl-Həkim, yəni onun idarəçiliyinə nə bir xələl, nə də ki bir zərər gələr. İbn Kəsir buyurur ki, əl-Həkim Allahın sözlərində və feillərindədir. Hər şeyi öz hikməti və ədaləti ilə öz yerinə qoyandır. Huleymi buyurur ki, əl-Həkim sözü və feili düzgün olandır.

# *Əl-Həlim*

**Lüğəti məna:**

Əl-Həlim lüğəti mənada həlim olmaq, mülayim olmaq, yumşaq olmaq və s. bu kimi mənalarda işlənir. Həlim sözünün əksi səfeh olmaq anlamına gəlir. Əl-Həlim "*həlumə*" feilinin ismu failidir. Əl-Həlim ismi Quranda on bir yerdə zikr olunub. Məsələn, o ayələrdən:

**{... يَعْلَمُ مَا فِي أَنفُسِكُمْ فَاحْذَرُوهُ وَاعْلَمُواْ أَنَّ اللّهَ غَفُورٌ حَلِيمٌ }**

***"Bilin ki, Allah sizin qəlbinizdə olanı bilir. Ondan (Allahdan) qorxun, Allahğafur və həlimdir" (Bəqərə /235)***

**{... قَوْلٌ مَّعْرُوفٌ وَمَغْفِرَةٌ خَيْرٌ مِّن صَدَقَةٍ يَتْبَعُهَا أَذًى وَاللّهُ غَنِيٌّ حَلِيمٌ}**

***"Xoş bir söz və günahları bağışlamaq əziyyətlə (minnətlə) verilən sədəqədən daha yaxşıdır. Allah ehtiyacsızdır, həlimdir!" (Bəqərə /263)***

**{... وَاللَّهُ يَعْلَمُ مَا فِي قُلُوبِكُمْ وَكَانَ اللَّهُ عَلِيماً حَلِيماً}**

***"Allah qəlblərinizdə olanları bilir. Allah əlimdir, həlimdir!" (Əhzab /51)***

**Allah haqqında bu ismin mənası:**

İbn Cərir buyurur ki, əl-Həlim qullarının günahlarına görə onlara əzab verməyə tələsmir. Xattabi buyurur ki, Allah bağışlayan və gözləyəndir. Əzab verməyə tələsmir onlara qarşı həlimdir. Baxmayaraq ki, qulları asilik edir. İbnul Hassar buyurur ki, həlim mütləq hikmətli, qadir və bilən olmalıdır. Bunlarsız həlim olmaq olmaz. Əgər həlim qadir olmazsa bu zaman onun həlimliyi, mülayimliyi acizliklə qarışmışdır. Əgər həlim bilən, yəni əlim olmazsa intiqam almaması cahilliyindən olacaq. Əgər həlim hikmətli olmazsa onun həlimliyi sefehlikdən olacaq. Əl-Əshəbəni buyurur ki, əl-Həlim asi olan qullarına qarşı mülayim, həlim olandır. İbn Kəsir "*həlimun ğafur*" - bu iki ismin mənası haqqında buyurur ki, Allah görür ki, qulları ona qarşı küfr edir, asilik edir. Amma bununla belə Allah onlara qarşı həlimdir. Onların əzabını gecikdirir. Dərhal əzab vermir. Bəzilərinin isə günahlarını örtür və bağışlayır. İbn Qeyyim öz "Nuniyyə"

şeirində buyurur ki, Allah həlimdir və asiliklərindən tövbə etsinlər deyə, qullarına əzab verməyə tələsmir.

Huleymi buyurur ki, əl-Həlim isminin mənası odur ki, Allah subhənəhu və təalə qullarının günah, asilik etdiyini gördüyü halda belə onların ruzisini kəsmir. İtaətkar quluna nemət verdiyi kimi asi quluna da nemət verir.

Şeyx Sə'di buyurur ki, Allahın əl-Həlim isminin mənası odur ki, öz qullarının ona asi olmaqları ilə yanaşı onlara zahiri və batini nemətlər verir. Asilik edənlərin asiliklərinə görə, bunun müqabilində onlara qarşı həlimdir. Onların tövbə etməsi üçün onlara möhlət verir.
Bir şeyi bilmək lazımdır ki, Allah qullarına qarşı həlim olmağı onun acizliyindən irəli gəlmir. Allah subhənəhu və təalə qüdrətli olduğundan onlara möhlət verir. Həmçinin Allahın qullarına qarşı həlim olması, yəni onlara vaxtında əzab verməməsi onun bilməməsindən və ya elmsizliyindən irəli gəlmir. Heç kim deyə bilməz ki, Allah qullarının etdiyi əməllərindən xəbərsizdir və ona görə də onlara əzab vermir. Bu heç də belə deyil. Allah həm əlimdir, həm də həlimdir. Necə ki buyurur:

**{... وَاللَّهُ يَعْلَمُ مَا فِي قُلُوبِكُمْ وَكَانَ اللَّهُ عَلِيماً حَلِيماً}**

***"Allah qəlblərinizdə olanları bilir. Allah əlimdir, həlimdir" (Əhzab /51)***

Allahın qullarına qarşı həlim olması onlara ehtiyaclı olmasından irəli gəlmir. Heç kim deyə bilməz ki, Allahın qullarına ehtiyacı var və bu səbəbdən onları bağışlayır. Allah təbərak və təalə onlardan ehtiyacsız olduğu halda onları bağışlayır və rəhm edir. Allah zəngindir və onun heçnəyə ehtiyacı yoxdur. Əksinə insanlar Allaha möhtacdır. Əgər Allah insanların günahlarına görə hər bir insana əzab versəydi yer üzündə insan qalmazdı. Allah bu barədə buyurur:

**{وَلَوْ يُؤَاخِذُ اللّهُ النَّاسَ بِظُلْمِهِم مَّا تَرَكَ عَلَيْهَا مِن دَآبَّةٍ وَلَكِن يُؤَخِّرُهُمْ إلَى أَجَلٍ مُّسَمًّى فَإِذَا جَاء أَجَلُهُمْ لاَ يَسْتَأْخِرُونَ سَاعَةً وَلاَ يَسْتَقْدِمُونَ}**

***"Əgər Allah insanları zülmləri üzündən cəzalandırsaydı, yer üzündə heç bir canlını sağ buraxmazdı. Lakin (Allah) onlara müəyyən müddət möhlət verər. Əcəlləri gəlib çatdıqda isə (ondan) bircə saat belə nə geri qalar, nə də irəli keçə bilərlər."(Nəhl /61)***

Təbəri buyurur ki, Allah onlara qarşı həlimdir. Onların cəzasını müəyyən olan vaxta kimi gecikdirir, təxirə salır. O vaxt gələndə isə onların həlaklarından bir dəqiqə də olsa belə gecikməyəcək. Onların əzabının təxirə salınması insanlar üçün rəhmətdir. Lakin insanlar Allahın əzabının gecikməsini görüb özlərini günaha atırlar. Bəzi insanlar "*əgər indi əzab gəlmədisə deməli əzab yoxdur* "deyərək verilən möhlətə arxayın olurlar. Bu cür

insanlar Allahın rəhmətini, onun hikmət sahibi olduğunu hiss etmirlər.

# *Əl-Latif*

**Lüğəti məna:**

Əl-Latif lüğəti mənada yaxşılıq, ikram, hörmət, ehtiram və s. bu mənalarda işlənir. Məsələn, deyəndə ki, o, işində lətifdir, yəni o, işində mülayimdir. Əl-Latif "*lətafə*" feilinin ismu falidir. Allahın bu ismi Quranda yeddi yerdə zikr olunub:

**{...إِنَّ رَبِّي لَطِيفٌ لِّمَا يَشَاءُ ...}**

***"Həqiqətən, Rəbbim istədiyinə qarşı lətifdir (lütfkardır) !" (Yusuf /100)***

**{ أَلَا يَعْلَمُ مَنْ خَلَقَ وَهُوَ اللَّطِيفُ الْخَبِيرُ }**

***"Məgər yaradan (sizin gizli saxladığınız hər şeyi) bilməzmi?! O, lətifdir,xabirdir!" (Mülk /14)***

Bu ayələr dəlalət edir ki, əl-Latif Allahın isimlərindəndir.

**Allah haqqında bu ismin mənası:**

Qatədə ***"İnnə rabbi latifun limən yəşəə" (Mənim rəbbim istədiyinə qarşı lütfkardır) (Yusuf 100)*** ayəsi haqqında buyurur ki, Allah Yusifə qarşı lütfkar oldu. Onu zindandan çıxartdı və səhradan öz ailəsinə qaytardı. Xattabi buyurur ki, əl-Latif qullarına yaxşılıq edəndir. Onlara bilmədikləri yerdən yaxşılıq edir. Onlara gözləmədikləri yerdən məsləhələrinə çatmaq üçün səbəblər verir. Necə ki, Uca Allah buyurur:

**{ اللَّهُ لَطِيفٌ بِعِبَادِهِ يَرْزُقُ مَن يَشَاءُ وَهُوَ الْقَوِيُّ الْعَزِيزُ }**

***"Allah öz bəndələrinə çox lütfkardır; istədiyinə ruzi verər. O, qüvətlidir və qüdrətlidir" (Şura /19)***

Şovkani buyurur ki, "*innallahə latifun*", yəni ondan heçnə gizli qalmır. Onun elmi bütün gizli olan şeylərə çatır. Şeyx Sə'di buyurur ki, əl-Latif, yəni onun elmi bütün gizlidə olanları əhatə etmişdir. Allah batini və dəqiq işləri biləndir. Mömin qullarına qarşı lütfkardır. Öz lütfü və ehsanı ilə qullarına gözləmədikləri yerdən xeyirlərini çatdırandır. Həmçinin buyurur ki, əl-Latif, əl-Xabir və ər-Rauf mənasındadır.

İnsanların bu qədər günah etmələrinə baxmayaraq, Allah qullarına qarşı lütfkardır, onları tövbə etməyə çağırır. Həmçinin Allahın əl-Latif ismi Quranda əl-Xabir ismi ilə bir yerdə işlənib.

**{ يَا بُنَيَّ إِنَّهَا إِن تَكُ مِثْقَالَ حَبَّةٍ مِّنْ خَرْدَلٍ فَتَكُن فِي صَخْرَةٍ أَوْ فِي السَّمَاوَاتِ أَوْ فِي الْأَرْضِ يَأْتِ بِهَا اللَّهُ إِنَّ اللَّهَ لَطِيفٌ خَبِيرٌ}**

***"Oğlum, ( gördüyün hər hansı yaxşı, yaxud pis iş) bir xardal dənəsi ağırlığında olsa da, bir qayanın  içində, yaxud göylərdə və ya yerin dibində olsa da, Allah onu (qiyamət günü) ortaya gətirər . Həqiqətən, Allah lətifdir, xabirdir (xəbərdardır)" (Loğman /16)***

Həmçinin Allah Mülk surəsində buyurur:

**{ أَلَا يَعْلَمُ مَنْ خَلَقَ وَهُوَ اللَّطِيفُ الْخَبِيرُ }**

***"Yaradan Allah hər şeydən lətif və hər şeydən xəbərdar olduğu halda ola bilərmi ki, o, gizlində və aşkarda olanları bilməsin!"(Mulk /140)***

Bu ayələrdə əl-Latif ismi əl-Xabir ismi ilə bir yerdə gəlib. Bu da o deməkdir ki, Allah subhənəhu və təalə dəqiq iş nə qədər xırda olsa belə Allah onları bilir və ondan heçnə gizli qalmır. Hətta insanın öz əqlində, xəyalında keçən şeyləri Allah bilir.

# *Əl-Azim*

**Lüğəti məna:**

Əl-Azim lüğəti mənada kiçik sözünün əksidir, yəni əzəmətli, böyük mənasındadır. Məsələn, bir şeyi əzəmətli etdi, yəni bir şeyi böyük etdi anlamına gəlir. Bu isim Quranda doqquz dəfə zikr olunub:

**{...وَهُوَ الْعَلِيُّ الْعَظِيمُ }**

***"O, ucadır və əzimdir" (Bəqərə /255)***

**{...عَلَيْهِ تَوَكَّلْتُ وَهُوَ رَبُّ الْعَرْشِ الْعَظِيمِ }**

**"Ona təvəkkül etdim. O, əzəmətli (əzim) ərşin sahibidir! " (Tovbə /129)**

**{ اللَّهُ لَا إِلَهَ إِلَّا هُوَ رَبُّ الْعَرْشِ الْعَظِيمِ }**

***"O əzim (əzəmətli) ərşin Rəbbi (sahibi) olan Allahdan başqa heç bir ilah yoxdur!" (Nəml /26)***

**Allah haqqında bu ismin mənası:**

Əz-Zucəcə buyurur ki, mülkündə və sultanlığında cəlal və əzəmət sahibidir. Əl-Əsbəhəni buyurur ki, əzəmət Allahın sifətlərindəndir. Allah yaratdıqları arasında əzəmət xəlq edib və onlar bir-biriləri arasında əzəmətləşirlər. Sonra misal çəkərək buyurur ki, bəzi insanlar var-dövlətinə görə əzəmətlidir, bəzisi fəzilətinə görə əzəmətlidir, bəzisi elminə görə, bəzisi isə şan-şöhrətinə görə. İnsan hər hansısa bir

zaman hər hansısa bir şeydə əzəmətli olur və bəzi vaxtda olmur. Hər bir insan hansısa mənada əzəmətləşib. Amma Allah bütün əhvalında əzəmətlidir. Bu, xaliqlə məxluqun arasında əzəmətlikdə olan fərqdir. Sonra əl-Əsbəhəni buyurur ki, o insan ki, Allahın əzəmətini bilir gərək o, Allahın ikrah etdiyi şeyləri danışmasın. Allahı razı salmayan asiliklər etməsin. Allahın əzəmətini bilən adam gərək elə kəlmələr danışsın ki, o, Allahın qəzəbinə gətirməsin. Elə əməllər etsin ki, asilik olmasın. İnsan Allahın əl-Azim sifəti haqqında tədəbbür etsə boş sözlərdən, Allahın qəzəbinə gətirən əməllərdən uzaq olar. Həmçinin İbnul Əsir buyurur ki, əl-Azim onun həqiqətinin necə olduğunu təsəvvür etmək mümkün olmayandır. Əqlin həddi bunu bilə bilməz. Allahı əzəmətləşdirmək üçün ən böyük əməllər hər vaxt zikr etməkdir. Bir işə başladığın vaxt Allahın ismi ilə başlamaq. Onu çoxlu həmd etmək. Həmçinin peyğəmbərin ﷺ sünnəsinə tabe olmaq Allahı əzəmətləşdirməkdir. Həmçinin Allahı əzəmətləşdirməyin mühüm əsaslarından biri də, Allahın kəlamının qarşısına heç bir kəsin kəlamını qoymamaqdır.

**{ يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تُقَدِّمُوا بَيْنَ يَدَيِ اللَّهِ وَرَسُولِهِ وَاتَّقُوا اللَّهَ إِنَّ اللَّهَ سَمِيعٌ عَلِيمٌ }**

***"Ey iman gətirənlər! Heç bir şeydə Allahdan və Peyğəmbərindən önə keçməyin. Allahdan qorxun. Həqiqətən, Allah (hər şeyi) eşidəndir, (hər şeyi) biləndir!"(Hucurat /1)***

# *Əl-Əliyyu və Əl-Mutəal*

**Lüğəti məna:**

***Əl-'Uluv*** lüğəti mənada ucalıq, yüksəklik və bu kimi mənalardadır. Allahın əl-Əliyyu ismi Quranda cəmi səkkiz dəfə zikr olunub:

**{...وَلاَ يَؤُودُهُ حِفْظُهُمَا وَهُوَ الْعَلِيُّ الْعَظِيمُ }**

***"...Bunları mühafizə etmək onun üçün heç də çətin deyildir. O, əliyyun (ən uca)əzimdir (ən böyük)" (Bəqərə /255)***

**{... وَأَنَّ اللَّهَ هُوَ الْعَلِيُّ الْكَبِيرُ }**

***"Həqiqətən, Allah (əl-əliyyun) ucadır, (əl-kəbirdir) böyükdür" (Həcc /32)***

**{... فَالْحُكْمُ لِلَّهِ الْعَلِيِّ الْكَبِيرِ}**

***"...hökm (əl-əliyy) uca, (əl-kəbir) böyük olan Allahındır!" ( Ğafir /12 )***

**{... إِنَّهُ عَلِيٌّ حَكِيمٌ }**

***"O, əliyyun həkimdir. (O, ucadır, hikmət sahibidir! ) "( Şura /51)***

***Əl-Mutəa*** ismi isə Quranda cəmi bir dəfə zikr olunub:

**{عَالِمُ الْغَيْبِ وَالشَّهَادَةِ الْكَبِيرُ الْمُتَعَالِ}**

***"O, qeybi də, aşkarı da biləndir, (əl-kəbirdir) böyükdür, (əl-mutəaldır) ucadır!"* (Rəd /9)**

**Allah haqqında bu isimlərin mənası:**

İbn Cərir "*huvəl əliyyu*" ayəsinin təfsirində buyurur ki, yəni Allah ucadır. İmam Bəğəvi "*və ənnəllahə huvəl əliyy*" ayəsinin təfsirində buyurur ki, Allah hər şeydən ucadır, hər şeydən üstündür. İbn Kəsir *"və ənnallahə huvəl əliyyun kəbir" "və huvəl əliyyun azim"* ayələrinin təfsirində buyurur ki, hər bir şey Allahın sultanlığının, əzəmətinin altındadır. Ondan başqa nə ilah, nə də rəbb yoxdur. Sonra buyurur ki, Allah təbərak və təalə əzəmətlidir və ondan əzəmətli heçnə yoxdur. O, ucadır, ondan uca heçnə yoxdur. O, böyükdür, ondan böyük heçnə yoxdur. İbn Sə'di buyurur ki, Allah hər bir tərəfdən ucadır. Buna "*'uluv mutlaq*" - mütləq ucalıq deyillər.

# *Əş-Şəkur və Əş-Şəəkir*

**Lüğəti məna:**

Əş-şukur lüğəti mənada ehsan edənə yaxşılığına görə tərif deyib səna etməkdir. Məsələn: "*raculun şakur*", yəni şükr edən kişi. Allah buyurur:

**{ ...إِنَّهُ كَانَ عَبْدًا شَكُورًا }**

***"O, şükr edən qullardan idi"* (İsra /3)**

***Sual:*** Şükrlə həmdin fərqi nədir?
***Cavab:*** Bəzi alimlər buyurur ki, bunların arasında heç bir fərq yoxdur. İkisi də eyni mənadadır. Bunu deyənlərdən biri İbn Cərir ət-Tabəridir.
Bəzi alimlər isə bunların arasında fərqin olduğunu söyləyiblər və fərqləri bir neçə cür izah ediblər. Məsələn, həmd şükrün əksi olaraq yalnız dillə olur. Şükr isə həm dillə, həm qəlblə, həm də bədən üzvləri olur. Həmçinin deyiblər ki, həmd nemətin müqabilində və ya nemətsiz də olur. Şükr isə yalnız nemətin müqabilində olur. İbn Kəsir İbn Cərir ət-Təbərinin sözünü gətirərək buyurur ki, İbn Cəririn iddia etdiyi sözdə problem var. İbn Kəsir buyurur ki, həmd məhmud olana ləazim və mutəəddi sifətlərinə dillə səna etməkdir. Şükr isə yalnız mutəəddi-yə olur. Qəlblə, dillə və bədən üzvləri ilə olur. Bununla da belə aydın olur ki, həmd ümumidir. Çünki neməti və

digərlərini əhatə edir. Bir tərəfdən isə xüsusidir. Ona görə ki, yalnız dillə olur. Yəni həmd həm xüsusidir, həm də ümumidir. Amma şükr bunun tam əksidir. Çünki şükr nemətə görədir, nemətin müqabilindədir. Yeri isə həm dildir, həm digərləri. Bu barədə müxtəlif görüşlər var. Səhih olan budur ki, şükr həm dillə, həm qəlblə, həm də bədən üzvlərilə olur və yalnız nemətin müqabilində olur. Həmd isə yalnız dillə olur. Hər hansı bir nemət müqabilindən asılı olmayaraq. Allahın əş-Şəkur ismi Quranda dörd dəfə zikr olunub. Amma əş-Şəəkir isə iki dəfə zikr olunub:

***{...إِنَّ رَبَّنَا لَغَفُورٌ شَكُورٌ }***

***"Həqiqətən, Rəbbimiz ğafurdur, şəkurdur" (Fatir /34)***

***{...وَمَن يَقْتَرِفْ حَسَنَةً نَّزِدْ لَهُ فِيهَا حُسْناً إِنَّ اللَّهَ غَفُورٌ شَكُورٌ }***

***"Kim bir yaxşı iş görərsə, onun yaxşılığının savabının (mükafatını) artırarıq!" Həqiqətən, Allah ğafurdur, şəkurdur!"(Şura /23)***

***{ إِن تُقْرِضُوا اللَّهَ قَرْضاً حَسَناً يُضَاعِفْهُ لَكُمْ وَيَغْفِرْ لَكُمْ وَاللَّهُ شَكُورٌ حَلِيمٌ }***

***"Əgər Allaha (Allah yolunda) gözəl (könül xoşluğu ilə) bir borc versəniz, (Allah) sizin üçün onun əvəzini qat-qat artırar və sizi bağışlayar. Allah şəkurdur, həlimdir!"(Təğabun /17)***

*Əş-Şəəkir* ismi:

***{... وَمَن تَطَوَّعَ خَيْراً فَإِنَّ اللّهَ شَاكِرٌ عَلِيمٌ }***

***"Hər kəs könüllü olaraq yaxşı bir iş görərsə, Allah (onun etdiyi yaxşı işdən) şəəkirun, əlimdir."(Bəqərə /158)***

***{ مَّا يَفْعَلُ اللّهُ بِعَذَابِكُمْ إِن شَكَرْتُمْ وَآمَنتُمْ وَكَانَ اللّهُ شَاكِراً عَلِيماً }***

***"Əgər siz şükür etsəniz və iman gətirsəniz, Allah sizə nə üçün əzab versin ki, Allah şəəkirdir, əlimdir!"(Nisə /147)***

**Allah haqqında bu isimlərin mənası:**

Qatədə Fatir suərəsində keçən *"innəhu ğafuurun şakur"* ayəsinin təfsirində buyurur ki, Allah günahları bağışlayandır. İnsanların etdikləri yaxşı əməllərə görə şəkurdur. Yaxşı əməlləri qat-qat artırandır. Xattabi buyurur ki, Allah az itaətə şükr edir və ona görə çoxlu savablar verir. Həmçinin Beyhəqi buyurur ki, az və cuzi olan itaətə çoxlu savab verəndir. İbn Qeyyim Nuniyyə şeirində buyurur ki, Allah şəkurdur, insanların səylərini zay etmir. Əksinə, hesabsız savabları artırandır. Şeyx Sə'di buyurur ki, Allah az əmələ

şükr edəndir. Çox günahları bağışlayandır və hesabsız ixlaslı olanların əməllərini artırandır. Onu xatırlayanı o da xatırlayır. Əgər qulu ona tərəf hər hansısa bir əməllə yaxınlaşarsa Allah da onlara daha çox yaxınlaşar.

# *Əl-Həsiyb*

**Lüğəti məna:**

Lüğəti mənası hesab etmək, saymaq anlamına gəlir. Əl-Kəsəi misal çəkərək buyurur ki, *"bilmirəm onun danışığı nə həsəbdədir, yəni nə miqdardadır, hesabı nə qədərdir, qədri nə qədərdir"*. Həmçinin kifayət etmək mənasındadır. Məsələn, *"vəəhsəbəni əş-şey"* - mənə kifayət etdi. Həmçinin *"vəhəsbukə dirhəm"* - dirhəm kifayət edər.

Əl-Həsiyb ismi Quranda cəmi üç yerdə zikr olunub.

**{...وَكَفَى بِاللّهِ حَسِيباً}**

***"Haqq-hesab çəkməyə Allah kifayət edər"(Nisə /6)***

**{...إِنَّ اللّهَ كَانَ عَلَى كُلِّ شَيْءٍ حَسِيباً}**

***"Həqiqətən Allah (həsiybdir) hər şeyi hesaba alandır."(Nisə /86)***

Həmçinin iki dəfə cəm formasında işlənib Quranda:

**{... أَلاَ لَهُ الْحُكْمُ وَهُوَ أَسْرَعُ الْحَاسِبِينَ}**

***"Bilin ki, hökm onundur (Allahındır) və o, ən tez haqq-hesab çəkəndir ("əl-həəsibin"-dir) !"(Ənam /62)***

**{... وَكَفَى بِنَا حَاسِبِينَ}**

***"Haqq-hesab çəkməyə biz kifayətik."(Ənbiyə /47)***

**Allah haqqında bu ismin mənası:**

Ubeydə *"innallahə kəənə alə kulli şəy'in həsiibən"* ayəsi haqqında buyurur ki, *"kəəfiyən muqtədiran"*, yəni kifayət edən və iqtidarlı olan, iqtidar sahibi. İbn Cərir (r) Əhzab surəsində keçən *"və kəfə billəhi həsiibən"* ayəsi haqqında buyurur ki, ey Muhəmməd qullarının əməllərini hifz etməyə və onlarların etdikləri əməllərə görə mühasibə etməyə Allah sənə yetər. Həmçinin İbn Cərir ət-Təbəri (r) buyurur ki, əl-Həsiyb əl-Həfiz mənasındadır və buyurur ki, *"ey insanlar həqiqətən Allah təbərak və təalə sizin etdiyiniz hər bir itaəti və asiliyi sizin üçün hifz edir hətda onlara görə sizi cəzalandırsın "* İbn Sə'di (r) buyurur ki, əl-Həsiyb qullarının etdiklərini bilən, ona təvəkkül edənlərə kifayət olandır. Hikməti və adilliyi ilə qullarının etdiklərinə görə onlara cəza verəndir.

# *Əl-Həfiyz*

**Lüğəti məna:**

Əl-hifzu lüğəti mənada unutqanlığın əksidir. *"Raclun həəfiz"- hafiz kişi* dedikdə, eşitdiklərini əzbərləyən anlamında gəlir.

Bu isim Quranda  üç yerdə zikr olunub:

***{...إِنَّ رَبِّي عَلَىٰ كُلِّ شَيْءٍ حَفِيظٌ}***

***"Həqiqətən, Rəbbim hər şeyi hifz edəndir (həfiyzdir)" (Hud /57)***

***{...وَرَبُّكَ عَلَى كُلِّ شَيْءٍ حَفِيظٌ}***

***"Sənin Rəbbin hər şeyi hifz edəndir! (həfiyzdir)"(Səba /21)***

***{وَالَّذِينَ اتَّخَذُوا مِن دُونِهِ أَوْلِيَاءَ اللَّهُ حَفِيظٌ عَلَيْهِمْ ...}***

***"Allahdan başqasını dost tutanlar üzərində Allah özü həfiyzdir."(Şura /6)***

Cəm formasında isə iki dəfə zikr olunub:

***{إِنَّا نَحْنُ نَزَّلْنَا الذِّكْرَ وَإِنَّا لَهُ لَحَافِظُونَ}***

***"Şübhəsiz ki, Quranı biz nazil etdik və sözsüz ki, biz də onu  qoruyub saxlayacağıq! (həəfizun)"(Hicr /9)***

Ayədəki "*həəfizun*" kəlməsi cəm formasındadır.

Həmçinin:

***{... وَكُنَّا لَهُمْ حَافِظِينَ}***

***"Biz onları nəzarətimiz altında saxlayırdıq (həəfizin)"(Ənbiyə /82)***

**Allah haqqında bu ismin mənası:**

Şeyx Sə'di buyurur ki, əl-Həfiyz  yaratdıqlarını hifz edən, icad etdiyi şeyləri elmi ilə əhatə edən, övliyalarını günaha və həlaka düşməkdən qoruyan, onlara qarşı lütfkar olandır. İbn Qeyyim öz "Nuniyyə" şeirində buyurur ki, Allah qullarını hər bir iztirabdan hifz edəndir. Hər bir əziyyətdən qoruyandır. Xattabi buyurur ki, yerləri və göyləri qalan müddətə qədər hifz edəndir. Həmçinin mənalarından biri də öz iradəsi ilə qullarını müsibətlərdən qoruyandır. Onlara nə yazılıbsa o, baş verir. Başqa mənalarından isə qullarının əməllərini sayandır. Hesab günü heç bir əməli zay etmədən hesab edəcəkdir. Həmçinin mənalarından biri də, gizli və batini sirrləri biləndir.

# *Əl-Həəfiz*

**Lüğəti məna:**

*Əl-Həəfiz* ismi Quranda cəmi bir dəfə işlənib:

***{...فَاللَّهُ خَيْرٌ حَافِظاً وَهُوَ أَرْحَمُ الرَّاحِمِينَ}***

*"Allah özü ən yaxşı qoruyandır (həəfizdir) və rəhmlilərin ən rəhmlisidir!"(Yusuf /64)*

İki dəfə isə cəm formasında işlənib:

***{إِنَّا نَحْنُ نَزَّلْنَا الذِّكْرَ وَإِنَّا لَهُ لَحَافِظُونَ}***

*"Şübhəsiz ki, Quranı biz nazil etdik və sözsüz ki, biz də onu qoruyub saxlayacağıq!*

*(həəfizun)" (Hicr /9)*

Həmçinin:

***{... وَكُنَّا لَهُمْ حَافِظِينَ}***

*"Biz onları nəzarətimiz altında saxlayırdıq (həəfizin)"(Ənbiyə /82)*

**Allah haqqında bu ismimlərin mənası:**

Xattabi buyurur ki, yerləri və göyləri, onların arasında olanları qoruyandır, hifz edəndir. Necə ki, Allah subhənəhu və təalə buyurur:

***{... وَلاَ يَؤُودُهُ حِفْظُهُمَا ...}***

**"Bunları qoruyub saxlamaq (hifz etmək) ona ağır gəlmir"(Bəqərə /255)**

***{ وَحِفْظاً مِّن كُلِّ شَيْطَانٍ مَّارِدٍ }***

*"Və onu hər bir asi şeytandan mühafizə etdik (hifz etdik) "(Saffət /7)*

Allah qullarını zərərdən, ziyandan, həlakdan hifz edəndir.

***{لَهُ مُعَقِّبَاتٌ مِّن بَيْنِ يَدَيْهِ وَمِنْ خَلْفِهِ يَحْفَظُونَهُ مِنْ أَمْرِ اللّهِ ...}***

*" Allahın əmri ilə insanın həm önündə, həm də arxasında daima onunla birlikdə olub onu qoruyan mələklər vardır." (Rad /11)*

Həmçinin Allah övliyalarını günahdan, şeytanın hiyləsindən qoruyur. Əl-Həlimiyyu buyurur ki, əl-Həəfiz qoruyan, qullarını dünya və axirət həlakının səbəblərindən qoruyandır. Qurtubi buyurur ki, əl-Həəfiz Allahın əl-Əlim isminə qayıdır. Çünki Allah öz elmi ilə bütün məlumatları hifz edir. Şeyx Sə'di buyurur ki, əl-Həəfiz, yəni yaratdıqlarını hifz etdi. Onun elmi bütün məxluqatı əhatə etdi. Övliyalarını günaha düşməkdən qorudu.

# *Əl-Kəriym və Əl-Əkram*

**Lüğəti məna:**

***Əl-Kəriym*** lüğəti mənada əliaçıq, səxavətli olmaq və s. bu kimi mənalardadır. Zuccəcə buyurur ki, əl-Kərim cavaddır, əzizdir və bağışlayandır. Bu üç məna ərəb kəlamında kərim sözünə işlənir. Bu üç məna ilə Allahı vəsf etmək olar.

Həmçinin alimlər buyurur ki, tərifə layiq olunan sifətlər kərim adlanır. Kərim kəlməsi geniş məna daşıyır. Məsələn, mülayimlik, səxavətlik, lütfkarlıq, təmizlik, səbr etmək və s. Xattabi buyurur ki, əl-Kərim xeyri çox olandır. Ərəblər ümumiyyətlə faydalı bir şeyi və ya xeyri davamiyyətli olan bir şeyi, əldə etmək çox asan olan bir şeyi kərim adlandırırlar. Məsələn kitab kərimdir, yəni faydalıdır.

Allahın əl-Kərim ismi Quranda cəmi üç dəfə zikr olunub. Məsələn:

**{ فَتَعَالَى اللَّهُ الْمَلِكُ الْحَقُّ لَا إِلَهَ إِلَّا هُوَ رَبُّ الْعَرْشِ الْكَرِيمِ }**

***"Həqiqi hökmdar olan Allah (hər şeydən) ucadır. Ondan başqa heç bir ilah yoxdur. O, kərim (uca, qiymətli) olan ərşin Rəbbidir!" (Muminun /116)***

**{... فَإِنَّ رَبِّي غَنِيٌّ كَرِيمٌ }**

***"Həqiqətən, Rəbbim ğaniyyun kərimdir!"(Nəml /40)***

**{ يَا أَيُّهَا الْإِنسَانُ مَا غَرَّكَ بِرَبِّكَ الْكَرِيمِ }**

***"Ey insan! Səni kərim olan Rəbbinə qarşı aldadan nədir ? "(İnfitar /6)***

***Əl-Əkram*** ismi Quranda cəmi bir dəfə zikr olunub:

**{ اقْرَأْ وَرَبُّكَ الْأَكْرَمُ }**

***"Oxu! Sənin Rəbbin əl-Əkramdır"(Ələq /3)***

**Allah haqqında bu ismin mənası:**

əl-Huleymi buyurur ki, Kəriym çoxlu fayda verəndir. Şəkk yoxdur ki, Allah təbərak və təalə öz qullarına başlanğıc olaraq, fəzilət olaraq nə qədər nemətlər, mənfəətlər verib. Allah  əl-Kəriym isminə başqa kərim olanlardan daha layiqdir, daha haqlıdır. Qurtubi buyurur ki, əl-Kəriym isminin üç vəchi var. Birincisi əl-cəvad, ikincisi bağışlayan, üçüncüsü əl-əziz. Bu üç vəchlə Allahı vəsf etmək caizdir. Həmçinin əl-Kəriym, neməti insan layiq olmadan verir. Allah qullarına nemətini onların haqqları olmadan verir. Əl-Kəriym-in başqa mənalarından biri də günahları örtüb, eybləri gizlədəndir. Əl-Kəriym, əgər qulları ona az itaətlə gələrsə Allah onlara qat-qat çox savablar yazar. Allah bizə dünyada nə qədər nemətlər verib:

***{ هُوَ الَّذِي خَلَقَ لَكُم مَّا فِي الأَرْضِ جَمِيعاً...}***

***"Yer üzündə nə varsa, hamısını sizin üçün xəlq etdi "(Bəqərə /29)***

*Əl-Kəriym* minnətsiz verəndir. Vəd verəndə vədinə vəfalı çıxır. Uca Allah buyurur :

***{... وَعْدَ اللّهِ حَقّاً وَمَنْ أَصْدَقُ مِنَ اللّهِ قِيلاً}***

***" Allahın vədi haqqdır. Sözündə Allahdan daha doğrusu kim ola bilər?"(Nisə /122)***

Allah əməl edənlərin əməllərini zay etmir:

***{إِنَّ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ إِنَّا لَا نُضِيعُ أَجْرَ مَنْ أَحْسَنَ عَمَلاً }***

***"İman gətirib yaxşı əməllər edənlərə gəldikdə isə biz yaxşı işlər görənlərin mükafatını zay etmərik!"(Kəhf /30)***

Əl-Kəriym ismi ilə əl-Əkram isminin fərqinə gəldikdə isə  bu isimlərin mənaları eynidir. Hər iki isim "*kəram*"-dan alınıb. Necə ki, bunu Qurtubi deyib.

# *Ər-Raqiyb*

**Lüğəti məna:**

Əl-Covhəriyyu buyurur ki, ər-Raqiyb əl-Həəfiz deməkdir. Həmçinin baxmaq, tamaşa etmək, nəzarət etmək, göz qoymaq və s. bu kimi mənalarda işlənir. Məsələn deyəndə ki, "*raqabtu şey*", yəni bir şeyə göz qoydum, nəzarət etdim anlamına gəlir. Uca Allah buyurur:

***{...وَلَمْ تَرْقُبْ قَوْلِي }***

***"Sözümə baxmadın" (Ta-Hə /94)***

Allahın bu ismi Quranda cəmi üç yerdə zikr olunub. Məsələn:

**{مَا قُلْتُ لَهُمْ إِلاَّ مَا أَمَرْتَنِي بِهِ أَنِ اعْبُدُواْ اللّهَ رَبِّي وَرَبَّكُمْ وَكُنتُ عَلَيْهِمْ شَهِيداً مَّا دُمْتُ فِيهِمْ فَلَمَّا تَوَفَّيْتَنِي كُنتَ أَنتَ الرَّقِيبَ عَلَيْهِمْ وَأَنتَ عَلَى كُلِّ شَيْءٍ شَهِيدٌ}**

***"Mən onlara yalnız Sənin mənə etdiyin əmri çatdırıb belə demişəm: "Mənim də, sizin də Rəbbiniz olan Allaha ibadət edin!" Nə qədər ki, onların arasında idim, onlara şahid mən idim. Sən məni onların arasındangötürdükdən sonra onlara nəzarətçiözün oldun. Yalnız sən hər şeyə şahidsən" (Məidə /117)***

**{...إِنَّ اللّهَ كَانَ عَلَيْكُمْ رَقِيباً}**

***"Həqiqətən Allah sizin üzərinizdə (raqiybdir) nəzarətçidir"(Nisə /1)***

**{...وَكَانَ اللَّهُ عَلَى كُلِّ شَيْءٍ رَّقِيباً}**

***"Allah hər şeyə (raqiybdir) nəzarət edəndir!"(Əhzab /52)***

**Allah haqqında bu ismin mənası:**

İbn Cərir buyurur ki, *raqibən,* əməllərinizi hifz edib sayan deməkdir. Əməllərinizə nəzarət edir və görür. Əz-Zucəcə buyurur ki, ər-Raqiyb, yəni hifz etdiyi qeyb olmur. Heç bir şeyi unutmur. Əl-Huleymi buyurur ki, yaratdıqlarından qafil deyil. İbnul Həssar buyurur ki, ər-Raqiyb qulların əhvallarına nəzarət edir və onları təfsilatı ilə hifz edir. Qiyamət günü hamısını hesab edəcəkdir. İbn Sə'di buyurur ki, ər-Raqiyb, yəni qəlblərdə gizlənənlərə baxandır. O, öz mülkündə hər şeyi, istər kiçik olsun, istərsə də böyük olsun hər şeyi biləndir. Göydə və yerdə ondan gizli heçnə qalmır. Danışsan səni eşidir, nə etsən görür, nə niyyət etsən onu bilir. Əqlinə gələn hər bir şeyi də bilir:

**{...وَمَا تَسْقُطُ مِن وَرَقَةٍ إِلاَّ يَعْلَمُهَا...}**

***"Allahın xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur." (Ənam /59)***

İnsan bilsə ki, onun Rəbbi Raqiybdir, onu görür, ona nəzarət edir, əməllərini sayır və Qiyamət günü qarşına qoyacaq, o Allaha asi olmaz. Alimlərdən biri buyurur ki, and olsun Allaha əgər Allahın kitabında bu ayədən *"Allah hər şeyə (raqiybdir) nəzarət edəndir!"* **(Əhzab /52)** başqa ayə olmasaydı, tək bu ayə kifayət edərdi.

# *Əl-Vasiu*

Lüğəti məna:

Lüğətdə geniş və s. bu kimi mənalarda işlənir. Bu sözün əksi isə məhdudlaşmış, sıx, darlıq, ensizlik və s. bu kimi mənalardadır. Məsələn: “*beytun vasi*” - geniş ev. Bəzən zənginlik, bolluq mənalarında da işlənir. Bu isim Quranda cəmi doqquz dəfə zikr olunub:

***{وَلِلّهِ الْمَشْرِقُ وَالْمَغْرِبُ فَأَيْنَمَا تُوَلُّواْ فَثَمَّ وَجْهُ اللّهِ إِنَّ اللّهَ وَاسِعٌ عَلِيمٌ }***

***“Şərq də, Qərb də Allahındır: hansı tərəfə yönəlsəniz (üz tutsanız) Allah oradadır. Şübhəsiz ki, Allah Vasiun, Əlimdir ! ” (Bəqərə /115)***

***{...وَاللّهُ يُؤْتِي مُلْكَهُ مَن يَشَاءُ وَاللّهُ وَاسِعٌ عَلِيمٌ}***

***“Allah Öz mülkünü istədiyinə verər. Allah Vasiundur, Əlimdir”(Bəqərə /247)***

***{... وَاللّهُ يَعِدُكُم مَّغْفِرَةً مِّنْهُ وَفَضْلاً وَاللّهُ وَاسِعٌ عَلِيمٌ}***

***“Allah sizə bağışlanmaq və bərəkət vədəsi verər. Allah Vasiun Əlimdir”(Bəqərə /268)***

***{... وَكَانَ اللّهُ وَاسِعاً حَكِيماً}***

***“Həqiqətən, Allah Vasuin Həkimdir!”(Nisə /130)***

**Allah haqqında bu ismin mənası:**

İbn Cərir “*Vallahu vasiun alim*” ayəsinin təfsirində buyurur ki, Allah fəziləti ilə genişdir, istədiyini fəziləti ilə nemətləndirir. Fəzilətinin həddi yoxdur. Xattabi buyurur ki, əl-Vasiu onun ruzisi bütün yaratdıqlarını əhatə edir. Həmçinin deyiblər ki, əl-Vasiu “*əs-səa*” sözündən alınıb. “*Əs-səa*” çox məlumatları əhatə edərsə elmə izafət olunar. Bəzən isə ehsana izafət olunar, yəni nemətlər verən, xeyri geniş olan və s. Mütləq şəkildə əl-Vasiu olan tək Allahdır. Allahın elminə baxsan görərsən ki, onun elmi kimi geniş bir elmi olan yoxdur. Ehsanına, nemətlərinə baxsan görərsən ki, bitib-tükənməzdir. Məsələn məxluqlardan vasiun olana, yəni xeyriyyəçilərə, yaxşılıq edənlərə baxsan görərsən ki, etdiyinin həddi var. Lakin vasiu isminə ehsanlığının hansısa həddə kimi olmayan daha layiqdir. Mütləq vasiu olan isə tək Allahdır. Əl-Əsbəhəniyyu buyurur ki, Allahın adlarından biri də əl-Vasidir. Rəhməti bütün məxluqları əhatə edib. Ruzisi bütün məxluqları əhatə edib. Elə bir kəs tapmazsan ki, Allahın ruzisini yeməsin. Şeyx Abdurrahmən Sədi buyurur ki, əl-Vasiu, yəni heç kim ona layiqli səna, təriflər deyə bilməz. O, özü-özünü tərifədiyi kimidir.

# *Ər-Rabb*

**Lüğəti məna:**

Ər-Rabb lüğəti mənada bir şeyi islah edəndir. Məsələn “*rababtu şey*”, yəni *bir şeyi islah etdim* anlamına gəlir. Həmçinin sahib mənasında da işlənir. “*Rabbuş-şey*”, yəni *bir şeyin*

*sahibi.* Hər kim bir şeyə sahib olursa həmin şeyin rəbbi sayılar. Əl-Ənbəriyyu buyurur ki, ər-Rabb üç qismə bölünür. Birincisi rabb, yəni sahibi. İkincisi rabb, yəni seyyidi, ağası. Necə ki, Uca Allah buyurur:

***{...فَيَسْقِي رَبَّهُ خَمْراً...}***

***"Sizdən biriniz öz ağasına şərab süzəcək"(Yusuf /41)***

Üçüncüsü islah edən, tərbiyə verən.

Allahın ər-Rabb ismi Quranda olduqca çox zikr olunub:

***{الْحَمْدُ للّهِ رَبِّ الْعَالَمِينَ }***

***"Həmd olsun aləmlərin Rəbbi Allaha" (Fatihə /1)***

***{ إِذْ قَالَ لَهُ رَبُّهُ أَسْلِمْ قَالَ أَسْلَمْتُ لِرَبِّ الْعَالَمِينَ }***

***"Rəbbi İbrahimə : "Təslim ol!" – dedikdə, o: "Aləmlərin Rəbbinə təslim oldum !" – deyə cavab vermişdi."(Bəqərə /131)***

***{قُلْ أَغَيْرَ اللّهِ أَبْغِي رَبّاً وَهُوَ رَبُّ كُلِّ شَيْءٍ ...}***

***"De: "Allah hər şeyin Rəbbi olduğu halda, mən ondan başqa tanrımı axtaracağam? "(Ənam /164)*** və s. bu kimi ayələr.

**Allah haqqında bu ismin mənası:**

İbn Kəsir buyurur ki, ər-Rabb Məlikdir. Hər bir şeyi idarə edəndir. Abdurrahmən Sə'di buyurur ki, ər-Rabb bütün qullarını islah edib düzəldəndir, onları idarə edir. Onları müxtəlif nemətlərlə nemətləndirir. Xüsusən də, öz təmiz qullarının qəlblərini, ruhlarını, əxlaqlarını islah edir. Ona görə də ən çox Allahın bu adı ilə istəyirlər. Həmçinin "*rabbəni alim*" dedikdə insanları öyrədən, tərbiyələndirən, onları islah edən anlamına gəlir. Peyğəmbərlər, salehlər Allahın bu ismi ilə daha çox çağırırlar.

Məsələn Hz. Nuh *əleyhissələm* dua edir ki:

***{رَبِّ اغْفِرْ لِي...}***

***"Rəbbim məni bağışla" (Nuh /28)***

***{وَنَادَى نُوحٌ رَّبَّهُ فَقَالَ رَبِّ إِنَّ ابُنِي مِنْ أَهْلِي وَإِنَّ وَعْدَكَ الْحَقُّ وَأَنتَ أَحْكَمُ الْحَاكِمِينَ }***

***"Nuh öz rəbbini çağırdı: "Ey Rəbbim! Oğlum mənim ailə üzvlərimdəndir. Sənin vədin, sözsüz ki, haqdır. Sən hakimlərin hakimisən"(Hud /45)***

Həmçinin Adəm *əleyhissələm* dua edir ki:

**{ قَالاَ رَبَّنَا ظَلَمْنَا أَنفُسَنَا وَإِن لَّمْ تَغْفِرْ لَنَا وَتَرْحَمْنَا لَنَكُونَنَّ مِنَ الْخَاسِرِينَ }**

***"Ey Rəbbimiz! Biz özümüzə zülm etdik. Əgər bizi bağışlamasan, rəhm etməsən, biz, şübhəsiz ki, ziyana uğrayanlardan olarıq!" – dedilər"(Əraf /23)***

**{ وَإِذْ يَرْفَعُ إِبْرَاهِيمُ الْقَوَاعِدَ مِنَ الْبَيْتِ وَإِسْمَاعِيلُ رَبَّنَا تَقَبَّلْ مِنَّا إِنَّكَ أَنتَ السَّمِيعُ الْعَلِيمُ }**

***"Onu da yadına sal ki, İbrahim və İsmail evin (Kəbənin) bünövrəsini ucaltdıqları zaman: "Ey Rəbbimiz! bizdən qəbul et, sən, doğrudan da, eşidənsən, bilənsən!" – deyə dua etdilər."(Bəqərə /127)***

Həmçinin Musa *əleyhissələm* dedi:

**{قَالَ رَبِّ اغْفِرْ لِي وَلأَخِي وَأَدْخِلْنَا فِي رَحْمَتِكَ وَأَنتَ أَرْحَمُ الرَّاحِمِينَ }**

***"(Musa) dedi: "Ey Rəbbim! Məni də, qardaşımı da bağışla. Bizi Öz mərhəmətin altına al. Sən rəhm edənlərin ən rəhmlisisən!"(Əraf /157)***

Quran və sünnədə buna misallar çoxdur. Bu da onu göstərir ki, bu ismin əzəmətli mənaları var. Belə ki, Allah subhənəhu və təalə hər bir şeyin rəbbi və xaliqidir. Hər bir şeyi idarə edəndir. Heçnə onun rübubiyyətindən çıxmır. Yerdə və göydə nə varsa hamısı onun quludur və onun qahrı altındadır.

# *Əl-Vədud*

**Lüğəti məna:**

***Əl-Vudd*** sözü *əl-məvəddə-nin* məsdəridir. Mənası isə sevmək, istəmək anlamına gəlir.

**{...يَوَدُّ أَحَدُهُمْ لَوْ يُعَمَّرُ أَلْفَ سَنَةٍ...}**

***"Onlardan hər biri min il ömür sürməsini istər"(Bəqərə /96)***

Ayədə keçən *vudd* sözü istəmək, arzu etmək mənasında işlənir, yəni onlardan hər biri min il ömür sürməsini arzulayar. Əl-Covhəriyyu buyurur ki, məsələn desən ki, *"vədidtu racul"- mən onu sevdim* anlamına gələr. İbnul Arabi buyurur ki, lüğət əhli ittifaq edib ki, *əl-məvəddə* məhəbbət, sevgi deməkdir.

Bu isim Quranda cəmi iki yerdə zikr olunub:

**{وَاسْتَغْفِرُواْ رَبَّكُمْ ثُمَّ تُوبُواْ إِلَيْهِ إِنَّ رَبِّي رَحِيمٌ وَدُودٌ}**

***"Rəbbinizdən bağışlanmağınızı diləyin və ona tövbə edin. Həqiqətən, Rəbbim rahimdir, vəduddur!"***

**{ إِنَّهُ هُوَ يُبْدِئُ وَيُعِيدُ . وَهُوَ الْغَفُورُ الْوَدُود}**

*"Həqiqətən, yoxdan var edən və təkrar diriltdən odur! O,ğafur və vəduddur."***(Buruc /13-14)**

**Allah haqqında bu ismin mənası:**

İbn Cərir buyurur ki, əl-Vədud məhəbbət sahibidir. Ona tərəf qayıdıb tövbə edənləri sevir. Həmçinin *"və huvəl ğafurun vədud"*ayəsinin təfsirində buyurur ki, Allah təbərak və təalə məğfirət sahibidir. Belə ki, günahdan tövbə edib qayıdanları bağışlayır. Allah qullarından olan övliyalara, salehlərə qarşı vəduddur. Əl-Huleymi buyurur ki: deyilir ki, Allah itaət əhlinə qarşı vəduddur. Onlardan əməllərinə görə razıdır. Bəzən də deyilir ki, Allah çoxlu ehsan etdiyinə görə vəduddur. İbn Qeyyim buyurur ki, o, vəduddur. Öz övliya və salehlərini sevir və onlar da onu sevirlər. Bu mənaya ayə də dəlalət edir:

**{... يُحِبُّهُمْ وَيُحِبُّونَهُ ...}**

***"Özünün sevdiyi və onu sevən" (Maidə /54)***

Abdurrahmən ibni Sə'di buyurur ki, əl-Vədud hansı ki, peyğəmbərlərini, rəsullarını və onlara tabe olanları sevir. Onlar da onu sevirlər. Allah onlara hər şeydən sevimlidir. Onların qəlbləri Allaha olan məhəbbətdən dolub.
Bu ismin təsiri böyükdür. Qurtubi bururur ki, hər bir mükəlləf olunana bilməsi vacibdir ki, Allah əl-vəduddur. Yaratdıqlarını sevəndir. Onlara ehsan edən və nemətlər verəndir. Belə ki, Allah təbərak və təalə özünə itaət edəni sevir. Tövbə edənləri, səbr edənləri, ona təvəkkül edənləri, möminləri, muhsinləri sevir. Həmçinin həddi aşanlara, fəsad törədənlərə, israf edənlərə, təkəbbürlü olanlara, zalımlara buğd edir. Ona görə də insanın üzərindədir ki, nəyi ki, Allah sevir və razı qalır ona tabe olmalıdır. Həmçinin nəyi ki, sevmir və nədən ki, çəkindirib ondan uzaq olsun. Məsələn, qulun Allahın təqdir etdiyinə razı qalması. Quranı sevməsi, peyğəmbəri ﷺ sevməsi, onun sünnəsini sevməsi. Necə ki, Uca Allah buyurur:

**{ قُلْ إِن كُنتُمْ تُحِبُّونَ اللَّهَ فَاتَّبِعُونِي يُحْبِبْكُمُ اللَّهُ ... }**

***"De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin" (Ali İmran /31)***

Allah kimi səvərsə digər məxluqlarına onu sevdirər. Necə ki hədisdə varid olub. Peyğəmbər ﷺ buyurur ki, *Allah bir qulunu sevərsə Cəbraili çağırar və deyər ki, mən filankəsi sevirəm sən də onu sev. Cəbrayıl onu sevər və sonra səmaya belə çağırar: Allah filankəsi sevir onu sevin və onu səma əhli sevər*. Həmçinin də əksi.

Bunlar bizə öyrədir ki, müstəqil zatı sevilməyə haqqı çatan, layiq olan tək Allah təbərak və təalədir. Digərləri isə Allaha üçün sevilir. İbn Teymiyyə buyurur ki, necə ki, Allahdan başqa haqq ilah yoxdur, necə ki, ondan başqa xaliq yoxdur, eləcə də özü sevilən tək Allah təbərak və təalədir.
Bu mövzuda bilinməsi vacib olan məsələlərdən biri də fərqi bilmək lazımdır. Var Allahla yanaşı sevmək, var Allaha görə sevmək.

Birincisi şirkdir. Allah ilə yanaşı sevmək şirkdir.
İkincisi isə imandır.

Birinciyə misal olaraq Allah buyurur ki:

**{وَمِنَ النَّاسِ مَن يَتَّخِذُ مِن دُونِ اللّهِ أَندَاداً يُحِبُّونَهُمْ كَحُبِّ اللّهِ وَالَّذِينَ آمَنُواْ أَشَدُّ حُبّاً لِّلّهِ ...}**

***"İnsanlardanelələri də var ki, Allahdan qeyrilərini ona tay tutur, onları Allahı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allaha olan sevgisi daha güclüdür."(Bəqərə /165)***

İkinciyə aid peyğəmbər ﷺ buyurur ki, *üç şey kimdə olarsa imanın şirinliyini dadar. Onlardan biri də bir kimsəni yalnız Allah üçün sevsə.* Bu, imandır.

# *Əl-Məcid və Əl-Mubin*

**Lüğəti məna:**

Əz-Zucəcə buyurur ki, məcidin əsli çoxluq və genişlik mənasındadır. *əl-məcid* lüğətdə şərəfi çox olandır, şanlı, şöhrətli və s bu kimi mənalarda işlənir.

Bu isim Quranda cəmi iki yerdə zikr olunmuşdur.

**{... رَحْمَتُ اللّهِ وَبَرَكَاتُهُ عَلَيْكُمْ أَهْلَ الْبَيْتِ إِنَّهُ حَمِيدٌ مَّجِيدٌ}**

***" Ey ev əhli! Allahın bərəkəti və mərhəməti üstünüzdə olsun. Həqiqətən Allah həmid və məciddir!"(Hud /73)***

**{ وَهُوَ الْغَفُورُ الْوَدُودُ. ذُو الْعَرْشِ الْمَجِيدُ }**

***"O, ğafur və vəduddur. Ərşin sahibi də, məcid olan odur!"(Buruc /14-15)***

**Allah haqqında bu ismin mənası:**

İbn Cərir ***" Ey ev əhli! Allahın bərəkəti və mərhəməti üstünüzdə olsun. Həqiqətən Allah həmid və məciddir!"(Hud /73)*** ayəsinin təfsirində buyurur ki, yəni tərif, səna sahibi və kərim olandır. Əl-Xattabi buyurur ki, əl-məcid geniş kərim olandır. *"huvə qurənun məcid"* ayəsinin təfsirində buyurur ki, şərəfli və kərim olan Qurani Kərim. Quran Allahın kəlamıdırsa deməli ona heç bir tərəfdən batil qoşula bilməz. Quran məciddir, şərəflidir. Məhz buna görə də bunun mislində heçnə gətirə bilmirlər. Allah buyurur:

**{قُل لَّئِنِ اجْتَمَعَتِ الإِنسُ وَالْجِنُّ عَلَى أَن يَأْتُواْ بِمِثْلِ هَـذَا الْقُرْآنِ لاَ يَأْتُونَ بِمِثْلِهِ وَلَوْ كَانَ بَعْضُهُمْ لِبَعْضٍ ظَهِيراً}**

*“De: “Əgər insanlar və cinlər bir yerə yığışıb bu Qurana bənzər bir şey gətirmək üçün bir-birinə kömək etsələr, yenə də ona bənzərini gətirə bilməzlər”(İsra /88)*

Bu Quran şərəfli, əzmətli olduğundan Allah onu kafirlərin hiyləsindən qoruyub. Həmçinin buyururlar ki, əl-məcid zatı şərif olan, feilləri gözəl olan və qullarına bol-bol nemətlər verəndir. Şovkəni buyurur ki, məcid qullarına çoxlu ehsan edəndir.

***Əl-Mubin*** lüğətdə bəyan olmaq, aydın olmaq kimi mənalarda işlənir. Əz-Zucəcə buyurur ki, əl-mubin *“əbəənə”*-nin ismu failidir. Zahir olsa, bəyanlı olsa istər sözlə, istər feillə o, artıq mubindir. Yəni aydın olandır.

Bu isim Quranda cəmi bir dəfə zikr olnub.

**{ يَوْمَئِذٍ يُوَفِّيهِمُ اللَّهُ دِينَهُمُ الْحَقَّ وَيَعْلَمُونَ أَنَّ اللَّهَ هُوَ الْحَقُّ الْمُبِينُ}**

***“O gün Allah onların cəzasını layiqincə verəcək və onlar Allahın(mubin) açıq-aşkar bir haqq olduğunu biləcəklər!” (Nur, 25)***

İbn Cərir bu ayənin təfsirində buyurur ki, onlar o gün görəcəklər ki, Allah haqqdır. Hansı ki, onlara dünyada vəd verdiyi əzabın həqiqiliyini bəyan edir. Bununla da nifaq əhlindən şəkk-şübhə aradan qalxacaq. Əz-Zucəcə buyurur ki, Allah qullarına düzgün yolu bəyan edəndir, əl-Mubindir. Həmçinin savab əməlləri və əzab gərəkdirən əməlləri onlara bəyan edəndir. Əl-Xəttabi buyurur ki, əl-Mubin təkliyində açıq aydındır. Onun şəriki yoxdur. Əl-Huleymi buyurur ki, mubin hansı ki, gizli qalmır. Əl-Əsbəhəni buyurur ki, əl-mubin, yəni əmri açıq-aydın bəyanlı olan deməkdir. Fikir versək Allah öz kitabını əl-Mubin adlandırıb:

**{ قَدْ جَاءكُم مِّنَ اللّهِ نُورٌ وَكِتَابٌ مُّبِينٌ**
**يَهْدِي بِهِ اللّهُ مَنِ اتَّبَعَ رِضْوَانَهُ سُبُلَ السَّلاَمِ وَيُخْرِجُهُم مِّنِ الظُّلُمَاتِ إِلَى النُّورِ بِإِذْنِهِ وَيَهْدِيهِمْ إِلَى صِرَاطٍ مُّسْتَقِيمٍ}**

***“Artıq Allah tərəfindən sizə bir nur və mubin olan bir Kitab gəldi. Allah Öz lütfünə sığınanları onunla əmin-amanlıq yollarına yönəldər, onları öz iznilə zülmətdən nura çıxarar və düz yola istiqamətləndirər!”***

**{ الر تِلْكَ آيَاتُ الْكِتَابِ الْمُبِينِ }**

***“Əlif, Ləm, Ra! Bunlar mubin kitabın ayələridir!”(Yusuf /1)***

**{وَإِنَّهُ لَتَنزِيلُ رَبِّ الْعَالَمِينَ .نَزَلَ بِهِ الرُّوحُ الْأَمِينُ.عَلَى قَلْبِكَ لِتَكُونَ مِنَ الْمُنذِرِينَ. بِلِسَانٍ عَرَبِيٍّ مُّبِينٍ}**

***“Şübhəsiz ki, bu (Quran) aləmlərin Rəbbi tərəfindən nazil edilmişdir!. Onu Cəbrail (Ruhuləmin) endirdi. (Günahkarları Allahın əzabı ilə) qorxudan (xəbərdar edən)***

*peyğəmbərlərdən olasan deyə, sənin qəlbinə (nazil etdi).Mubin ( açıq-aydın ) ərəb dilində."(Şüəra /192-195)*

Allah subhənəhu və təalə öz ayələrini açıq–aydın, mubin ayələr kimi vəsf edir.

***{ هُوَ الَّذِي يُنَزِّلُ عَلَى عَبْدِهِ آيَاتٍ بَيِّنَاتٍ لِيُخْرِجَكُم مِّنَ الظُّلُمَاتِ إِلَى النُّورِ وَإِنَّ اللَّهَ بِكُمْ لَرَؤُوفٌ رَّحِيمٌ }***

***"Sizi zülmətlərdən nura çıxartmaq üçün öz quluna açıq-aşkar ayələr nazil edən odur. Allah sizə şəfqətlidir, mərhəmətlidir!" (Hədid /9)***

Quranın ayələri açıq-aydın *bəyyin* olan ayələrdir. Belə ki, insanın nəyə ehtiyacı varsa hamısını bəyan edib. Hətta cənnət əhli cənnətə daxil olub cəhənnəm əhli də cəhənnəmə daxil olana qədər.

# *Əl-Vəkil*

**Lüğəti məna:**

***Əl-Vəkil*** "*vəkələ*" sözündən alınıb. Lüğəti mənada işində başqasına etimad göstərməyindir. İbn Mənzur (Allah ona rəhmət etsin) buyurur ki, məsələn ***"vəkəltu əmri ilə fulən"*** yəni işimi filankəsə vəkil etdim (həvalə etdim). Ona tərəf getdim və etimad etdim. Həmçinin əl-Covhəriyyu (Allah ona rəhmət etsin) buyurur ki, təvəkkül acizliyi izhar edib digərinə etimad etməkdir. Əl-Vəkil əl-kəfil mənasındadır, yəni təmin edici, zəmanət verən. Məsələn, filankəsin kəfili, yəni filankəsin təminatçısı.

***{...اللّهُ عَلَى مَا نَقُولُ وَكِيلٌ}***

***"Allah söylədiklərimizə vəkildir."(Yusuf /66)*** Yəni kəfildir.

Həmçinin deyiblər ki, əl-vəkil əl-kəfi olandır, kifayət olan:

***{...وَقَالُواْ حَسْبُنَا اللّهُ وَنِعْمَ الْوَكِيلُ }***

***"Dedilər ki, Allah bizə vəkildir. " (Ali İmran /173***) Yəni kifayət edəndir.

Bu isim Quranda on dörd dəfə zikr olunub:

***{...وَتَوَكَّلْ عَلَى اللّهِ وَكَفَى بِاللّهِ وَكِيلاً }***

***"Allaha təvəkkül et! Allahın (sənə) vəkil olması kifayət edər!"(Nisə /81)***

***{ ذَلِكُمُ اللّهُ رَبُّكُمْ لا إِلَـهَ إِلاَّ هُوَ خَالِقُ كُلِّ شَيْءٍ فَاعْبُدُوهُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ وَكِيلٌ }***

***"O Allah Rəbbinizdir! Ondan başqa heç bir tanrı yoxdur. Hər şeyi yaran odur. Buna görə də yalnız ona ibadət edin. O, hər şeyə vəkildir!"(Ənam /102)*** və s. bu kimi ayələr.

**Allah haqqında bu adın mənası:**

İbn Sə'di (Allah ona rəhmət etsin) buyurur ki, işlərində onlara bəs edən- deməkdir. Hər kim Allahı vəkil tutarsa Allah ona bəs edər. Əl-Huleymi (Allah ona rəhmət etsin) buyurur ki, əl-Vəkil işlər ona həvalə ediləndir. Bilərək ki, yaradılış və əmr onadır. Allahdan başqası buna sahib çıxa bilməz. Əl-Fərra (Allah ona rəhmət etsin) " ***فَاتَّخِذْهُ وَكِيلاً***"*(Muzzəmmil /9)* ayəsinin təfsirində buyurur ki, sənə vəd verdiklərinə kəfil olan. Vədinə xilaf çıxmayan. Həmçinin "***أَلاَّ تَتَّخِذُواْ مِن دُونِي وَكِيلاً***"(İsra /2) ayəsinin təfsirində buyurur ki, həm rəbbdir, həm də kəfidir. İbn Cərir (Allah ona rəhmət etsin) " ***وَتَوَكَّلْ عَلَى اللّهِ وَكَفَى بِاللّهِ وَكِيلا***..." (Ali İmran /173) ayəsinin təfsirində buyurur ki, ey Muhamməd sən ona təvəkkül et, işlərini ona həvalə et, işlərində ona etimad göstər. Allah sənə bəs edəcək. Həmçinin "***وَهُوَ عَلَى كُلِّ شَيْءٍ وَكِيلٌ***... " ayəsinin təfsirində buyurur ki, Allah yaratdıqlarına raqibdir, yəni nəzarət edəndir. Hafizdir, yəni onları hifz edəndir. Əl-Xattabi (Allah ona rəhmət etsin) buyurur ki, o, qullarının ruzisinə kəfildir. Bununla məlum olur ki, əl-Vəkil isminin mənası üçdür:

1. **Əl-Kəfi**
2. **Əl-Kəfil**
3. **Əl-Həfiz**

Müsəlman gərək Allaha təvəkkül etsin. Çünki hər şeyə qadir olan Allah təbərak və taalədir. Hər şeyi öz elmi ilə əhatə edən Allahdır. Müsəlman necə Allaha təvəkkül etməyə bilər ki, hansı ki, Allah buyurur ki:

***{ ذَلِكُمُ اللّهُ رَبُّكُمْ لا إِلَـهَ إِلاَّ هُوَ خَالِقُ كُلِّ شَيْءٍ فَاعْبُدُوهُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ وَكِيلٌ }***

***"O Allah Rəbbinizdir! Ondan başqa heç bir tanrı yoxdur. Hər şeyi yaran Odur. Buna görə də yalnız ona ibadət edin. O, hər şeyə vəkildir! "(Ənam /102)***

Həmçinin Allah təbərak və təalə bizə xəbər verib ki, qullarından ona təvəkkül edənləri sevir. Allah peyğəmbərə ﷺ buyurur ki, qəti qərara gəldikdə Allaha təvəkkül et. Allah təvəkkül edənləri sevir. Bu da ona dəlalət edir ki, müsəlman gərək Allaha təvəkkül etsin.

# *Əl-Haqq*

**Lüğəti məna:**

***Əl-Haqq*** lüğəti mənada batilin əksidir. Həmçinin *"vəcəbə"*mənasındadır. Yəni vacib oldu. Əl-Haqq ismi Quranda on ayədə işlənib:

***{ ثُمَّ رُدُّواْ إِلَى اللّهِ مَوْلاَهُمُ الْحَقِّ أَلاَ لَهُ الْحُكْمُ وَهُوَ أَسْرَعُ الْحَاسِبِينَ }***

***"Sonra insanlar Allahın – özlərinin haqq olan mövlalarının hüzuruna qaytarılar. Bilin ki, hökm onundur (Allahındır) və o, ən tez haqq-hesab çəkəndir!"(Ənam /62)***

***{ وَرُدُّواْ إِلَى اللّهِ مَوْلاَهُمُ الْحَقِّ وَضَلَّ عَنْهُم مَّا كَانُواْ يَفْتَرُونَ...}***

*“Haqq olan mövlalarının - Allahın hüzuruna qaytarılacaqdır.Uydurub düzəltdikləri bütlər isə onlardan (uzaqlaşıb) qeyb olacaqlar.”(Yunus /30)*

**{فَذَلِكُمُ اللّهُ رَبُّكُمُ الْحَقُّ...}**

*“Haqq olan rəbbiniz...” (Yunus /32)*

**{ هُنَالِكَ الْوَلَايَةُ لِلَّهِ الْحَقِّ هُوَ خَيْرٌ ثَوَاباً وَخَيْرٌ عُقْباً }**

*“Belə bir vəziyyətdə kömək göstərmək (və ya hökm,) ancaq haqq olan Allaha məxsusdur. Mükafat verməkdə də, aqibət qismət etməkdə də ən xeyirlisi odur. ”(Kəhf /44)*

**{ ذَلِكَ بِأَنَّ اللَّهَ هُوَ الْحَقُّ وَأَنَّ مَا يَدْعُونَ مِن دُونِهِ هُوَ الْبَاطِلُ وَأَنَّ اللَّهَ هُوَ الْعَلِيُّ الْكَبِيرُ }**

*“Bu belədir. Çünki Allah haqq, (müşriklərin) ondan başqa ibadət etdikləri isə batildir. Həqiqətən, Allah əl-əliyyun və əl-kəbirdir(ucadır, böyükdür)! ”(Həcc /62)*

**Bu ismin Allah haqqında mənası:**

İbn Cərir (Allah ona rəhmət etsin) ***“Sonra insanlar Allahın – özlərinin haqq olan mövlalarının hüzuruna qaytarılar. Bilin ki, hökm onundur (Allahındır) və o, ən tez haqq-hesab çəkəndir!”(Ənam /62)*** ayəsinin təfsirində buyurur ki, o gün müşriklər Allaha qayıdacaqlar. Hansı ki, Allah onların heç bir şəkk-şübhə olmayan haqq məliki və Rəbbidir. Əl-Xattabi (Allah ona rəhmət etsin) buyurur ki, əl-Haqq, olması, vücudluğu, varlığı haqlaşandır. Hər bir şeyin ki, vücudu, yəni olması, varlığı səhihləşib deməli o, haqdır. Allah buyurur:

**{ الْحَاقَّةُ . مَا الْحَاقَّةُ }**

*“Haqq olan (qiyamət!) Nədir haqq olan (qiyamət)? ” (Əl-Haqqə /1-2)*

Yəni olması haqdır. Mümkün deyil ki, baş verməsin. Həmçinin deyilir ki, Cənnət haqdır, Cəhənnəm haqdır, Qiyamət haqdır və s. Bunların olmaması mümkün deyil. Çünki haqdır. Haqdırsa olmalıdır. Bir şey mövcuddursa deməli haqdır. Alimlər buyururlar ki, bunların olması, yəni vücud olanların hamısı, Allahdan başqa hamısı ***“mumkinul vücud”***-dur. Vücud olması mümkündür. Mümkün ola da bilər, olmaya da. Lakin Allah mumkinul vücud deyil. Allah ***“vacibil vücud”***-dur. Vacib olan vücud. Vacib vücud odur ki, yoxluğu əbədi və əzəli mümkünsüz olandır. Mümkün deyil ki, bu yox olsun. Allahdan başqa olanların vücudu müstəqil özlərinin zatı ilə deyil. Onları icad edən Allahdır. Hər bir məxluq yoxdan var olub. Həmçinin hər bir məxluq yox ola da bilər. Yox olmağı caizdir. Lakin Allah belə deyil. Allah xaliqdir. Heç kimə möhtac deyil. Başqaları isə məxluqdur və Allaha möhtacdır. Bu qeyd etdiklərim alimlərin buyurduqları sözlərdir.

Əl-Huleymi (Allah ona rəhmət etsin) buyurur ki, əl-Haqq inkar olunması mümkün olmayandır. Sübutu və etiraf olunması lazım olandır. Allahın var olması isə daha layiqdir ki, etiraf olunsun. Əl-Quşeyri (Allah ona rəhmət etsin) buyurur ki, əl-Haqq Allahın isimlərindəndir, yəni mövcuddur. İbnul Əsir (Allah ona rəhmət etsin) buyurur ki, əl-Haqq, yəni mövcud olan, var olan. Deyəndə ki, Allah haqdır, yəni Allahın olmasında şəkk-şübhə yoxdur. İbn Sə'di buyurur ki, Allaha nisbət olunan hər bir şey haqdır. Deməli əl-Haqqın əksi batildir, yəni yox olan. Bir şey haqdırsa deməli orda şəkk və zənn yoxdur.

# *Əl-Qaviyyu və əl-Mətin*

**Lüğəti məna:**

əl-Covhəriyyu buyurur ki, ***Əl-Qaviyy*** ismi zəif sözünün əksidir, yəni güclü deməkdir. Allahın bu ismi Quranda doqquz yerdə zikr olunub:

***{ كَدَأْبِ آلِ فِرْعَوْنَ وَالَّذِينَ مِن قَبْلِهِمْ كَفَرُواْ بِآيَاتِ اللّهِ فَأَخَذَهُمُ اللّهُ بِذُنُوبِهِمْ إِنَّ اللّهَ قَوِيٌّ شَدِيدُ الْعِقَابِ}***

***"Eynilə Firon nəslinin və onlardan əvvəlkilərin hərəkətləri kimi. Onlar Allahın ayələrini yalan hesab etdilər, Allah da onları günahlarına görə yox etdi. Həqiqətən, Allah (qaviyydir) yenilməz qüvvət sahibidir, cəzası da çox şiddətlidir!"(Ənfal /52)***

***{... إِنَّ رَبَّكَ هُوَ الْقَوِيُّ}***

***"Həqiqətən, Rəbin (qaviyydir) yenilməz qüdrət sahibi, qüvvət sahibidir!"(Hud /66)***

***{... وَلَيَنصُرَنَّ اللَّهُ مَن يَنصُرُهُ إِنَّ اللَّهَ لَقَوِيٌّ عَزِيزٌ}***

***"Allah (öz dininə) yardım edənlərə, şübhəsiz ki, yardım edər. Həqiqətən, Allah (əl-qaviyy) yenilməz qüvvət, qüdrət sahibidir!"(Həcc /40)***

***{ مَا قَدَرُوا اللَّهَ حَقَّ قَدْرِهِ إِنَّ اللَّهَ لَقَوِيٌّ عَزِيزٌ}***

***"(Müşriklər) Allahı layiqincə qiymətləndirmədilər (uca tutmadılar). Həqiqətən, Allah (əl-qaviyy) yenilməz qüvvət sahibi, qüdrət sahibidir!"(Həcc /74)***

**Allah haqqında bu ismin mənası:**

İbn Cərir *"**Həqiqətən, Allah (qaviyydir) yenilməz qüvvət sahibidir, cəzası da çox şiddətlidir!"(Ənfal /52)*** ayəsinin təfsirində buyurur ki, Allah güclüdür. Ona heç kim qalib gələ bilməz. Onun əmr etdiyini heç kim rədd edə bilməz. Öz əmrini yaratdıqlarının içərisində keçirdir. Özünə küfr edənlərə, inkar edənlərə şiddətli əzab verəndir. Əl-Qaviyyundur. Həmçinin ***"Həqiqətən, Rəbin (qaviyydir) yenilməz qüdrət sahibi, qüvvət sahibidir!"(Hud /66)*** ayəsinin təfsirində buyurur ki, Allah bətşində, yəni

götürməyində, yaxalamağında güclüdür. Belə ki, bir şeyi götürdükdə həlak edir. Necə ki, Səmud qövmünü götürərək həlak etdi.

**{ إِنَّ بَطْشَ رَبِّكَ لَشَدِيدٌ }**

***"Həqiqətən, sənin Rəbbinin günahkarları yaxalaması çox şiddətlidir"( Buruc /12)***

Əz-Zəccəcu buyurur ki, əl-Qaviyyu bir şeyə kamil qüdrəti olandır. Xattabi buyurur ki, bəzən qaviyy əl-qadir mənasında işlənir. Hər kim bir şeyə güclü olarsa artıq ona qadir olar. Bu zaman mənası tam bir qüvvət olur. Hansı ki, heç bir halda acizlik gəlmir. Sonra buyurur ki, məxluqun qadir olması qurtarandır, sonu var, qüsurludur.

İbn Kəsir *"**Həqiqətən, Allah (qaviyydir) yenilməz qüvvət sahibidir, cəzası da çox şiddətlidir!"(Ənfal /52)**)* ayəsinin təfsirində buyurur ki, ona heç kim qalib gələ bilmir.

***Əl-Mətin*** ismi lüğəti mənada möhkəm, bərk, qüvvətli və s. anlamına gəlir. Allahın bu ismi Quranda cəmi bir dəfə zikr olunub.

**{ إِنَّ اللَّهَ هُوَ الرَّزَّاقُ ذُو الْقُوَّةِ الْمَتِينُ }**

***"Şübhəsiz ki, ruzi verən də, qüvvət və mətin sahibi də Allahdır!" (Zariyat /58)***

**Allah haqqında bu ismin mənası:**

İbn Kuteybə buyurur ki, əl-Mətin şədid və qüvvətli olandır. Xattabi buyurur ki, əl-Mətin şiddətli və qüvvətli olandır. Hansı ki, qüvvəti kəsilmir və onun feillərinə məşəqqət və yorğunluq toxunmur.

# *Əl-Movlə və əl-Vəliy*

**Lüğəti məna:**

***Əl-Vəlyu*** lüğəti mənada yaxın olmaq deməkdir. ***Əl-Vəliyyu*** isə düşmən sözünün əksidir, yəni sevimli olan, dost və s. Həmçinin alimlər buyurur ki, dostluq düşmənçiliyin əksidir. Lakin əl-Movlə sözünün lüğəti mənası müxtəlifdir. Məsələn, kömək edən, dost, tabe olan, sevimli və s.

Allahın *əl-Vəliyyu* ismi Quranda bir çox ayədə zikr olunub:

**{ اللّهُ وَلِيُّ الَّذِينَ آمَنُواْ يُخْرِجُهُم مِّنَ الظُّلُمَاتِ إِلَى النُّوُرِ وَالَّذِينَ كَفَرُواْ أَوْلِيَآؤُهُمُ الطَّاغُوتُ يُخْرِجُونَهُم مِّنَ النُّورِ إِلَى الظُّلُمَاتِ أُوْلَـئِكَ أَصْحَابُ النَّارِ هُمْ فِيهَا خَالِدُونَ }**

***"Allah iman gətirənlərin vəlisidir, onları zülmətdən çıxarıb nura tərəf yönəldər. Kafirlərin dostu isə Taqutdur (şeytanlardır). Onları (kafirləri) nurdan ayırıb zülmətə salarlar. Onlar cəhənnəmlikdirlər və orada həmişəlik qalacaqlar! "(Bəqərə /257)***

{ وَاللّهُ أَعْلَمُ بِأَعْدَائِكُمْ وَكَفَى بِاللّهِ وَلِيّاً وَكَفَى بِاللّهِ نَصِيراً }

*"Allah sizin düşmənlərinizi (sizdən) daha yaxşı tanıyır. Bir vəli və yardımçı kimi Allah (sizə) kifayət edər!" (Nisə/45)*

{ إِنَّمَا وَلِيُّكُمُ اللّهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُواْ الَّذِينَ يُقِيمُونَ الصَّلاَةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ رَاكِعُونَ }

*"Sizin vəliniz yalnız Allah, onun elçisi və iman gətirənlərdir. Onlar (Allaha) boyun əyərək namaz qılır və zəkat verirlər." (Məidə /55)*

{لَهُمْ دَارُ السَّلاَمِ عِندَ رَبِّهِمْ وَهُوَ وَلِيُّهُم بِمَا كَانُواْ يَعْمَلُونَ }

*"Onları Rəbinin yanında əmin-amanlıq yurdu (Cənnət) gözləyir. Gördükləri (yaxşı) işlərə görə Allah onların vəlisidir." (Ənam /127)*

**Allah haqqında bu ismin mənası:**

İbn Cərir ***"Allah iman gətirənlərin vəlisidir, ..." (Bəqərə /257)*** ayəsinin təfsirində buyurur ki, yəni onların köməkçisidir, yardım edənidir. Onlara öz köməyi və müvəffəqiyyəti ilə kömək edir və yaxın olur. Onları zülmətlərdən nura çıxardır. Allah möminlərə kömək etməklə, onlara müvəffəqiyyət verməklə onları zülmətlərdən nura çıxardır.

Həmçinin Allah buyurur:

{ إِنَّ وَلِيِّـيَ اللّهُ الَّذِي نَزَّلَ الْكِتَابَ وَهُوَ يَتَوَلَّى الصَّالِحِينَ }

*"Həqiqətən, mənim himayədarım( vəlim, köməkçim) Kitabı nazil edən Allahdır. O, əməlisalehlərə himayəçilik edir." (Əraf /196)*

İbn Cərir bu ayənin təfsirində buyurur ki, Allah təbərak və təalə öz peyğəmbəri Muhəmmədə deyir ki, ey Muhəmməd müşriklərə de ki, mənim vəlim, kömək edənim və sizin üzərinizə qələbə qazandıran Allahdır. Hansı ki, kitabı mənə haqla göndərib. Həmçinin Allah yaratdıqlarından itaət edib, saleh əməl edənlərə yaxın olur. Əz-Zuccəcə buyurur ki, əl-Vəliyyu kömək edən mənasındadır. Sonra bu (Bəqərə /257) ayəsini zikr edərək bildirir ki, mənası kömək edəndir. Onlara kömək olub zülmətlərdən nura çıxardır. Əl-Huleymi buyurur ki, əl-Vəliyyu məlik və tədbir mənasındadır. Sahib olub idarə edən mənasındadır. Necə ki, yetim bir kəsə baxan bir insana deyilir ki, *"vəliyyul yetim"*yetimin vəlisi, yəni onun sahibi, işlərini yerinə qoyan və s. bu kimi mənalar verir. Həmçinin deyilir ki, əl-Vəliyyu sevən və kömək edəndir.

***Əl-Movlə*** ismi isə Quranda on iki dəfə zikr olunub.

{...وَاعْفُ عَنَّا وَاغْفِرْ لَنَا وَارْحَمْنَا أَنتَ مَوْلاَنَا فَانصُرْنَا عَلَى الْقَوْمِ الْكَافِرِينَ }

*“Bizi əfv edib bağışla, bizə rəhm et! Sən bizim mövlamızsan. Kafirlərə qələbə çalmaqda bizə kömək et!”(Bəqərə /286)*

**{ بَلِ اللّهُ مَوْلاَكُمْ وَهُوَ خَيْرُ النَّاصِرِينَ }**

*“Xeyr, Allah sizin mövlanızdır. O, yardım edənlərin ən yaxşısıdır.”(Ali İmran /150)*

**{ ثُمَّ رُدُّواْ إِلَى اللّهِ مَوْلاَهُمُ الْحَقِّ...}**

*“Sonra insanlar Allahın – özlərinin haqq olan mövlalarının hüzuruna qaytarılar”(Ənam /62)*

**{ ذَلِكَ بِأَنَّ اللَّهَ مَوْلَى الَّذِينَ آمَنُوا وَأَنَّ الْكَافِرِينَ لَا مَوْلَى لَهُمْ }**

*“Bu, ona görədir ki, Allah iman gətirənlərin mövlasıdır. Kafirlərin isə mövlası yoxdur! ”(Muhamməd /11)*

**Allah haqqında bu ismin mənası:**

Xattabi buyurur ki, əl-Mövlə kömək edən, yadım edən deməkdir. İbn Cərir ***“Kafirlərə qələbə çalmaqda bizə kömək et!”*** **(Bəqərə /286***)* ayəsinin təfsirində buyurur ki, sən köməyinlə bizim vəlimizsən. Sənə küfr edənlərin isə vəlisi deyilsən. Biz sənə iman gətirmişik və sənə itaət edirik. Sən, sənə itaət edənlərin vəlisi, sənə düşmənçilik edənlərin isə düşmənisən. Bizə kömək ol, çünki biz sənin hizbinik. Huleymi buyurur ki, əl-Mövlə kömək edən, yardım edən mənasındadır.

# *Əl-Həmid*

**Lüğəti məna:**

***Əl-Həmd*** sözü məzəmmətin əksidir. Həmçinin ət-təhmid əl-həmd sözündən daha əbləğdir, genişdir. Həmd şükürdən ümumidir. Məsələn, muhəmməd deyildikdə, yəni tərifə layiq sifətləri çox olan. Əl-Əzhəriyyu buyurur ki, ət-təhmid Allahı çoxlu həmd etməkdir.

əl-Həmid ismi Quranda on yeddi dəfə zikr olunub.

**{ وَقَالَ مُوسَى إِن تَكْفُرُواْ أَنتُمْ وَمَن فِي الأَرْضِ جَمِيعاً فَإِنَّ اللّهَ لَغَنِيٌّ حَمِيدٌ }**

*“Musa dedi: “Əgər siz və yer üzündə olanların hamısı kafir olsanız, (Allaha heç bir zərər yetirə bilməzsiniz). Çünki Allah, həqiqətən də, zəngindir, həmiddir”( İbrahim /8)*

**{ وَمَن يَشْكُرْ فَإِنَّمَا يَشْكُرُ لِنَفْسِهِ وَمَن كَفَرَ فَإِنَّ اللَّهَ غَنِيٌّ حَمِيدٌ...}**

*"Kim şükür etsə, özü üçün şükür etmiş olar. Kim nankor olsa, (bilsin ki), Allah ğaniyy və həmiddir"* **(Loğman /12)**

**{ يَا أَيُّهَا النَّاسُ أَنتُمُ الْفُقَرَاء إِلَى اللَّهِ وَاللَّهُ هُوَ الْغَنِيُّ الْحَمِيدُ }**

***"Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə ğaniyy və həmiddir. "(Fatir /15)***

**Allah haqqında bu ismin mənası:**

İbn Cərir buyurur ki, əl-Həmid məxluqları yanında təriflənəndir. Belə ki, Allah onlara öz nemətindən, fəzilətindən verir və onlar da Allahı tərifləyib həmd edirlər. Əz-Zucəcə buyurur ki, əl-Həmid, yəni Allah hər bir dildə və hər bir halda təriflənəndir. Xattabi buyurur ki, əl-Həmid həm çətin günlərdə, həm də xoş günlərdə ona tərif olunur. Çünki Allah həkimdi. Onun feillərində səhv yoxdur. Əgər Allahın feillərində səhv yoxdursa deməli Allah hər bir halda təriflənməyə layiqdir. İbn Kəsir buyurur ki, o, həmiddir. Bütün feillərində, sözlərində, şəriət və qədərində və nə ki, təqdir edib hər bir şeydə tərif olunandır. İbn Sə'di buyurur ki, o, həmiddir. Həm zatında, həm ismində, həm sifətində, həm də fellərində. Onun adları gözəldi, sifətləri isə ən kamil sifətlərdir. Onun feilləri fəzilət və adillik arasındadır. Feillərində zülm yoxdur. Ona görə də Allah həmd olunandır. Yəqin şəkildə bilinməlidir ki, mütləq şəkildə həmd Allaha məxsusdur.

**{ الْحَمْدُ للّهِ رَبِّ الْعَالَمِينَ }**

***"Həmd olsun aləmlərin Rəbbi Allaha "(Fatihə /2)***

Ayədəki həmd sözündə olan *"əlif"* və *"ləm"* hərfləri o deməkdir ki, yəni bütün həmdlər Allahadır. Biz nə qədər Allahı tərifləsək, ona həmd etsək də Allah özünü tərifədiyi kimidir. Bir gün peyğəmbər ﷺ səhabələri ilə namaz qılırdı. Rukudan başını qaldırdıqda *"səmiallahu limən həmidə"*deyərkən arxada bir nəfər *"rabbənə və ləkəl həmd. Həmdən kəsiran tayyibən mubərakən fi"*dedi. Namaz qurtardıqdan sonra peyğəmbər ﷺ deyir ki, danışan kim idi? Kişi dedi ki, mən idim. Peyğəmbər ﷺ dedi ki, otuzdan çox mələk gördüm ki, tez yazmaqları üstündə ötüşürdülər.

Həmçinin peyğəmbər ﷺ hər namazdan sonra otuz üç dəfə subhənallah, otuz üç dəfə əlhəmdulilləh, otuz üç dəfə Allahu akbar deyərdi.

# *Əl-Həyy və əl-Qəyyum*

**Lüğəti məna:**

*Əl-Həyy* (əl-həyat) sözünün əksi ölüm deməkdir. Allahın bu ismi Quranda cəmi beş dəfə zikr olunub.

***{ اللّهُ لاَ إِلَـهَ إِلاَّ هُوَ الْحَيُّ الْقَيُّومُ ...}***

***"Allah, ondan başqa ilah yoxdur. Həyydir, Qəyyumdur."(Bəqərə /255)***

***{ وَتَوَكَّلْ عَلَى الْحَيِّ...}***

***" Həyy olana təvəkkül et "(Furqan /58)***

**Allah haqqında bu ismin mənası:**

ət-Təbəri buyurur ki, əl-Həyy, yəni həyatı daimi olan deməkdir. Hansı ki, o həyata fanilik qoşulmayacaq, o həyat kəsilməyəcək. Məlumdur ki, Allah hər bir kəsə əcəl yazıb. Hamının sonu olacaq. Həyatları dayanacaq. Lakin Allahın həyatı belə deyil. O həyata fanilik gəlmir. Əz-Zucəcə buyurur ki, əl-Həyy Ərəb dilində meyyitin əksidir. Meyyitin əksi həyydir. Allah həyyundur. Ona ölüm gəlmir. Xattabi buyurur ki, əl-Həyy Allahın sifətlərindəndir. Onun həyatı ölümdən sonra olmayıb. Onun həyatı daim mövcud olub. Həyatına ölüm gəlməyəcək, heç vaxt fəna olmayacaq. Amma başqaları belə deyil. Bu sifət yalnız Allaha məxsusdur.

***{ ... كُلُّ شَيْءٍ هَالِكٌ إِلَّا وَجْهَهُ ... }***

***" Hər bir şey həlak olacaq onu üzündən başqa "( Qasəs /88)***

İbn Kəsir buyurur ki, əl-Həyy, yəni heç vaxt ölməyəndir.

***{كُلُّ مَنْ عَلَيْهَا فَانٍ. وَيَبْقَى وَجْهُ رَبِّكَ ذُو الْجَلَالِ وَالْإِكْرَامِ }***

***"(Yer) üzündə olan hər kəs fanidir (ölümə məhkumdur). Ancaq Rəbbinin əzəmətli və kəramətli üzü əbədidir" (Rahmən /26-27)***

Bununla da bilinir ki, əl-Həyy Allahın isimlərindəndir. Bu isimdə Allahın həyat sifəti isbat olunur və bu, Allahın zatı sifətidir. Onun həyatı ən kamil və ən tamamlı həyatdır. Onu həyatı məxluqların hayatına oxşamır. Məxluqların həyatı ölümlə qurtarır. Onu həyatına nə yuxu, nə də mürgü gəlir. Allah təbərak və təalə bu naqis sifətlərlə vəsf olunmur. Peyğəmbər ﷺ duaların birində belə deyir: *"Allahım sən əl-həyysən, (dirisən, ölməzsən) insanlar və cinlər isə öləndir."*

# *Əl-Qəyyum*

**Lüğəti məna:**

Əl-Qiyəm  lüğətdə oturmaq sözünün əksidir. Əl-qiyəm əl-muhəfəza, əl-isləh mənalarında da işlənir. Həmçinin əl-qiyəm dayanmaq, sabit olmaq mənalarında da işlənir. Əl-Qəyyum ismi Quranda üç dəfə zikr olunub. Məsələn,

**{ اللّهُ لاَ إِلَـهَ إِلاَّ هُوَ الْحَيُّ الْقَيُّومُ ... }**

*“Allah, ondan başqa ilah yoxdur. Həyydir, Qəyyumdur.”(Bəqərə /255)*

**{وَعَنَتِ الْوُجُوهُ لِلْحَيِّ الْقَيُّومِ...}**

*“(O gün) üzlər Həyy və Qəyyum (olan Allah) qarşısında zəlil bir görkəm alacaq”(Taha /111)*

**Allah haqqında bu ismin mənası:**

Əbu Ubeydə buyurur ki, əl-Qəyyum daimi olandır. Hansı ki, yox olmur. İbn Cərir ət Təbəri bu barədə olan sözləri zikr etdikdən sonra buyurur ki, daha doğru olan budur ki, necə ki, bunu Mucahid və ər-Rabi demişdir: Allah hər bir şey üzərində durur. Ruzi verməyi ilə, qüdrəti ilə istədiyini edir, istədiyinə verir, istədiyindən alır. Hər bir şeyin üzərində qaimdir. Məsələn, ərəblər deyirlər ki, filankəs bu şəhərin üzərində qaimdir. Yəni filankəs bu şəhərin işinə baxandır, idarə edən odur. Həmçinin deyəndə ki, Allah əl-Qəyyumdur, yaratdıqlarının işinin üzərində durur. Bütün yaratdıqları onun tədbiri ilə idarə olunur. Heç bir məxluq müstəqil dayanmır, müstəqil heçnə istəmir. Çünki Allah onların üzərində qaimdir. Əl-Xattabi buyurur ki, əl-Qəyyum daimi olandır, yox olmayandır. İmam Beyhəqi eynilə Xattabinin sözünü demişdir. Qurtubi buyurur ki, əl-Qəyyum tədbirlə yaratdıqlarının üzərində durandır. Yaratdıqlarını idarə edəndir. Sə’di buyurur ki, əl-Qəyyum həyatı kamil olandır və özü-özlüyündə qaimdir.

Bütün məxluqlar heç biri özü müstəqil dayanmır, dayana bilmir. Hamısı Allahın qiyamı ilə dayanır. Onları saxlayan Qəyyum olan Allahdır. İbn Qeyyim  öz Nuniyyə şerində buyurur ki, əl-Qəyyum özü-özündə duran, qeyriləri isə  onunla durandır. Allah özünün durmasına, davamlı olmasına, ehtiyacsızdır. Özünün qalması üçün heçnəyə ehtiyac deyil. Allah yedizdirir, amma özü yemir. Özünün ehtiyacı yoxdur. Qeyriləri  isə özləri dayana bilmir. Yalnız əl-Həyy və əl-Qəyyum olan Allah onları saxlamasa onlar dura bilməzlər. Onların qalmaqları üçün Allaha ehtiyacları var. İnsan Allahın bu sifətinə iman gətirsə yalnız Allaha təvəkkül edər. Qəlbini məxluqlara bağlamaz. Bilər ki, hər nə varsa hər bir şeydə Allaha möhtacdır. Allahın kamil qəyyumiyyətindəndir ki, yatmır, mürgüləmir. Lakin insanlar həm yatır, mürgüləyir. Hətta bəzi alimlər deyiblər ki, Allahın bu iki ismi onun ən əzəmətli ismidir. Hansı ki, peyğəmbər ﷺ buyurur ki, hər kim o adla Allahı çağırarsa duaları qəbul olar.

# *Əl-Vahid və əl-Əhəd*

**Lüğəti məna:**

Əl-Əhəd vahid mənasındadır. Vahid isə ədədlərdə ilk olandır. Vəhdətə infirad mənasındadır. *"Raaytuhu vəhdəhu"*-onu tək gördüm. Məsələn, deyəndə ki, elmdə vahiddir. Yəni onun mislində bilən yoxdur. Filankəs filan şeydə vahiddir, yəni o şeydə onun mislində olanı yoxdur. Əz-Zucəcə buyurur ki, əl-Vahid lüğətdə bir şey üçün qoyulub. Hansı ki, iki deyil. Nə də ikidən çox deyil, təkdir. Lüğət alimləri vahidlə əhədin fərqini izah etməyə çalışıblar. Vahid yalnız zatda tək olana deyilir. Əhəd isə həm zatda, həm də mənalarda deyilir. Əhəd ismi barəsində buyurulub ki, "*əhəd*"-də elə bir xüsusiyyətlər var ki, "*vahid*"-də yoxdur. Məsələn, " *leysə fi-d-dər vahid*" -evdə heç kim yoxdur. Əgər bu cümlə vahid ləfzi ilə işlənibsə mümkündür ki, evdə hər hansı bir canlı olmasın və yaxud da heyvan olmasın. Amma " *leysə fi-d-dər əhəd* " , yəni "*əhəd*" ləfzi ilə işlənərsə artıq bu cümlədə Adəm övladı xüsusiləşdirilir. Yəni evdə insanlardan heç kim yoxdur.

Həmçinin deyiblər ki, əhəd saya, hesaba və s. bu kimi şeylərə girmir. Lakin vahid bu kimi şeylərdə işlənir. Həmçinin deyirlər ki, əl-Əhəd ərəblərdə əvvəl və vahid mənasında da işlənir. Yuxarıda zikr etdiklərim lüğət alimlərinin irəli sürdüyü fikirlər idi.

*Əl-Vahid* Quranda iyirmi iki dəfə zikr olunub:

**{ وَإِلَـهُكُمْ إِلَهٌ وَاحِدٌ لاَّ إِلَهَ إِلاَّ هُوَ الرَّحْمَنُ الرَّحِيمُ }**

***"Sizin ilahınız Vahid olan İlahdır. Ondan başqa ilah yoxdur, Rəhmandır, Rəhimdir." (Bəqərə /163)***

**{... إِنَّمَا اللّهُ إِلَـهٌ وَاحِدٌ سُبْحَانَهُ ... }**

***" Həqiqətən, Allah Vahid İlahdır! O, pakdır, müqəddəsdir"(Nisə /171)***

**{ يَا صَاحِبَيِ السِّجْنِ أَأَرْبَابٌ مُّتَفَرِّقُونَ خَيْرٌ أَمِ اللّهُ الْوَاحِدُ الْقَهَّارُ }**

***"Ey mənim zindan yoldaşlarım! Ayrı-ayrı tanrılar yaxşıdır, yoxsa Vahid (tək) olan, Qahhər olan Allah? "(Yusuf /39)***

**{ لَوْ أَرَادَ اللَّهُ أَنْ يَتَّخِذَ وَلَداً لَّاصْطَفَى مِمَّا يَخْلُقُ مَا يَشَاءُ سُبْحَانَهُ هُوَ اللَّهُ الْوَاحِدُ الْقَهَّارُ }**

***"Allah övlad götürmək fikrində olsaydı, xəlq etdiklərindən hər hansı birini seçərdi. O, pakdır, müqəddəsdir. O, Vahid, Qahhər (hər şeyə qalib gələn) olan Allahdır."(Zumər /4) və s.***

*Əl-Əhəd* ismi isə Quranda cəmi bir dəfə zikr olunub:

**{قُلْ هُوَ اللَّهُ أَحَدٌ}**

***"De: "O Allah Təkdir! "(İxlas /1)***

**Allah haqqında bu isimlərin mənası:**

İbn Cərir ***"Sizin ilahınız vahid (tək) olan ilahdır" (Ənbiyə /108)*** ayəsinin təfsirində buyurur ki, tək haqqı çatan məbud odur. Rəbb tək odur. Ondan başqasına ibadət etməyin. Ondan başqasını ona şərik qoşmayın. Çünki sizin ibadətdə ona şərik qoşduqlarınız sizin kimi bir məxluqdur. Sizin tək olan ilahınızın isə nə misli var, nə də oxşarı. Sonra buyurur ki, Allahın vəhdəniyyətində ixtilaf etmişdilər. Yəni mənasının nə olmasında ixtilaf ediblər. İbn Cərir buyurur ki, bəziləri deyirlər ki, Allahın vəhdəniyyətinin mənası odur ki, ondan oxşarlığı və onun mislində nəyinsə olması inkar edilməlidir. Xattabi buyurur ki, əl-Vahid təkdir, hansı ki, daimi tək olub və onunla başqası olmayıb. Şəriki olmayıb. Ondan başqa nə varsa vahid deyilib, çağırılıb. Lakin bunların vahidliyi bir tərəfdəndir. Digər tərəfdən isə vahid deyillər. Məsələn, bir insan filan bir şeydə vahid ola bilər. Amma başqa şeydə vahid olmaya bilər. Allah isə vahiddir. Onun mislində heçnə yoxdur. Həmçinin əl-Vahidlə əl-Əhədin fərqini izah edərək buyurur ki, əl-Vahid zatında tək olandır. Əl-Əhəd isə mənada təkdir. Hansı ki, Allahın bunda şəriki yoxdur. Beyhəqi buyurur ki, əl-Vahid tək olandır. Heç vaxt şəriki olmayıb. Həmçinin buyurur ki, əl-Əhəd hansı ki, oxşarı və bənzəri yoxdur. Sə'di əl-Vahid və əl-Əhəd haqqında buyurur ki, bütün kamilliklərdə təkləşəndir.

İnsanların üzərinə düşən odur ki, etiqadda, sözdə və əməldə Allahı təkləşdirsinlər. İnsan bilsə ki, Allah əl-Vahid və əl-Əhəddir, onda Allahı heç bir məxluqa oxşatmayacaq. Ağlına nə gəlsə, şeytan nə vəsvəsə etsə biləcək ki, o, Allah deyil. Çünki, Allah vahiddir. Onun oxşarı və bənzəri yoxdur. İnsan Allahı təkləşdirməsə İslama daxil ola bilməz. Peyğəmbər ﷺ namazdan, zəkatdan, həccdən, İslamın digər ruknlarından əvvəl insanları şəhadət kəlməsi ilə Allahı təkləşdirməyə çağırıb.

# *Əs-Saməd*

**Lüğəti məna:**

Bu ismin bir neçə lüğəti mənası var. Məsələn, itaət olunan seyyid. Hansı ki, onsuz hər hansı bir iş keçmir. Həmçinin deyiblər ki, saməd sözünün əsli *"qasədə"*-dir. Bu isim söykənmək mənasında da işlənir. Məsələn, *"asmədəl əmra iləyhi"* - işi ona söykətdi.

Əsnədəhu, yəni ona isnad etdi. Burda söykətdi feili *samədə* sözü ilə işlədilib. Asmədə, yəni əsnədəhu.
Əs-Samdu hündür yerə deyilir. Yerdən hündür olan.

Allahın bu ismi Quranda cəmi bir dəfə zikr olunub:

**{ اللَّهُ الصَّمَدُ }**

***"Allah saməddir (möhtac deyildir) "(İxlas /2)***

**Allah haqqında bu ismin mənası:**

İbn Cərir buyurur ki, elm əhli Allahın əs-Saməd isminin mənası haqqında bir neçə sözlər demişlər. Bəziləri deyiblər ki, əs-Saməd yeyib içməyəndir. Hansı ki, bətni yoxdur. Necə ki, bunu Mucahid, İkrimə söyləyiblər. Əş-Şə'bi buyurub ki, əs-Saməd təam yeməyən və şərab içməyəndir. Başqaları isə deyiblər ki, əs-Saməd ondan heçnə çıxmayandır. İbn Cərir bu sözü deyənlərin adlarını sadalayaraq buyurur ki, İkrimə deyir ki, əs-Saməd, yəni ondan heçnə çıxmır. O, nə doğub, nə də doğulub. Həmçinin İbn Cərir başqalarının sözlərini zikr edərək buyurur ki əs-Saməd nə doğub, nə də doğulmayandır.
Həmçinin buyurulub ki, əs-Saməd seyyid mənasındadır. Bütün xəlqin ehtiyacı onadır. Hamı Allaha ehtiyaclıdır.
Əs-Saməd daimi qalan, fani olmayandır. Bunu söyləyən bəzi böyük tabiinlər olub. Qatədə deyib ki, əs-Saməd, daimi olandır. Əbu Cəfər buyurur ki, ərəblərdə əs-Saməd seyyid mənasındadır. Hansı ki, bütün ehtiyaclar ona qəsd edilir. Hansı ki, ondan yuxarıda heçnə yoxdur. Əz-Zucəcə buyurur ki, əs-Saməd seyyiddir, hansı ki, ehtiyaclar ona yönəlir. Xattabi buyurur ki, əs-Saməd seyyiddir, hansı ki, işlərdə yalnız o, qəsd olunub. Yəni bütün məxluqatın ehtiyacları Allahadır. Həmçinin buyurur ki, alimlər əs-Saməd sözünə çox mənalar demişdirlər. Lakin səhihi yuxarıda dediyim mənanı tərcih edir. Qeyd edir ki, bu məna ona görə səhihdir ki, *samədə* sözünün əsli *qasədə*-dir. İmam Şinqiti buyurur ki, ərəb kəlamında mərufdur ki, əs-Saməd əs-seyyidul azim itlaq olunur. Həmçinin əs-Saməd möhkəm, sıx, qalın, bərk bu cür şeylərə deyilir. Hansı ki, onun içi daxili yoxdur. Sonra buyurur ki, bunu biləndən sonra bil ki, Allah seyyiddir. Hansı ki, şiddətli anlarda ehtiyaclar tək ona yönəlir. O, məxluqatın sifətlərinə oxşamaqdan münəzzəhdir. Yemək, içmək və s. kimi...

# *Əl-Muqtədir, əl-Qaadir və əl-Qadiyr*

**Lüğəti məna:**

Əl-Qadru, əl-Qudra vəl-Miqdər bunlar üçü də qüvvət mənasındadır. Bir şeyə iqtidarlı olmaq onun üzərinə qüdrətli olmaqdır. *Qadru-ş-şey* (bir şeyin qədəri) dedikdə, bir şeyin məbləği anlaşılır. Həmçinin *Allahın qədəri* kəlməsinin mənası isə onun əzəməti alamına gəlir.

**{ مَا قَدَرُوا اللَّهَ حَقَّ قَدْرِهِ ...}**

*“Onlar Allahı lazımınca qiymətləndirmədilər ”(Həcc /74),* yəni lazımınca əzəmətləşdirmədilər.

Əz-Zucəcə və başqa alimlər buyurur ki, əl-Qaadir ismu fəildir. Əl-Qədiyr *faiyl* babındandır və daha genişdir. Əl-Muqtədir *muftəil* babındandır, *iqtədəra*-dandır.Bu isə əbləğdir daha genişdir.

Allahın əl-Qaadir ismi Quranda on iki dəfə zikr olunub. Beşi cəm formasındadır.

**{قُلْ هُوَ الْقَادِرُ...}**

*“De: “(Allah) qadirdir ”(Ənam /65)*

**{ وَإِنَّا عَلَى أَن نُّرِيَكَ مَا نَعِدُهُمْ لَقَادِرُونَ }**

*“(Ya Rəsulum!) Biz onlara vəd etdiyimizi (əzabı) sənə göstərməyə, əlbəttə, qadirik!”(Muminun /95)*

**{ أَوَلَيْسَ الَّذِي خَلَقَ السَّمَاوَاتِ وَالْأَرْضَ بِقَادِرٍ عَلَى أَنْ يَخْلُقَ مِثْلَهُم بَلَى وَهُوَ الْخَلَّاقُ الْعَلِيمُ }**

*“Göyləri və yeri yaradan onların eynisini yenidən xəlq etmək qüdrətinə malik olmazmı?! Şübhəsiz ki, o, Xalləqdir, Əlimdir.”(Yəsin /81)*

**{ فَقَدَرْنَا فَنِعْمَ الْقَادِرُونَ }**

*“Biz  qadir olduq. Nə gözəl Qadir olanlarıq”(Mursələt /23)*

*Əl-Muqtədir* ismi Quranda cəmi dörd dəfə zikr olunub.

**{... وَكَانَ اللَّهُ عَلَى كُلِّ شَيْءٍ مُّقْتَدِراً }**

*“Allah hər şeyə qadirdir.”(Kəhf /45) və s.*

*Əl-Qadiyr* ismi isə qırx beş dəfə zikr olunub.

**{ أُذِنَ لِلَّذِينَ يُقَاتَلُونَ بِأَنَّهُمْ ظُلِمُوا وَإِنَّ اللَّهَ عَلَى نَصْرِهِمْ لَقَدِيرٌ }**

**“(Kafirlərin )vuruşa başladığı insanlara, (o kafirlərlə) (vuruşmağa) icazə verilmişdir. Çünki onlar zülmə məruz qalmışlar. Şübhəsiz ki, Allah onlara kömək etməyə qadirdir. ”(Həcc /39) və s.**

**Allah haqqında bu isimlərin mənası:**

Alimlərin bu isimlər haqda söylədiklərinə fikir versək görərik ki, hər şeyə qadir olan deməkdir. Heç nəyə aciz deyil. Buna heç kəs mane ola bilmir. Allah istədiyi vaxt istədiyi şeyi etməyə qadirdir. Allahın qüdrəti tamdır və o qüdrətə acizlik gəlmir. Necə ki, şeyx Sə'di buyurur kamil qüdrət sahibidir. Qüdrəti ilə məxluqları icad edib. Qüdrəti ilə idarə edir, öldürür və s. Əl-Muqtədir mübaliğə mənasındadır. Daha genişdir.

Bütün müsəlmanlar ittifaq ediblər ki, Allah hər şeyə qadirdir. Nə göydə, nə də yerdə heçnədən aciz deyil.

**{أَوَلَمْ يَسِيرُوا فِي الْأَرْضِ فَيَنظُرُوا كَيْفَ كَانَ عَاقِبَةُ الَّذِينَ مِن قَبْلِهِمْ وَكَانُوا أَشَدَّ مِنْهُمْ قُوَّةً وَمَا كَانَ اللَّهُ لِيُعْجِزَهُ مِن شَيْءٍ فِي السَّمَاوَاتِ وَلَا فِي الْأَرْضِ إِنَّهُ كَانَ عَلِيماً قَدِيراً}**

***"Məgər onlar yer üzündə gəzib-dolaşıb özlərindən əvvəlkilərin aqibətinin necə olduğunu görmürlərmi? Onlar ki bunlardan daha qüvvətli idilər. Göylərdə və yerdə Allahdan qaçıb xilas ola biləcək heç bir şey yoxdur. Həqiqətən, O, Biləndir və (hər şeyə) Qadirdir."(Fatir /44)***

Allahın qüdrət sifəti onun zatı sifətlərindəndir. Allahın sifətləri hamısı kamil sifətlərdir. İnsan kainata, məxluqlara nəzər salsa bilər ki, qüdrət sifəti kamildir.

Hədisdə qeyd olunur ki, bir kişi ölüm anında övladlarına deyir ki, məni öləndən sonra yandırarsız. Külümü səpərsiz. O, elə hesab edirdi ki, belə etsə Allah onu diriltməyə qadir olmayacaq. Lakin Allah hər şeyə qadirdir. Onu diriltdi və bunun səbəbini soruşanda kişi dedi ki, bunu etməyə səbəb səndən qorxmağım idi. Allah onu bağışladı.

Bu da dəlalət edir ki, Allah hər şeyə qadirdir. Ümumiyyətlə Allahın isimlərinin, sifətlərinin, feillərinin mənasını öyrənmək insanda Allahı əzəmətləşdirməyi oyadır. İnsan Allahın ad və sifətlərini biləndə onun əzəmətli oduğunu anlayır.

# *Əl-Əvvəl və əl-Əxir*

**Lüğəti məna:**

**Əl-Əvvəl** sözünün lüğəti mənası əvvəl deməkdir. Əksi isə axırdır. Bu isim Quranda cəmi bir dəfə zikr olunub.

**{هُوَ الْأَوَّلُ وَالْآخِرُ وَالظَّاهِرُ وَالْبَاطِنُ وَهُوَ بِكُلِّ شَيْءٍ عَلِيمٌ}**

***" Əvvəl də, Axır da, Zahir də, Batin də odur. O, hər şeyi bilir."(Hədid /3)***

İbn Cərir bu ayənin təfsirində buyurur ki, o, əvvəldir, yəni hədsiz hər şeydən qabaqdır. Sonra buyurur ki, çünki Allah var idi və ondan başqa mövcud olan yox idi. Necə ki, Allah buyurur: hər şey həlak olacaq, fanidir onun Özündən başqa. Ona görə də peyğəmbər ﷺ dualarında deyərdi ki, Allahım! Sən əvvəlsən, Səndən qabaq heçnə

yoxdur. Xattabi buyurur ki, əl-Əvvəl, yəni Allah hər şeyi qabaqlayıb. Allah mövcud idi. Ondan qabaq heçnə yox idi. Onunla bərabər heçnə yox idi. Əl-Huleymi buyurur ki, əl-Əvvəl, yəni hansı ki, ondan qabaq heçnə yoxdur. Həmçinin Beyhəqi buyurur ki, əl-Əvvəl, mövcud olmasının əvvəli yoxdur.

***Əl-Əxir*** ismi əl-Əvvəlin əksidir. Həmçinin bu isim də Quranda cəmi bir dəfə zikr olunub. Yuxarıda qeyd etdiyimiz kimi:

***{هُوَ الْأَوَّلُ وَالْآخِرُ وَالظَّاهِرُ وَالْبَاطِنُ وَهُوَ بِكُلِّ شَيْءٍ عَلِيمٌ }***

***" Əvvəl də, Axır da, Zahir də, Batin də odur. O, hər şeyi bilir."(Hədid /3)***

**Allah haqqında bu ismin mənası:**

Xattabi buyurur ki, əl-Əxir məxluqat fani olandan sonra qalandır. Əl-Əxir axırı olan, sonu olan deyil. Necə ki, o, əvvəldir deyəndə o demək deyil ki, onun başlanğıcı var. Həmçinin əl-Əxir hansı ki, onun sonu yoxdur, əbədidir. Beyhəqi buyurur ki, əl-Əxir, mövcud olmasının sonu yoxdur. Yəni məxluqat fani olandan sonra qalandır.

# *Əz-Zahir və əl-Batin*

**Lüğəti məna:**

***Əz-Zahir*** lüğəti mənada aydın, açıq və s. bu kimi mənalarda işlənir. Həmçinin kömək etmək, yardım mənasında da işlənir:

***{... وَالْمَلَائِكَةُ بَعْدَ ذَلِكَ ظَهِيرٌ}***

***" Bunlardan başqa mələklər də onun yardımçılarıdır." (Təhrim /4)***

Məsələn deyəndə ki, "*zahartu əl-beyt*" - evə zahir oldum, yəni evə qalxdım. Həmçinin " *zahartu alərracul*" -kişiyə qalib gəldim. Burda "*zahara*" qalib gəlmək mənasında işlənmişdir. Bir şey zahir oldu dedikdə, yəni aydın oldu anlamına gələr və s.

Allahın bu ismi Quranda cəmi bir dəfə zikr olunub.

***{هُوَ الْأَوَّلُ وَالْآخِرُ وَالظَّاهِرُ وَالْبَاطِنُ...}***

***"Əvvəl də, Axır da, Zahir də, Batin də odur "(Hədid /3)***

**Allah haqqında bu ismin mənası:**

İbn Cərir  buyurur ki, əz-Zahir, yəni hər şeydən uca olan deməkdir. Xattabi buyurur ki, Allah əz-Zahirdir, yəni açıq-aydın hüccəti ilə zahirdir. Həmçinin buyurur ki, əz-Zahir qüdrəti ilə hər şeydən uca olandır. "*Uluv*" mənasındadır, yəni ucalıq.
Əz-Zahir ucalığı əhatə edir və yaratdıqlarının üzərində zuhur olandır. Ondan üstə heçnə yoxdur. O, həm zatı, həm qüdrəti, həm də qahrı ilə ən ucadır. Necə ki, peyğəmbər ﷺ dualarında deyəndə ki, Sən zahirsən, səndən üstə heçnə yoxdur.

***Əl-Batin* -** isminin lüğəti mənası zuhurun əksidir. Zuhur açıq-aydın, parlaq olandır. Batin isə bunun əksi, yəni gizli olandır və s. Məsələn paltarın zahiri dedikdə paltarın aşkar olan tərəfi nəzərdə tutulur. Amma paltarın batini dedikdə isə onu içi nəzərdə tutulur.
Allahın bu ismi də həmçinin Quranda cəmi bir dəfə zikr olunub.

***{هُوَ الْأَوَّلُ وَالْآخِرُ وَالظَّاهِرُ وَالْبَاطِنُ...}***

***"Əvvəl də, Axır da, Zahir də, Batin də odur "(Hədid /3)***

**Allah haqqında bu ismin mənası:**

İbn Cərir buyurur ki, əl-Batin Allahda bir şeyin bir şeyə daha yaxın olması yoxdur. O, Batindir, yəni hər şeyə hər şeydən yaxın olan odur. Əz-Zucəcə buyurur ki, əl-Batin hər şeyin içini biləndir. Ondan gizli heçnə yoxdur. Bu isim Allahın hər şeyə yaxın olması və hər şeyi  əhatə etməsi anlamına gəlir. Bir növ qarib mənasındadır. Elə bir batin, gizli şey  yoxdur ki, Allah ona yaxın olmasın, bilməsin və əhatə etməsin. Allahın əl-Batin ismi dəlalət edir ki, Allah sirrləri, gizli olanları və işlərin dəqiqliyini bilir.

# *Əl-Bərr*

**Lüğəti məna:**

***Əl-Bərr*** ismi lüğətdə əs-sıdq və ət-taə, yəni sidq və itaət anlamına gəlir.

***{ لَّيْسَ الْبِرَّ أَن تُوَلُّواْ وُجُوهَكُمْ قِبَلَ الْمَشْرِقِ وَالْمَغْرِبِ وَلَـكِنَّ الْبِرَّ مَنْ آمَنَ بِاللّهِ وَالْيَوْمِ الآخِرِ ... }***

***"Yaxşı əməl üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin yaxşı əməl (sahibləri) Allaha, Axirət gününə, iman gətirənlərdir... "(Bəqərə /177)***

Əl-Covhəriyyu buyurur ki, əl-Bərr kəsrə ilə *(əl-birr)* olanda yaxşılıq etmək anlamına gəlir. Əl-Bərr isə quraqlıq deməkdir. Qurtubi buyurur ki, əl-Birr xeyirdə, ehsanda, yaxşılıqda geniş olmaqdır.
Bu isim Quranda cəmi bir dəfə zikr olunub:

***{ إِنَّا كُنَّا مِن قَبْلُ نَدْعُوهُ إِنَّهُ هُوَ الْبَرُّ الرَّحِيمُ }***

***"Biz əvvəllər ona dua edirdik. Həqiqətən, o, əl-Bərr və Rəhimdir!"(Tur /28)***

**Allah haqqında bu ismin mənası:**

İbn Cərir ***"Biz əvvəllər ona dua edirdik. Həqiqətən, o, əl-Bərr və Rəhimdir!" (Tur /28)*** ayəsinin təfsirində buyurur ki, qullarına qarşı lətif olandır. Əz-Zucəcə buyurur ki, Allah məxluqlarına qarşı bərrundur. Yəni onlara ehsan edəndir. Həmçinin qulların əhvallarını islah edəndir. Xattabi buyurur ki, əl-Bərr onlara ruzi verən, ehsan edən və ruzi verəndə paxıllıq etməyəndir.

Məxluqlardan kiməsə söyləyəndə filankəs birr sahibidir, yəni xeyir, fayda sahibi anlamına gəlir. Məsələn, filankəs valideynə qarşı bərrdir, yəni onun üzünə ağ olmayandır. İnsanlarda bu sifət olanda misallardakı qeyd etdiyim mənaları ifadə edir. Lakin Allahın sifətləri məxluqatın sifətinə bənzəmir. Huleymi buyurur ki, əl-Bərr qullarına qarşı rafiq (mülayim) olandır. Onlara asanlıq istər, çətinlik istəməz. Onların günahlarını əfv edir və qulların etdiyi cinayətlərə görə onlara əzab vermir. Qullarının etdiyi yaxşılıqlara görə savabları qat-qat artıq verir. Günahların cəzasını isə artırmadan verir. Sonra buyurur ki, qulları savab etmək istəyəndə tək istəyə görə savab yazır. Lakin günah etmək istəyəndə isə bu istəyə görə günah yazmır. İbn Qeyyim buyurur ki, əl-Bərr çoxlu xeyir və ehsan edəndir.

# *Ət-Təvvab*

**Lüğəti məna:**

***Ət-Toubə*** sözünün lüğəti mənası günahdan qayıtmaq mənasında işlənir. Məsələn, deyəndə ki, "*raculun təvvab*" , yəni Allaha tövbə edən. Allah ət-Təvvabdır, yəni qullarının tövbəsini qəbul edəndir:

***{غَافِرِ الذَّنبِ وَقَابِلِ التَّوْبِ...}***

***"Günahları bağışlayan, tövbələri qəbul edən"(Ğafir /3)***

Əz-Zucəcə bu ismə *bir şeyə tövbə etsə, əgər qayıtsa* kimi açıqlama vermişdir.

Allahın bu ismi Quranda cəmi on bir dəfə zikr olunub:

***{فَتَلَقَّى آدَمُ مِن رَّبِّهِ كَلِمَاتٍ فَتَابَ عَلَيْهِ إِنَّهُ هُوَ التَّوَّابُ الرَّحِيمُ}***

***"Adəm (tövbə etmək üçün) Rəbbindən kəlmələr öyrəndi, O da onun tövbəsini qəbul etdi. Doğrudan da o, Təvvab və Rəhimdir."(Bəqərə /37)***

***{إِلاَّ الَّذِينَ تَابُواْ وَأَصْلَحُواْ وَبَيَّنُواْ فَأُوْلَـئِكَ أَتُوبُ عَلَيْهِمْ وَأَنَا التَّوَّابُ الرَّحِيمُ }***

***"Yalnız tövbə edənlər (əməllərini) islah edənlər və (haqqı) bəyan edənlər istisnadır. Mən onların tövbəsini qəbul edərəm. Mən Təvvab və Rəhiməm! "(Bəqərə /160)***

***{أَلَمْ يَعْلَمُواْ أَنَّ اللّهَ هُوَ يَقْبَلُ التَّوْبَةَ عَنْ عِبَادِهِ وَيَأْخُذُ الصَّدَقَاتِ وَأَنَّ اللّهَ هُوَ التَّوَّابُ الرَّحِيمُ }***

***"Məgər onlar bilmirlər ki, Allah qullarından tövbəni qəbul edir, sədəqələri götürür və Allah Təvvab və Rəhimdir? "(Tövbə /104)***

***{وَلَوْلَا فَضْلُ اللَّهِ عَلَيْكُمْ وَرَحْمَتُهُ وَأَنَّ اللَّهَ تَوَّابٌ حَكِيمٌ }***
***"Əgər Allahın sizə lütfü və mərhəməti olmasaydı, Allah Təvvab və Həkim olmasaydı (yalan danışanlar Allahın lənətinə gələrdilər). "(Nur /10)***

***{ فَسَبِّحْ بِحَمْدِ رَبِّكَ وَاسْتَغْفِرْهُ إِنَّهُ كَانَ تَوَّاباً }***

***"Həmd ilə Rəbbini təriflə və ondan bağışlanmağını dilə. Həqiqətən, o, Təvvabdır (tövbələri qəbul edəndir) " ( Nasr /3)***

**Allah haqqında bu ismin mənası:**

Qatədə ***"Əgər Allahın sizə lütfü və mərhəməti olmasaydı, Allah Təvvab və Həkim olmasaydı (yalan danışanlar Allahın lənətinə gələrdilər). "(Nur /10)*** ayəsinin təfsirində buyurur ki, Allah qullarına itaət edib özünə qayıtmağı bəxş edəndir. Yəni Allah qullarına tövbəni bəxş edir. İbn Cərir ***"Həqiqətən o, Təvvab və Rəhimdir "*** ayəsinin təfsirində buyurur ki, Allah təbərak və təalə günahlarına görə tövbə edib qayıdanlara ət-Təvvabdır (tövbələrini qəbul edəndir). Əz-Zucəcə ***"Günahları bağışlayan, tövbələri qəbul edən"(Ğafir /3)*** ayəsinin təfsirində buyurur ki, özünə tərəf qayıdan qulunu qəbul edir. Tövbə o deməkdir ki, sanki sən itaətə qayıdırsan. Həmçinin alimlər buyurur ki, insan Allaha tövbə edib günahdan əl çəkib qayıdır, Allah isə onun tövbəsini qəbul edir.

Qul tövbə edəndir. Allah isə Təvvabdır, tövbələri qəbul edəndir. Əl-Xəttabi buyurur ki, ət-Təvvab qullarının tövbəsini qəbul edir. Nə qədər ki, tövbə təkrarlanacaq bir o qədər də qəbul etmə təkrarlanacaq.
Alimlər tövbənin mənasını belə izah ediblər ki, qulun asilikdən, günahdan sonra iatətə qayıtmasıdır. Əl-Huleymi buyurur ki, ət-Təvvab insanların tövbəsini qəbul edəndir. Hansı ki, Allaha asilik, günah edib və günahdan sonra itaətə qayıdıblar. Allah onların bu qayıdışını, etdikləri günaha görə peşman olublarsa Allah onların bu qayıdışını qəbul edəndir. Beyhəqi buyurur ki, Allah qullarının istədiyinin tövbəsini qəbul edir. Allah Təvvabdır və qulları nə qədər günah edib qayıdırlarsa Allah onların tövbəsinin qəbul edir. Özünə tərəf qayıdanların günahını bağışlayır. Hər kim Allaha nə qədər tövbə edib qayıdarsa Allah onun tövbəsini qəbul edər. Allah onlara müvəffəq edir ki, onlar tövbə edib qayıtsınlar və Allah onların tövbəsini qəbul etsin. Qulları tövbəyə müvəffəq edən Allahdır. Tövbəsini qəbul edən və tövbəsinə görə savab verən Allahdır.

**{ فَمَن تَابَ مِن بَعْدِ ظُلْمِهِ وَأَصْلَحَ فَإِنَّ اللّهَ يَتُوبُ عَلَيْهِ إِنَّ اللّهَ غَفُورٌ رَّحِيمٌ }**

***"Hər kim haqsızlıq etdikdən sonra tövbə edib (əməllərini) islah etsə, şübhəsiz ki, Allah onun tövbəsini qəbul edər. Həqiqətən, Allah Ğafurdur, Rəhimdir."*** **(*Maidə /39*)**

Təvvab mübaliğə formasındadır. Geniş məna daşıyır. İnsanların günahı nə qədər çox olarsa, nə qədər böyük olarsa Allah Təvvabdır. İnsan nə qədər günah işlətsə də, günahı böyük olsa da bilməlidir ki, onub Rəbbi Təvvabdır. İnsanın ömrü nə qədər çox olsa, nə qədər Allaha səmimi qəlblə tövbə edib qayıtsa onun tövbəsini qəbul edir.

**{ وَهُوَ الَّذِي يَقْبَلُ التَّوْبَةَ عَنْ عِبَادِهِ... }**

***" Qullarının tövbəsini qəbul edəndir"(Şura /25)***

# *Əl-Əfuvv*

**Lüğəti məna:**

*Əl-Əfv* sözünün lüğəti mənası əfv etmək, günahından keçmək anlamındadır. Məsələn, deyəndə ki, *"əfə ən zənbihi"*-onun günahını əfv etdi, yəni ona əzab verməyi tərk etdi. Günahından keçdi.
Allahın bu ismi Quranda cəmi beş dəfə zikr olunub.

**{ إِنَّ اللّهَ كَانَ عَفُوّاً غَفُوراً... }**

*"Həqiqətən, Allah Əfuvv və Ğafurdur. "(Nisə /43)*

***{ وَكَانَ اللّهُ عَفُوّاً غَفُوراً...}***

*"Həqiqətən, Allah Əfuvv və Ğafurdur. "(Nisə /99)*

**Allah haqqında bu ismin mənası:**

İbn Cərir ***"Həqiqətən, Allah Əfuvv və Ğafurdur. "(Nisə /99)*** ayəsinin təfsirində buyurur ki, Allah təbərak və təalə qullarının günahlarını əfv edəndir. Həmçinin Allah qulları şirk etmədikcə onlara əzab vermir. Əz-Zucəcə buyurur ki, Allah Əfuvvundur. Yəni günahları əfv edəndir. Günaha görə aqibət vermir. Əl-Xəttabi buyurur ki, əl-əfvu günahları bağışlamaq və pislik edənə cəza verməməkdir. Şeyx Sə'di buyurur ki, hər bir kəs Allahın əfvinə, məğfirətinə, rəhmətinə, kərəminə ehtiyaclıdır. Allah müəyyən səbəbləri tutana vəd verib ki, onları əfv edəcək.

***{ وَإِنِّي لَغَفَّارٌ لِّمَن تَابَ وَآمَنَ وَعَمِلَ صَالِحاً ثُمَّ اهْتَدَى }***

***"Mən, həqiqətən də, tövbə edib, iman gətirib yaxşı işlər görən, sonra da doğru yolu tutanları bağışlayıram."(Tahə /82)***

Allahın kamil əfvindəndir ki, onun qulları nə qədər özlərinə zülm edib günah etsələr, sonradan tövbə edib Allaha qayıtsalar Allah təbərak və təalə onların günahlarını əfv edir.

***{قُلْ يَا عِبَادِيَ الَّذِينَ أَسْرَفُوا عَلَى أَنفُسِهِمْ لَا تَقْنَطُوا مِن رَّحْمَةِ اللَّهِ إِنَّ اللَّهَ يَغْفِرُ الذُّنُوبَ جَمِيعاً إِنَّهُ هُوَ الْغَفُورُ<br>الرَّحِيمُ}***

***" De: Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. O, həqiqətən, Əfuvvdur, Rəhimdir!" (Zumər /53)***

Allah insanları əfv etməsəydi, rəhm etsməsəydi yer üzündə bir canlı qalmazdı.

***{وَلَوْ يُؤَاخِذُ اللّهُ النَّاسَ بِظُلْمِهِم مَّا تَرَكَ عَلَيْهَا مِن دَآبَّةٍ وَلَكِن يُؤَخِّرُهُمْ إلَى أَجَلٍ مُّسَمًّى فَإِذَا جَاء أَجَلُهُمْ لاَ يَسْتَأْخِرُونَ سَاعَةً وَلاَ يَسْتَقْدِمُونَ}***

***"Əgər Allah insanları hər etdikləri zülmə görə cəzalandırsaydı, yer üzündə heç bir canlını (sağ) qoymazdı. Lakin (Allah) onlara müəyyən vaxta qədər möhlət verir. Onların əcəlinin çatdığı an bircə saat belə nə yubanar, nə də tezləşə bilər. "(Nəhl /61)***

Allah təbərak və təalə əfv edəndir və əfv edənləri də sevir. Qullarına da əmr edib ki, onlar da əfv etsinlər.

***{ ... وَأَن تَعْفُواْ أَقْرَبُ لِلتَّقْوَى ... }***

***" Sizin bağışlamağınız təqvaya daha yaxındır " (Bəqərə /237)***

***{ وَجَزَاء سَيِّئَةٍ سَيِّئَةٌ مِّثْلُهَا فَمَنْ عَفَا وَأَصْلَحَ فَأَجْرُهُ عَلَى اللَّهِ إِنَّهُ لَا يُحِبُّ الظَّالِمِينَ }***

***"Pisliyin cəzası özü kimi pislikdir. Amma kim bağışlasa və barışsa, onun mükafatı Allaha aid olar. Həqiqətən, o, zalımları sevmir. "(Şura /40)***

***{... فَاعْفُ عَنْهُمْ وَاسْتَغْفِرْ لَهُمْ وَشَاوِرْهُمْ فِي الأَمْرِ...}***

***"Sən onların günahından keç, (Allahdan) onların bağışlanmalarını dilə və görəcəyin işlər barədə onlarla məsləhətləş. "(Ali İmran /159)***

Allah təbərak və təalə bu sifətdə olan möminləri tərifləyib.

***{ ...وَالْكَاظِمِينَ الْغَيْظَ وَالْعَافِينَ عَنِ النَّاسِ وَاللّهُ يُحِبُّ الْمُحْسِنِينَ }***

***" (O müttəqilər ki) qəzəblərini boğur və insanları bağışlayırlar. Allah yaxşı iş görənləri sevir. "(Ali İmran /134)***

Həmçinin peyğəmbər ﷺ dualarında belə deyərdi: *Allahım səndən afiyət istəyirəm.*

Başqa bir hədisdə deyilir ki, ***bir kişi peyğəmbərə ﷺ deyir ki, ey Allahın rəsulu, necə dua edim? Peyğəmbər ﷺ buyurur: De: Allahım məni bağışla. Mənə rəhm et. Məni əfv et və mənə ruzi ver.***

Əgər sual verilsə ki, əl-əfv ilə əl-ğafur, əl-məğfira sözləri arasında nə kimi fərq var? Alimlər buyurub ki, əl-Əfuvv günahı siləndir. Əl-Ğafur isə günahı örtən. Silmək örtməkdən daha genişdir. Əgər bir insan günah etsə Allah sənin günahını dünyada və axirətdə örtür. Buna *sitr* deyilir. Həmin günaha görə əzab vermir. Lakin günah mövcuddur.

Əl-Əfuvv isə günah əslən mövcud olmur. Sanki sən o günahı işlətməmisən. Allah təbərak və təalə onu silib. Buna *məhv* deyilir.

# *Əl-Ğaniyyu*

**Lüğəti məna:**

Əl-Ğinə Ərəb kəliməsində başqasına möhtac olmayana deyilir. Allahın bu ismi Quranda on səkkiz dəfə zikr olunub.

***{وَرَبُّكَ الْغَنِيُّ ذُو الرَّحْمَةِ...}***

***" Sənin Rəbbin Ğaniyydir və mərhəmət sahibidir " (Ənam /133)***

***{قَالُواْ اتَّخَذَ اللّهُ وَلَداً سُبْحَانَهُ هُوَ الْغَنِيُّ...}***

***"Onlar: "Allah (Özünə )övlad götürmüşdü!"– dedilər. O pakdır, müqəddəsdir! O,Ğaniyydir "(Yunus /68)***

***{ ... فَإِنَّ اللّهَ لَغَنِيٌّ حَمِيدٌ }***

***" Həqiqətən Allah Ğaniyy və Həmiddir "(İbrahim /8)***

***{ ...فَإِنَّ رَبِّي غَنِيٌّ كَرِيمٌ }***

***" Həqiqətən Rəbbim Ğaniyy və Kərimdir " (Nəml /40)***

***{ يَا أَيُّهَا النَّاسُ أَنتُمُ الْفُقَرَاء إِلَى اللَّهِ وَاللَّهُ هُوَ الْغَنِيُّ الْحَمِيدُ }***

***"Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə Ğaniyy və Həmiddir. "(Fatir /15)***

***{...فَكَفَرُوا وَتَوَلَّوا وَّاسْتَغْنَى اللَّهُ وَاللَّهُ غَنِيٌّ حَمِيدٌ}***

***"Onlar küfr edir və üz döndərirdilər. Allahın (onlara) ehtiyacı yoxdur. Allah Ğaniyy və Həmiddir."(Təğabun /6)***

**Allah haqqında bu ismin mənası:**

İbn Cərir ***"Bilin ki, Allah Zəngindir, Tərifəlayiqdir. (Bəqərə /267)"*** ayəsinin təfsirində buyurur ki, Allah təbərak və təalə qullarının sədəqə verməklərindən ehtiyacsızdır. Allahın sizin sədəqənizə ehtiyacı yoxdur. Allah sizə sədəqə verməyi rəhmət olaraq əmr edib. Sizin aranızda olan zəiflər, imkansızlar güclənsin deyə. Qiyamət günü sizin verdiyiniz sədəqəyə görə sizə mükafat versin. Əz-Zucəcə buyrur ki, Allah təbərak və təalə əl-Ğaniyyundur, heç bir kəsə ehtiyacı yoxdur. O, uca və böyükdür. Allahu təalə buyurur:

***{...إِنَّ اللَّهَ لَغَنِيٌّ عَنِ الْعَالَمِينَ }***

***"Allahın aləmlərə qətiyyən ehtiyacı yoxdur. " (Ənkəbut /6)***

Bütün məxluqat Allaha möhtacdır.

***{يَا أَيُّهَا النَّاسُ أَنتُمُ الْفُقَرَاء إِلَى اللَّهِ وَاللَّهُ هُوَ الْغَنِيُّ الْحَمِيدُ }***

***"Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə Ğaniyydir, Həmiddir. "(Fatir /15)***

Bütün hər şeyi idarə edən Allahdır. Ruzi verən, təqdir edən, Allahdır. Onun əmrinə qarşı heç kim çıxa bilmir. O, hər şeyə qalibdir. Əl-Xattabi buyurur ki, əl-Ğaniyyu yaratdıqlarından ehtiyacsızdır. Onlar isə Allaha möhtacdır. Necə ki, Allah özünü vəsf edərək buyurur ki: "***Vallahul ğaniyy"   -Allah zəngindir.*** Siz isə kasıbsız, fəqirsiz. Əl-

Huleymi buyurur ki, əl-Ğaniyyu, sifətləri kamil olan, heç bir şeyə ehtiyacı olmayan deməkdir. Ehtiyaclı olmaq naqislikdir. Həmçinin möhtac olan kəs acizdir. Allah isə acizlikdən munəzzəhdir, uzaqdır. Beyhəqi buyurur ki, əl-Ğaniyyu, yəni qullarından ehtiyacsız olan. Həmçinin deyiblər ki, əl-Ğaniyyu Allahın nə zatında, nə də sifətlərində heç bir şeylə əlaqəsi yoxdur. Əslən heç kimə ehtiyacı yoxdur. Yerin, göyün, həmçinin dünya və axirətin xəzinəsi onu əlindədir. Bütün məxluqlardan mütləq şəkildə ehtiyacsız və zəngindir. Əl-Ğaniyyu onun zatı sifətidir. Qul isə zatı ilə fəqirdir. Allaha möhtacdır. Bir saniyə olsun belə Allaha möhtacsız qala bilməz. Daim Ona möhtacdır.

Fəqirlik iki növdür:

1. ***Fəqrun ittirari***
2. ***Fəqrun ixtiyəri***

Fəqrun ittirari, yəni  sənin fəqirliyin məcburidir. Bura hamı daxildir. Mömin, kafir və s. Kafir də xəstələnir, mömin də. Hər ikisi sağalmağa möhtacdır. Çünki hamısı məxluqdur. Məxluqun isə xaliqə ehtiyacı var. Allaha fəqirdir.

Fəqrun ixtiyər isə  ixtiyari fəqirlik deməkdir. Yəni sən öz ixtiyarın ilə fəqir olmusan. Möhtaclığını Allaha göstərirsən.

Bəs bu ixtiyari fəqirlik necə hasil olur ?

İxtiyari fəqirlik iki şərəfli elmi bilməklə hasil olur:

1. ***Qulun Allahı tanıması ilə***
2. ***Qulun öz nəfsini tanıması ilə.***

Nə qədər ki, insanda bu iki şey hasil olacaq, Allaha fəqirliyi üzə çıxacaq. Bu isə dünya və axirətdə səadətdir. İnsan Allahı tanısa və öz nəfsinin aciz olduğunu bilsə artıq öz möhtaclığı, Allaha olan zəlilliyi zahir olacaq. İnsanın öz möhtaclığını göstərməməyinə səbəb özünü tanımamasıdır. Elə bilir ki, özü nəyəsə qadirdir, öz elminin sayəsində, öz cəhdinin sayəsində gəlir. Bununla da öz fəqirliyini dərk etmir. Allaha dua etmir və möhtaclığı üzə çıxmır. Əks halda insan nəfsinin naqis olduğunu, pisliyə əmr etməsini bilsə, Allahı tanısa, onun ucalığını, sifətlərinin kamilliyini və s. anlasa artıq möhtaclığı, fəqirliyi üzə çıxacaq. Ona görə bu iki şeylə fəqirlik, zəlillik hasil olur. Qulluq cəhətdən ən kamil qul peyğəmbər ﷺ idi. Dualarında hər zaman Allaha möhtaclığını bildirirdi. Deyərdi ki: *Ey qəlbləri çevirən Allahım mənim qəlbimi  dinin üzərində sabit et*. Peyğəmbər ﷺ Allaha möhtac, fəqir idi. Həmçinin deyərdi: *Ey Allahım bütün işlərimi islah et.* Baxmayaraq ki, qulluq cəhətdən ən kamil və əzəmətlisi idi.

İnsan daim bu iki şeylə maraqlanmalıdır. Öz nəfsinin naqisliyinə baxmalı və Allahı tanımaq elmini öyrənməlidir.

# *Ər-Rauf  və əl-Qariyb*

**Lüğəti məna:**

Alimlər **Ər-Rauf** isminin lüğəti mənasına*"ər-ra'fətu əşəddu rahmə"* kimi izah verirlər. Yəni şiddətli rəhmət etmək deməkdir. İbnul Arabi buyurur ki, ər-Ra'fətu ər-rahmə, yəni ər-ra'fətu rəhmətdir. Əz-Zucəcə buyurur ki, ər-ra'fə ilə ər-rahmə eyni şeydir. Bəzən isə alimlər fərqləndirərək, deyiblər ki, ər-ra'fə *mənzilətus-səniyə* , yəni ikinci mənzildədir. Məsələn, fulənun rahim - filankəs rəhimlidir. Əgər filankəsin rəhməti çoxalsa, şiddətlənsə artıq o, rauf olur. Əbu Ubeyd buyurur ki, rauf rahmədəndir, lakin şiddətli rahmədir.

Allahın bu ismi Quranda on dəfə zikr olunub:

***{...وَمَا كَانَ اللّهُ لِيُضِيعَ إِيمَانَكُمْ إِنَّ اللّهَ بِالنَّاسِ لَرَؤُوفٌ رَّحِيمٌ}***

***"Allah sizin imanınızı puç etməz. Həqiqətən də, Allah insanlara qarşı Raufdur, Rəhimdir."(Bəqərə /143)***

***{... وَيُحَذِّرُكُمُ اللّهُ نَفْسَهُ وَاللّهُ رَؤُوفُ بِالْعِبَادِ}***

***" Allah sizi Özündən çəkindirir. Allah qullarına qarşıRaufdur" (Ali İmran /30)***

***{... إِنَّ رَبَّكُمْ لَرَؤُوفٌ رَّحِيمٌ}***

***" Sizin Rəbbiniz həqiqətən Raufdur, Rəhimdir "(Nəhl /7)***

***{... إِنَّ اللَّهَ بِالنَّاسِ لَرَؤُوفٌ رَّحِيمٌ}***

***" Həqiqətən Allah insanlara Rauf və Rəhimdir " (Həcc /65)***

**Allah haqqında bu ismin mənası:**

Əbu Ubeydə buyurur ki, rauf *ər-ra'fə*-dən alınıb. Ər-Ra'fə isə şiddətli rəhmət etmək deməkdir. İbn Cərir ***" Həqiqətən Allah insanlara Rauf və Rəhimdir " (Həcc /65)*** ayəsinin təfsirində buyurur ki, Allah bütün qullarına qarşı *ər-ra'fə* sahibidir. Ər-Ra'fə isə rəhmətin yüksək dərəcəsidir. Bu, dünyada bütün məxluqlaradır. Axirətdə isə bəzilərinədir. Bəzi alimlər deyiblər ki, ər-ra'fə rəhmətin geniş və daha şiddətli formasıdır. Həmçinin bəzi alimlər deyiblər ki, ər-ra'fə xüsusidir. Ər-Rahmə isə ümumidir. Rəhmət bəzən məsləhəyə görə əl-kərahə olan işlərdə də olur. Amma ər-ra'fə kərahə olan işlərdə olmur. Bu da onların arasında olan fərqdir.

# *Əl-Qariyb*

**Lüğəti məna:**

Əl-Qariyb *əl-qurb* sözündəndir və uzağın əksi, yəni yaxın mənasındadır. Allahın bu ismi Quranda üç dəfə zikr olunub.

***{ وَإِذَا سَأَلَكَ عِبَادِي عَنِّي فَإِنِّي قَرِيبٌ أُجِيبُ دَعْوَةَ الدَّاعِ ... }***

***"Qullarım səndən mənim barəmdə soruşsalar, mən (onlara) yaxınam, mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm. "(Bəqərə /186)***

***{... وَاسْتَعْمَرَكُمْ فِيهَا فَاسْتَغْفِرُوهُ ثُمَّ تُوبُواْ إِلَيْهِ إِنَّ رَبِّي قَرِيبٌ مُّجِيبٌ}***

***"Elə isə ondan bağışlanma diləyin, sonra da ona tövbə edin. Şübhəsiz ki, Rəbbim Qariybdir, (çağırışa) cavab verəndir" (Hud /61)***

***{ قُلْ إِن ضَلَلْتُ فَإِنَّمَا أَضِلُّ عَلَى نَفْسِي وَإِنِ اهْتَدَيْتُ فَبِمَا يُوحِي إِلَيَّ رَبِّي إِنَّهُ سَمِيعٌ قَرِيبٌ }***

***"De: "Əgər mən (haqq) yoldan çıxsam, öz əleyhimə çıxmış olaram. Yox, əgər doğru yolla gedirəmsə, bu da Rəbbimin mənə nazil etdiyi vəhyə görədir. Həqiqətən, o, Səmi'dir, Qaribdir"(Səba /50)***

**Allah haqqında bu ismin mənası:**

İbn Cərir ***"Qullarım səndən mənim barəmdə soruşsalar, mən (onlara) yaxınam, mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm. "(Bəqərə /186)*** ayəsinin təfsirində buyurur ki, yəni Allah təbərak və təalə Muhəmmədə ﷺ deyir ki, ey Muhəmməd qullarım səndən Məni soruşanda de ki, mən onlara yaxınam, dualarını eşidirəm və dualarını qəbul edirəm. Həmçinin ***"Elə isə ondan bağışlanma diləyin, sonra da ona tövbə edin. Şübhəsiz ki, Rəbbim Qariybdir, (çağırışa) cavab verəndir" (Hud /61)*** ayəsinin təfsirində buyurur ki, Allah ibadəti xalis onun üçün edənlərə yaxındır. Onların dualarına cavab verəndir. Əl-Xattabi buyurur ki, əl-Qariyb elmi ilə yaratdıqlarına yaxındır. Ona dua edənlərin dualarına cavab verməklə onlara yaxındır. Necə ki, Allah buyurur:

***وَإِذَا سَأَلَكَ عِبَادِي عَنِّي فَإِنِّي قَرِيبٌ أُجِيبُ دَعْوَةَ الدَّاعِ***

***"Qullarım səndən mənim barəmdə soruşsalar, mən (onlara) yaxınam, mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm. "(Bəqərə /186)***

İnsanın nə qədər qulluq mərtəbəsi kamilləşərsə bir o qədər də insan Allaha yaxın olar.

# *Əl-Varis*

**Lüğəti məna:**

***Əl-Varis*** isminin lüğəti mənası varis olmaq deməkdir. Əz-Zucəcə buyurur ki, hər getdikdən sonra qalan varisdir. Əl-Varis varəsinin ismu failidir.

Allahın bu ismi Quranda üç dəfə zikr olunub. Üçü də cəm formasında gəlib.

**{ وَإِنَّا لَنَحْنُ نُحْيِي وَنُمِيتُ وَنَحْنُ الْوَارِثُونَ }**

***"Şübhəsiz ki, biz həm dirildir, həm də öldürürük və (hər şeyə) varis olan da bizik. " (Hicr /23)***

**{ وَزَكَرِيَّا إِذْ نَادَى رَبَّهُ رَبِّ لَا تَذَرْنِي فَرْداً وَأَنتَ خَيْرُ الْوَارِثِينَ }**

***"Zəkəriyyanı da (yada sal!) Bir zaman o yalvarıb demişdi: "Ey Rəbbim! Məni tənha buraxma. Sən varislərin ən yaxşısısan!" (Ənbiyə /89)***

**{... وَكُنَّا نَحْنُ الْوَارِثِينَ }**

***"Onlara Biz varis olduq "(Qasas /58)***

Feil formasında isə bir dəfə işlənib:

**{ إِنَّا نَحْنُ نَرِثُ الْأَرْضَ وَمَنْ عَلَيْهَا وَإِلَيْنَا يُرْجَعُونَ }**

***"Şübhəsiz ki, yerə və onun üstündə qalanlara təkcə biz sahib çıxacağıq. Onların qayıdışı bizə olacaqdır."(Məryəm /40)***

**Allah haqqında bu ismin mənası:**

İbn Cərir ***"Şübhəsiz ki, biz həm dirildir, həm də öldürürük və (hər şeyə) varis olan da bizik. " (Hicr /23)*** ayəsinin təfsirində buyurur ki, əcəl gələndə biz hamını öldürürük və bizdən başqa diri qalmır. Bizdən başqa həyy qalmır. Əz-Zucəcə buyurur ki, Allah bütün xəlqin varisidir. Çünki yaradılmışlar fani olurlar, amma Allah təbərak və təalə qalandır. Xattabi buyurur ki, *əl-Varis* məxluqat fani olandan sonra qalandır. Əl-Huleymi buyurur

ki, *əl-Varis* başqaları gedəndən sonra qalandır. Allah ölməzdir, həyyundur. Allahdan başqa nə varsa hamısı fanidir. Bütün işlər ona qayıdır. Mülk sahibi olan odur. Necə ki, Uca Allah buyurur:

**{...لِّمَنِ الْمُلْكُ الْيَوْمَ لِلَّهِ الْوَاحِدِ الْقَهَّارِ}**

***"Bu gün hökm kimə məxsusdur? Tək olan, (hər şeyə) qalib gələn Allaha "(Ğafir /16 )***

**{ كُلُّ مَنْ عَلَيْهَا فَانٍ . وَيَبْقَى وَجْهُ رَبِّكَ ذُو الْجَلَالِ وَالْإِكْرَامِ}**

***" Hər nə varsa fanidir. Ancaq Rəbbinin əzəmətli və kəramətli Üzü əbədidir. "(Rahmən /26-27)***

Ona görə Allah təbərak və təalə öz qullarını həvəsləndirir ki, Allah yolunda xərcləsinlər. Allah bildirib ki, mal, mülk Allahındır. Sadəcə olaraq Allah o malı sənə verib.

**{ آمِنُوا بِاللَّهِ وَرَسُولِهِ وَأَنفِقُوا مِمَّا جَعَلَكُم مُّسْتَخْلَفِينَ فِيهِ فَالَّذِينَ آمَنُوا مِنكُمْ وَأَنفَقُوا لَهُمْ أَجْرٌ كَبِيرٌ }**

***"Allaha və Onun Elçisinə iman gətirin! Sizin ixtiyarınıza verdiyi maldan (xeyirxah işlərə )sərf edin! Sizdən iman gətirib xərcləyənləri böyük bir mükafat gözləyir. "(Hədid /7)***

Ayədən də göründüyü kimi mal, mülk Allaha məxsusdur. Sadəcə olaraq insanların ixtiyarına verilib.

Zəkəriyyə *əleyhissələm* Allaha dua etdi ki, ona övlad versin. Övlad versin ki, özündən sonra peyğəmbər olsun.

**{ وَزَكَرِيَّا إِذْ نَادَى رَبَّهُ رَبِّ لَا تَذَرْنِي فَرْداً وَأَنتَ خَيْرُ الْوَارِثِينَ }**

***"Zəkəriyyəbir zaman dua edib demişdi: "Ey Rəbbim! Məni tək buraxma. Sən varislərin ən yaxşısısan!" (Ənbiyə /89)***

Allah təbərak və təalə qullarından istədiyini yer üzünün varisləri edir.

Allah Musa peyğəmbər haqqında buyurur ki, Musa *əleyhissələm* öz qövmünə belə dedi: ***Allahdan kömək diləyin və səbr edin. Şübhəsiz ki, yer üzü Allahındır. Allah qullarından istədiyini onun varisləri təyin edir.(Əraf /128)***

# *Ən-Nasiyr*

**Lüğəti məna:**

Ən-Nasiyr - lüğətdə kömək etmək, kömək edən mənalarında işlənir.

Allahın bu ismi Quranda dörd dəfə zikr olunub.

**{... نِعْمَ الْمَوْلَى وَنِعْمَ النَّصِيرُ }**

***"O, nə gözəl Mövla, nə gözəl Nasiyrdir (yardımçıdır)!" (Ənfal /40)***

**{... وَكَفَى بِاللّهِ نَصِيراً}**

***"Nasiyr ( yardımçı) olaraq Allah yetər! "(Nisə /45)***

**{ ... فَنِعْمَ الْمَوْلَى وَنِعْمَ النَّصِيرُ }**

***"O nə gözəl Mövla, nə gözəl Yardımçıdır! "(Həcc /78)***

**Bu ismin Allah haqqında mənası:**

İbn Cərir (Allah ona rəhmət etsin) ***"Nasiyr ( yardımçı) olaraq Allah yetər! "(Nisə /45)*** ayəsinin təfsirində buyurur ki, Allah sizə düşmənlərə qalib gəlməyə bəs edər. Yəni sizinlə düşmənçilik edənlərə qarşı Allah sizə kömək edəndir. Başqa bir yerdə buyurur ki, ən-Nasiyr, yəni biz sənə kömək edəcəyik. Müşriklər səni qorxutmasın. Sən Allahın əmrinə səbr et və risalətimi onlara təbliğ et. Həmçinin əl-Huleymi (Allah ona rəhmət etsin) buyurur ki, ən-Nasiyr qələbəni asanlaşdırandır. Həmçinin deyiblər ki, ən-Nasiyr öz dostlarını heç vaxt köməksiz qoymur. Qurtubi (Allah ona rəhmət etsin) buyurur ki, ən-Nasiyr, yəni kömək edən. Məsələn, deyəndəki ***nasarahullahu alə əduvvuhi***, yəni Allah ona düşməninə qarşı kömək etdi. Əl-Əsbəhəniyyu (Allah ona rəhmət etsin) buyurur ki, ən-Nasiyr möminlərə düşmənlərinə qarşı kömək edəndir. Onlarla qarşılaşanda qədəmlərini sabit edən və düşmənlərinin qəlblərinə qorxu salandır. İbn Kəsir (Allah ona rəhmət etsin) buyurur ki, ən-Nasiyr düşmənlərə qarşı kömək edəndir. Qurtubi (Allah ona rəhmət etsin) buyurur ki, hər bir mükəlləf olunana etiqad etməsi vacibdir ki, mütləq şəkildə ən-Nasiyr Allahdır. Allah buyurur ki:

**{ إِن يَنصُرْكُمُ اللّهُ فَلاَ غَالِبَ لَكُمْ وَإِن يَخْذُلْكُمْ فَمَن ذَا الَّذِي يَنصُرُكُم مِّن بَعْدِهِ وَعَلَى اللّهِ فَلْيَتَوَكِّلِ الْمُؤْمِنُونَ }**

***"Əgər Allah sizə kömək edərsə, heç kəs sizə qalib gələ bilməz. Əgər o, sizi zəlil edərsə, ondan sonra kim sizə yardım edə bilər? Qoy möminlər Allaha təvəkkül etsinlər! "(Ali İmran /160)***

Həmçinin Allah bizə bildirib ki, əgər biz Allaha kömək etsək Allah da bizə kömək edəcək:

**{ يَا أَيُّهَا الَّذِينَ آمَنُوا إِن تَنصُرُوا اللَّهَ يَنصُرْكُمْ وَيُثَبِّتْ أَقْدَامَكُمْ }**

**“Ey iman gətirənlər! Əgər siz Allaha (onun dininə) kömək göstərsəniz, O da sizə kömək göstərər və ayaqlarınızı möhkəmlədər. ”**(Muhəmməd /7)

Sual oluna bilər ki, biz Allaha necə kömək edə bilərik ? Cavab budur ki, Allahın dinini yaşamaq, onun haqlarını qorumaq, hüdudlara riayət etməklə və s. Belə olsa Allah da bizə kömək edəcək. Əl-Əsbəhəniyyu (Allah ona rəhmət etsin) buyurur ki, yaxşılığa əmr edib pislikdən çəkindirməlidir. Etiqad etməlidir ki, Allah ona kömək edəcək. Allah öz qullarına qarşı nasirdir. Allah təbərak və təalə bizə çox sayda ayələrdə bildirib ki, ondan başqa kömək edən yoxdur.

***{... وَمَا لَكُم مِّن دُونِ اللّهِ مِن وَلِيٍّ وَلاَ نَصِيرٍ}***

***“Sizin Allahdan başqa nə bir himayəçiniz, nə də bir köməkçiniz vardır. ”(Bəqərə /107)***

***{أَمَّنْ هَذَا الَّذِي هُوَ جُندٌ لَّكُمْ يَنصُرُكُم مِّن دُونِ الرَّحْمَنِ ...}***

***“Ya da Mərhəmətli (Allahdan) başqa sizə kömək edə biləcək qoşununuzmu var? ”(Mülk /20)***

***{... وَمَا النَّصْرُ إِلاَّ مِنْ عِندِ اللّهِ الْعَزِيزِ الْحَكِيمِ}***

***“ Kömək ancaq Əziz və Həkim olan Allahdandır ”(Ali İmran /126)***

Allah subhənəhu və təalə ayələrində dəqiq olaraq qullarına bildirib ki, ondan başqa kömək edən yoxdur. Nuh *əleyhissələm* öz qövmünə buyurur: ***“Ey qövmüm əgər onları qovsam məni Allahdan kim qoruya bilər ? Məgər düşünüb ibrət almırsınız?”*** **(Hud /30**)

Həmçinin Saleh *əlehissələm* buyurur ki, ***“Əgər Allaha asi olsam, məni Ondan kim qoruya bilər? ”(Hud /63)***

Allah bizə öz kitabında öyrədib ki, ən-Nasiyr Allahdır. Allahdan başqa kömək edən yoxdur.

# *Əl-Muhiyt*

**Lüğəti məna:**

***Həata*** sözündəndir, qorumaq, mühafizə etmək, saxlamaq və s. mənalarda işlənir. Əz-Zucəcə (Allah ona rəhmət etsin) buyurur ki, əl-Muhiyt lüğəti mənada ismu faildir. Məsələn, ***filankəs bir şeyi əhatə etdi*** cümləsi o vaxt deyilir ki, gərək filankəs ona hərtərəfli sahib çıxsın və onu ondan heç kim götürə və apara bilməsin. Belə olduqda artıq deyilir ki, filankəs bir şeyi əhatə etdi.

Allahın bu ismi Quranda səkkiz dəfə zikr olunub.

***{... واللّهُ مُحِيطٌ بِالْكافِرِينَ}***

***“Şübhəsiz ki, Allah kafirləri (hər tərəfdən) əhatəyə almışdır.”(Bəqərə /19)***

***{... إِنَّ اللّهَ بِمَا يَعْمَلُونَ مُحِيطٌ}***

***“Həqiqətən, Allah onların nə etdiklərini əhatə edir. ”(Ali İmran /120)***

***{... وَكَانَ اللّهُ بِكُلِّ شَيْءٍ مُّحِيطاً}***

***“Allah hər şeyi əhatə edir. ”(Nisə /126)***

**Bu ismin Allah haqqında mənası:**

İbn Cərir (Allah ona rəhmət etsin) ***“Həqiqətən, Allah onların nə etdiklərini əhatə edir. ”(Ali İmran /120)*** ayəsinin təfsirində buyurur ki, Allah kafirlərin etdiyi fəsadları, onun yolundan azdırmalarını, din əhli ilə ədavət apardıqlarını və başqa bu kimi günahları bilir və hamısını əhatə edib. Onları hifz edib və onların etdiklərindən Allaha heçnə gizli qalmayıb. Allah təbərak və təalə onları bu etdiklərinə görə cəzalarını verəcəkdir. Həmçinin “Həqiqətən, O, hər şeyi əhatə edir!”(Fussilət /54) ayəsinin təfsirində buyurur ki, Allah yaratdıqlarının hamısını elmi ilə əhatə edib. Onun elmindən heçnə gizli qalmır. Əz-Zucəciyyu (Allah ona rəhmət etsin) buyurur ki, Allah bütün şeyləri əhatə edib. Çünki hər şey onun qüdrəti altındadır. Heç kim müstəqil heçnə istəyə bilməz. Hər şey Allahın iradəsilədir.

***{... وَأَنَّ اللَّهَ قَدْ أَحَاطَ بِكُلِّ شَيْءٍ عِلْماً }***

***“ Artıq Allah hər bir şeyi elmi ilə əhatə edib ” (Talaq /12)***

Allah hər bir şeyin həqiqətini bilir. Allahın elmindən heçnə çıxmır. Xattabi (Allah ona rəhmət etsin) buyurur ki, əl-Muhiyt, yəni qüdrəti və elmi ilə yaratdıqlarını əhatə edib. Huleymi (Allah ona rəhmət etsin) buyurur ki, əl-Muhiyt, yəni ondan heç kim qaça bilməz. Bu sifət yalnız Allaha aiddir. Bu isə Allahın kamil elminə və qüdrətinə qayıdır. Allah aciz və qafil deyildir. Şeyx Sə’di (Allah ona rəhmət etsin) buyurur ki, əl-Muhiyt, yəni elmi, qüdrəti, rəhməti və qahrı ilə hər şeyi əhatə edəndir.

Ümumiyyətlə Allahın bu adı bizə öyrədir ki, Allahdan heç kim qaça bilməz.

***{ يَا مَعْشَرَ الْجِنِّ وَالْإِنسِ إِنِ اسْتَطَعْتُمْ أَن تَنفُذُوا مِنْ أَقْطَارِ السَّمَاوَاتِ وَالْأَرْضِ فَانفُذُوا لَا تَنفُذُونَ إِلَّا بِسُلْطَانٍ }***

***“Ey cin və insan tayfası! Əgər göylərin və yerin hüdudlarını yarıb keçə bilərsinizsə, keçin! Siz ancaq qüdrət və qüvvətlə keçə bilərsiniz. ” (Rahmən /33)***

Allah Muhiyt-dir. Onun hökmündən çıxa bilməzsiniz. Haraya getsəniz belə, Allah sizi əhatə edib.

# *Ər-Rafiyq*

**Lüğəti məna:**

Ər-rifq sözündən alınıb və lüğətdə sərtliyin, şiddətliyin, kəskinliyin əksini bildirir. Yəni rəhmlilik, mərhəmət, mehribanlıq, xoşxasiyyət və s. bu kimi mənalarda işlənir.

Allahın bu ismi peyğəmbərin ﷺ hədisində keçir. Bu isim Quranda gəlməyib.

Əhli sunnə və cəmaat etiqadına görə o adla ki, Allah özünü və peyğəmbər ﷺ Allahı adlandırıbsa biz də Allahı o adlar ilə adlandırırıq. Peyğəmbər ﷺ buyurur: ***"Ey Aişə. Həqiqətən Allah Rafiyqdir və rifqi sevir."*** Hədis dəlalət edir ki, ər-Rafiyq Allahın isimlərindəndir.

**Allah haqqında bu ismin mənası:**

Qurtubi (Allah ona rəhmət etsin) buyurur ki, ər-Rafiyq, yəni çoxlu rəhm edən, asanlaşdıran, çətinləşdirməyən və s. bu kimi mənalardadır. Xeyrin səbəblərini asanlaşdırır.

***{ وَلَقَدْ يَسَّرْنَا الْقُرْآنَ لِلذِّكْرِ فَهَلْ مِن مُّدَّكِرٍ }***

***"Biz Quranı yada salmaq üçün asanlaşdırdıq. Amma heç bir yada salan varmı? "(Qəmər /17)***

Allah Rafiyqdir və rifq əhlini sevir. Allah rifq əhlinə verdiyi savabı başqasına vermir. İnsanın bu sifətə sahib olması gözəldir. Peyğəmbər ﷺ buyurur ki, ***"Rifq hansı bir işdə olarsa onu gözəlləşdirər. Hər hansı bir işdə rifq olmazsa o iş korlanar."***

Həmçinin imam Əhmədin Musnəd-ində gəlib ki, peyğəmbər ﷺ buyurur ki, ***əgər Allah bir ev əhlinə xeyir istədikdə o evə rifq daxil edər.***

Həmçinin peyğəmbər ﷺ buyurur ki, ***hər kim rifq sifətindən məhrum olarsa artıq xeyirdən məhrum olub.***

Sufyan əs Sovri (Allah ona rəhmət etsin) deyərdi ki, siz bilirsinizmi ki, rifq nədir? Rifq hər şeyi öz yerinə qoymaqdır. Şiddət vaxtı şiddətli olmaq, yumşaq vaxtı yumşaq olmaq. Bəzi alimlər deyiblər ki, rafiyq isminin mənası həlim isminin mənasındadır.

# *Əs-Subbuh*

**Lüğəti məna:**

Əs-Subbuh (ət-təsbih) ət-tənzih deməkdir. Yəni təmizləmək, saflaşdırmaq və s. bu kimi mənalardadır. Əl-Əzhəriyyu (Allah ona rəhmət etsin) buyurur ki*, **subhənallah*** kəlməsi Allahı sahibə və övladdan tənzih etməkdir. Allah özünə övlad götürməkdən münəzzəhdir. Həmçinin ***tənzihullah*** kəlməsi Allahı bütün ona yaraşmayan vəsflərdən uzaqlaşdırmaq mənasında işlənir.

Allahın əs-Subbuh ismi Quranda varid olmayıb. Lakin səhih hədislərdə bu isim gəlib. Muslimdə varid olub ki, peyğəmbər ﷺ rukuda və ya səcdədə belə dua edərdi:

***"Subbuhun, Quddusun, rabbul-mələikəti vər-ruh".***
Bu rəvayət dəlalət edir ki, əs-Subbuh Allahın isimlərindəndir.

**Allah haqqında bu ismin mənası:**

Əbu İshaq əz-Zucəcə (Allah ona rəhmət etsin) buyurur ki, əs-Subbuh hər bir pislikdən uzaq olandır. Əl-Huleymi (Allah ona rəhmət etsin) buyurur ki, əs-Subbuh bütün eyblərdən uzaq olandır. İmam Nəvəvi (Allah ona rəhmət etsin) və başqa alimlər buyururlar ki, Subbuh Allahdır. Naqisliklərdən və şərikdən uzaq olandır. İlaha layiq olmayan hər bir şeydən uzaqdır. Yerdə və göydə nə varsa hamısı Allahı təsbih edir.

***{ تُسَبِّحُ لَهُ السَّمَاوَاتُ السَّبْعُ وَالأَرْضُ وَمَن فِيهِنَّ وَإِن مِّن شَيْءٍ إِلاَّ يُسَبِّحُ بِحَمْدَهِ وَلَـكِن لاَّ تَفْقَهُونَ تَسْبِيحَهُمْ إِنَّهُ كَانَ حَلِيماً غَفُوراً}***

***"Yeddi göy, yer və onlarda olanlar ona təriflər deyir. Elə bir şey yoxdur ki, həmd iləona tərif deməsin, lakin siz onların tərifini anlamazsınız. Həqiqətən, o, Həlimdir, Ğafurdur. "(İsra /44)***

Həmçinin alimlər buyurur ki, elə bir canlı yoxdur ki, orda dəlil olmasın ki, Allah onu xəlq edəndir.

# *Əş-Şəfi*

**Lüğəti məna:**

**Əş-Şəfi** əş-şifə sözündən alınıb. Əş-Şifə isə xəstəlikdən uzaq, bədənə zərər ağrı verən şeyi qaldırmaq mənasında işlənir. Şəfa tapdı deyildikdə, yəni xəstəlikdən sağaldı başa düşülür.

Allahın bu ismi peyğəmbərin ﷺ hədisində qeyd olunub. Peyğəmbərin ﷺ yanına xəstə gətiriləndə peyğəmbər ﷺ deyərdi ki, *"**Şəfa ve! Həqiqətən sən əş-Şəfisən**."*

Bu isim Quranda feil kimi işlənib. İsim kimi işlənməyib. Allah subhənəhu və təalə İbrahimin *əleyhissələm* dilindən buyurur ki:

{ وَإِذَا مَرِضْتُ فَهُوَ يَشْفِينِ }

*" Xəstələndiyim zaman mənə şəfa verir " (Şüəra /80)*

**Allah haqqında bu ismin mənası:**

Huleymi (Allah ona rəhmət etsin) buyurur ki, duada *yə Şəfi* deməyin caizdir. Çünki Allah qəlblərdə olan şübhələrdən, şəkklərdən, həsəddən, bədən xəstəliklərindən sənə şəfa verəndir. Məsələn, ***yə Şəfi qəlbimə şəfa ver***. Çünki bədən xəstələndiyi kimi qəlb də xəstələnir. Allah bədənə şəfa verdiyi kimi qəlbə də şəfa verir. Bu isimlə Allahdan başqası çağırılmır.

Allahın bu ismi onun qüdrətinə dəlalət edir. Allah qəlblərdə və bədənlərdə olan bütün xəstəliklərə şəfa verməyə qadirdir. Peyğəmbər ﷺ buyurub: ***Allah elə bir xəstəlik göndərməyib ki, onun şəfasını göndərməsin.***

Allah təbərak və təalə şəfa üçün səbəblər qoyub. Ən böyüyü isə Allaha dua etməkdir. Həmçinin xəstəni ziyarət etməyin ədəblərindən biri odur ki, xəstəyə ***Allahdan istəyirəm ki, sənə şəfa versin*** deməsidir. Mömin bir insan bu ismi öyrənib dərk etməli və xəstələndikdə qəlbini ixlasla Allaha bağlamalıdır. Bu, o demək deyil ki, səbəblər tərk olunmalıdır. Sadəcə olaraq təvəkkül etməklə bərabər səbəbləri də tutmalısan.

Həmçinin alimlər deyirlər ki, Allahın bu adını bilmək sənə öyrədir ki, bəzən Allah bədənə şəfa verməyi gecikdirir ki, qəlbin, ruhun şəfa tapsın. Yəni bu xəstəlik ilə sən təmizlənirsən. Peyğəmbər ﷺ buyurur ki, ***mömininin başına gələn elə bir xəstəlik və ya elə bir ağrı yoxdur ki, onun günahı üçün kəffarə olmasın. Hətta bir tikan batsa belə.***

Mömin bir insan Allahın bu ismini bilib dərk edərsə, bilər ki, şəfanın gecikməsi onun ümidini kəsməz. Bu xəstəliyi səbrlə, Allahdan əcr umaraq qarşılamalıdır. Şikayət edərək deyil.

# *Ət-Tayyib*

**Lüğəti məna:**

***ət-Tayyib*** əl-xəbis sözünün əksidir. Ümumiyyətlə tayyib sözü geniş mənalarda işlənir. Məsələn, ***ərdun tayyibə,*** yəni gözəl yer, bitkiyə yararlı olan yer mənasında işlənir və ya ***imraatun tayyibə,*** gözəl, iffətli, namuslu qadın. Həmçinin hər hansısa bir kəlmədə pis və ya ikrah edici söz yoxdursa həmin kəlməyə ***kəlimətun tayyibə*** deyilir. Yəni, gözəl kəlmə.

Ət-Tayyib ət-tahir, yəni təmiz, pak mənasında işlənir. Rəvayətdə gəlib ki, Əli ibn Əbu Talib (Allah ondan razı olsun) peyğəmbəri ﷺ yuyanda demişdir: *"Sən diri olanda da təmiz (tahir) idin. Öləndə də təmizsən (tahirsən.)"*

Allahın bu ismi peyğəmbərin ﷺ hədisində varid olub. Hədisdə buyurur ki, ***ey insanlar Allah Tayyibdir və yalnız tayyibləri qəbul edir. Allah təalə elçilərə əmr etdiyini möminlərə də əmr edib.***

Uca Allah buyurur:

***{يَا أَيُّهَا الرُّسُلُ كُلُوا مِنَ الطَّيِّبَاتِ وَاعْمَلُوا صَالِحاً إِنِّي بِمَا تَعْمَلُونَ عَلِيمٌ}***

***"Ey elçilər! Halal nemətlərdən yeyin və yaxşı işlər görün! Mən, həqiqətən, sizin nə etdiklərinizi bilirəm! "(Muminun /51)***

***{ يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ كُلُواْ مِن طَيِّبَاتِ مَا رَزَقْنَاكُمْ وَاشْكُرُواْ لِلّهِ إِن كُنتُمْ إِيَّاهُ تَعْبُدُونَ }***

***"Ey iman gətirənlər! Sizə ruzi kimi verdiyimiz pak şeylərdən yeyin və əgər Allaha ibadət edirsinizsə, ona şükür edin! "(Bəqərə /172)***

**Allah haqqında bu ismin mənası:**

Əl-Qadi İyəd (Allah ona rəhmət etsin) buyurur ki, ət-Tayyibu Allahın sifətlərindəndir və mənası isə naqisliklərdən uzaq olan deməkdir. Əl-Quddus mənasındadır. Ət-Tayyibin əsli təmizlik, pisliklərdən salamat olmaq mənasındadır.

Allahın sifətləri isə hamısı kamildir. Sifətlərində naqislik, eyb yoxdur. Onun sözlərinin, feillərinin hamısı kamilliyindən çıxır. Kamilliyinə və əzəmətinə zidd heçnə demir və etmir. İbn Qeyyim (Allah ona rəhmət etsin) buyurur ki, Allahın isimlərindən biri də ət-Tayyibdir. Ona görə də Allahdan ancaq tayyib çıxır. Ona ancaq tayyib qalxır. Ona ancaq tayyib olanlar yaxın olur. Onun kəlamı tayyibdir. Ona yalnız tayyib olan kəlamlar qalxır.

***{... إِلَيْهِ يَصْعَدُ الْكَلِمُ الطَّيِّبُ ...}***

***"Ona yalnız tayyib (gözəl) olan kəlamlar qalxır "(Fatir /10)***

Onun feli tayyibdir və tayyib olan əməllər də ona qalxır. Bizim dinimiz tayyibdir. Əhkamları və s. tayyibdir. Möminlərin bu dünyada hər şeyləri tayyibdir. Dili, əməli, cəsədi və s. tayyibdir. Mömin bu dünyada tayyib olduğu üçün Allah onlara tayyiblər evini, yəni cənnəti ikram edir. Cənnət tayyibdir və yalnız tayyiblər ora daxil olur.

***{ الَّذِينَ تَتَوَفَّاهُمُ الْمَلآئِكَةُ طَيِّبِينَ يَقُولُونَ سَلامٌ عَلَيْكُمُ ادْخُلُواْ الْجَنَّةَ بِمَا كُنتُمْ تَعْمَلُونَ }***

*“O kəslər ki, tayyib (tər-təmiz) olduqları halda, mələklər onların canını alıb deyirlər: “Sizə salam olsun! Əməllərinizə görə Cənnətə girin!” (Nəhl /32)*

Kafirlərdə isə belə deyil. Dili, əqidəsi, əxlaqı, yedikləri və s. xəbisdir. Cəhənnəm xəbislərin məkanıdır.

**{لِيَمِيزَ اللّهُ الْخَبِيثَ مِنَ الطَّيِّبِ وَيَجْعَلَ الْخَبِيثَ بَعْضَهُ عَلَىَ بَعْضٍ فَيَرْكُمَهُ جَمِيعاً فَيَجْعَلَهُ فِي جَهَنَّمَ أُوْلَـئِكَ هُمُ الْخَاسِرُونَ}**

*“Allah murdarı pakdan ayırsın, murdarları bir-birinin üstünə qoyub bir yerə yığsın və onları Cəhənnəmdə yerləşdirsin. Ziyana uğrayanlar da məhz onlardır.”(Ənfal /37)*

# *Əl-Hədi*

**Lüğəti məna:**

Əl-Hədi ismi əl-hudə sözündən alınıb və lüğəti mənada düzgünlük, doğruluq və s. bu kimi mənalarda işlənir. Allah təbərak və təalə buyurur:

***أَوَلَمْ يَهْدِ لَهُمْ***

*“Onları doğru yola gətirmədimi?” (Səcdə /26)*

Həmçinin Allah buyurur:

***{... فَإِنَّ اللَّهَ لَا يَهْدِي مَنْ يُضِلُّ...}***

*“Allah azdırdığı kimsələri doğru yola yönəltməz ”(Nəhl /37)*

Allahın bu ismi Qurana iki ayədə zikr olunub.

***{...وَإِنَّ اللَّهَ لَهَادِ الَّذِينَ آمَنُوا إِلَى صِرَاطٍ مُّسْتَقِيمٍ}***

*“Şübhəsiz, Allah iman gətirənləri doğru yola yönəldər.”(Həcc /54)*

***{... وَكَفَى بِرَبِّكَ هَادِياً وَنَصِيراً}***

*“ Yardımçı kimi Rəbbin sənə yetər ” (Furqan /31)*

**Allah haqqında bu ismin mənası:**

İbn Cərir (Allah ona rəhmət etsin) ***“Şübhəsiz, Allah iman gətirənləri doğru yola yönəldər.”(Həcc /54)*** ayəsinin təfsirində buyurur ki, Allah təbərak və təalə Allaha və rəsuluna iman gətirənləri haqq yola yönəldir.Həmçinin ***“ Yardımçı kimi Rəbbin sənə yetər ” (Furqan /31)*** ayəsinin təfsirində buyurur ki, Allah öz peyğəmbərinə deyir ki, ey Muhəmməd, Allah sənin düz yola gəlməyinə bəs edər. Əz-Zucəcə (Allah ona rəhmət

etsin) buyurur ki, əl-Hədi, yəni qullarına özünü tanıtdırmağa düz yol göstərib. Qullarını *siratəl mustəqim*-ə hidayət edib. Necə ki, Allah buyurur:

**{... يَهْدِي مَن يَشَاءُ إِلَى صِرَاطٍ مُّسْتَقِيمٍ}**

***" Allah istədiyini doğru yola yönəldir. "(Nur /46)***

Xattabi (Allah ona rəhmət etsin) buyurur ki, əl-Hədi, yəni qullarından istədiyini Öz yoluna hidayət edib və onlara övhid nurunu ikram edib. Allah təbərak və təalə digər məxluqlara öz məsləhələrinə hidayət edib. Onlara ilham edib ki, ruziləri hardadır.

Uca Allah buyurur:

**{ قَالَ رَبُّنَا الَّذِي أَعْطَىٰ كُلَّ شَيْءٍ خَلْقَهُ ثُمَّ هَدَىٰ }**

***"Rəbbimiz hər şeyə öz xilqətini verən, sonra da (ona) doğru yolu göstərəndir!" (Taha /50)***

Əl-Huleymi (Allah ona rəhmət etsin) buyurur ki, əl-Hədi, nicat yolunu göstərən və o yolu bəyan edəndir. Beyhəqi (Allah ona rəhmət etsin) buyurur ki, öz hidayəti ilə öz övliyalarına hidayət verəndir. Şeyx Sə'di (Allah ona rəhmət etsin) buyurur ki, əl-Hədi, yəni qullarını bütün mənfəətlər, xeyirlər hardadırsa onları öz qullarına göstərəndir. Onlara bilmədiklərinin öyrədəndir.

Allahın bu isminə iman gətirən müsəlman bilər ki, azdıran da, hidayət verən də Allahdır. Allahın azdırdığı kimsəni heç kim doğru yola gətirə bilməz. Həmçinin Allahın hidayət etdiyi kəsi heç kim azdıra bilməz. Allah kimə hidayət edibsə bu, Allah tərəfindən fəzilət və lütfdür. Kimi azdırıbsa bu adilliklə olub. Hamı Allahın istəyi ilə, fəziləti və adilliyi ilə dövr edir.

Uca Allah buyurur:

**{ إِنَّكَ لَا تَهْدِي مَنْ أَحْبَبْتَ وَلَكِنَّ اللَّهَ يَهْدِي مَن يَشَاءُ...}**

***"Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən. Amma Allah istədiyini doğru yola yönəldir."(Qasəs /56)***

**{ وَلَوْ شِئْنَا لَآتَيْنَا كُلَّ نَفْسٍ هُدَاهَا...}**

***"Əgər Biz istəsəydik, hər kəsi doğru yola yönəldərdik."(Səcdə /13)***

Allah hidayət verməzsə heç kim hidayət oluna bilməz. Cənnət əhli deyəcək ki:

**{...وَقَالُوا الْحَمْدُ لِلَّهِ الَّذِي هَدَانَا لِهَٰذَا وَمَا كُنَّا لِنَهْتَدِيَ لَوْلَا أَنْ هَدَانَا اللَّهُ ...}**

***"Onlar deyəcəklər: "Bizi buna qovuşduran Allaha həmd olsun! Əgər Allah bizə hidayət etməsəydi, biz özümüz doğru yola yönələ bilməzdik."(Əraf /43)***

Həmçinin başqa ayədə buyurur ki:

**{ وَلَوْلَا نِعْمَةُ رَبِّي لَكُنتُ مِنَ الْمُحْضَرِينَ }**

***"Əgər Rəbbimin lütfü olmasaydı, mən də (Cəhənnəmə) girənlərdən olardım."(Saffət / 57)***

Allah kimi azdırıbsa adiliyi ilə azdırıb:

**{ وَمَا رَبُّكَ بِظَلَّامٍ لِّلْعَبِيدِ ...}**

***"Sənin Rəbbin qullara zülm edən deyildir." (Fussilət /46)***

**{ وَمَا ظَلَمْنَاهُمْ وَلَكِن كَانُوا هُمُ الظَّالِمِينَ }**

***"Biz onlara zülm etmədik, lakin onlar özləri zalım idilər." (Zuxruf /76)***

Bu dünyada verilən ən böyük nemət Allahın ona hidayət verməsidir. Allah kimə hidayət veribsə daim Allahdan istəməlidir ki, onu bu hidayət üzərində sabit etsin. Peyğəmbər hidayət baxımından ən kamili idi. Buna baxmayaraq Allahdan istəyirdi ki, onu sabit etsin.

Musa *əleyhissələm* deyərdi:

**{... عَسَى رَبِّي أَن يَهْدِيَنِي سَوَاء السَّبِيلِ}**

***"Ola bilsin ki, Rəbbim mənə doğru yolu göstərsin "(Qasəs /22)***

Həmçinin Yusuf *əleyhissələm* deyərdi:

**{... تَوَفَّنِي مُسْلِماً وَأَلْحِقْنِي بِالصَّالِحِينَ}**

***"Mənim canımı müsəlman kimi al və məni əməlisalehlərə qovuşdur " (Yusuf /101)***

Həmçinin peyğəmbər ﷺ deyərdi: ***"Allahım səndən hidayət istəyirəm."***

Peyğəmbər ﷺ ümmətinə əmr edib ki, hər namazda hər rukətdə belə dua etsinlər:

**{ اهدِنَــــا الصِّرَاطَ المُستَقِيمَ . صِرَاطَ الَّذِينَ أَنعَمتَ عَلَيهِمْ غَيرِ المَغضُوبِ عَلَيهِمْ وَلاَ الضَّالِّينَ}**

***Bizi doğru yola yönəlt! Nemət verdiyin kəslərin yoluna, qəzəbə düçar olanların və azmışların yoluna deyil! (Fatihə /6-7)***

# *Əş-Şəhiyd*

**Lüğəti məna:**

**Əş-Şəhiyd** əl-hadir mənasındadır, yəni hazır olmaq, görülən və s. Məsələn*, əl-yaumul-məşhud yaumul-qiyamə* -dir. Yəni məşhud olan gün Qiyamət günüdür. Çünki Qiyamətin olması mütləq və qaçılmazdır. Əz-Zucəcə (Allah ona rəhmıt etsin) buyurur ki, əş-şəhiyd, əş-şəəhid mənasındadır. Necə ki, əlim, əl-əəlim və ya ər-rahim, ər-raahim mənasındadır.

Əz-Zucəcə (Allah ona rəhmıt etsin) buyurur ki, əş-şəhiyd, əş-şəəhid mənasındadır. Əş-Şəəhid isə qeybin əksidir. Həmçinin buyurur ki, əş-şəhiyd lüğəti mənada hazır olanı, görünəni görməkdir, yəni şahidlik etməkdir.

***{ فَكَيْفَ إِذَا جِئْنَا مِن كُلِّ أُمَّةٍ بِشَهِيدٍ وَجِئْنَا بِكَ عَلَى هَـؤُلاء شَهِيداً }***

*"Biz hər ümmətdən bir şahid gətirəcəyimiz və səni də onlara şahid gətirəcəyimiz zaman (onların halı) necə olacaq? "(Nisə /41)*

İbn Siydəh (Allah ona rəhmıt etsin) buyurur ki, əş-Şəhiyd, əəlim mənasındadır, yəni bilən. Hansı ki, bildiyini izah edir.

Allahın bu ismi Quranda on səkkiz dəfə zikr olunub.

***{ وَكُنتُ عَلَيْهِمْ شَهِيداً مَّا دُمْتُ فِيهِمْ فَلَمَّا تَوَفَّيْتَنِي كُنتَ أَنتَ الرَّقِيبَ عَلَيْهِمْ وَأَنتَ عَلَى كُلِّ شَيْءٍ شَهِيدٌ ...}***

*"Nə qədər ki, onların arasında idim, mən onlara şahid idim. Sən məni (onların arasından) götürdükdən sonra isə onlara nəzarət edən özün oldun. sən hər şeyə Şahidsən. "(Məidə /117)*

***{ قُلْ أَيُّ شَيْءٍ أَكْبَرُ شَهَادةً قُلِ اللّهِ شَهِيدٌ بِيْنِي وَبَيْنَكُمْ... }***

*"De: "Kimin şahidliyi daha böyükdür?" De: "Allah mənimlə sizin aranızda Şahiddir."(Ənam /19)*

***{... إِنَّ اللَّهَ عَلَى كُلِّ شَيْءٍ شَهِيدٌ}***

*"Həqiqətən Allah hər şeyə şahiddir! "(Həcc /17)*

***{ قُلْ مَا سَأَلْتُكُم مِّنْ أَجْرٍ فَهُوَ لَكُمْ إِنْ أَجْرِيَ إِلَّا عَلَى اللَّهِ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ شَهِيدٌ }***

*"De: "Mən sizdən bir haqq istəmişəmsə, onu sizin üçün istəmişəm. Mənim haqqım ancaq Allahdan olacaqdır. O, hər şeyə Şahiddir." (Səba /47)*

***{ قُلْ كَفَى بِاللّهِ شَهِيداً بَيْنِي وَبَيْنَكُمْ إِنَّهُ كَانَ بِعِبَادِهِ خَبِيراً بَصِيراً}***

*"De: "Mənimlə sizin aranızda Allahın şahid olması yetər. Həqiqətən, o, qullarından Xabirdir, Basirdir."(İsra /96)*

**Bu ismin Allah haqqında mənası:**

İbn Cərir (Allah ona rəhmət etsin) ***"Nə qədər ki, onların arasında idim, mən onlara şahid idim. Sən məni (onların arasından) götürdükdən sonra isə onlara nəzarət edən özün oldun. sən hər şeyə Şahidsən. "(Maidə /117)*** ayəsinin təfsirində buyurur ki, sən hər şeyə şahidsən, çünki səndən heçnə gizli qalmır. Həmçinin İbn Cərir (Allah ona rəhmət etsin) ***"O gün Allah onların hamısını dirildəcək və etdikləri əməlləri onlara xəbər verəcəkdir. Allah onları hesaba almış, onlar isə (etdiklərini) unutmuşlar. Allah hər şeyə şahiddir."(Mucədələ /6)*** ayəsinin təfsirində buyurur ki, Allah sizə dediyim sözlərin həqiqətinə şahiddir. Allahdan heç bir şey gizli qalmadığına görə Allah onlara şahiddir. Xattabi (Allah ona rəhmət etsin) buyurur ki, əş-Şəhiyd, yəni ondan gizli heçnə qalmır. Həmçinin buyurur ki, əş-şəhiyd, əş-şəəhid mənasındadır Necə ki, əlim, əəlim mənasındadır. Necə ki, Uca Allah buyurur:

***{... فَمَن شَهِدَ مِنكُمُ الشَّهْرَ فَلْيَصُمْهُ ...}***

***" Sizlərdən kim bu aya şahid olsa oruc tutmalıdırlar "(Bəqərə /185)***

Həmçinin buyurur ki, əlim, əəlim mənasındadır:

***{ شَهِدَ اللّهُ أَنَّهُ لاَ إِلَـهَ إِلاَّ هُوَ...}***

***"Allah özündən başqa heç bir ilah olmadığına şahidlik etdi "(Ali İmran /18)***

Bu ayənin təfsirində deyilib ki, burda şəhadətin mənası ***əlimə***-dir. Yəni Allah özündən başqa heç bir ilah olmadığını bəyan etdi.

Həmçinin Allah təalə zülm olunanlara şahiddir. Hansı ki, onların nə şahidi, nə də kiköməkçiləri var. Alimlər deyib ki, ***əş-şəhiyd***-in mənası ***əlim***-in mənasına qayıdır. Lakin xüsusi izafətlə Allah qeybdə və şəhadətdə olanı bilir. ***Qeyb*** gizli olan şeylərə deyilir. ***Şəhəədə*** isə zahir olan şeylərə. Əgər elm mütləq etibar olunsa Allah ***Əlimdir.*** Əgər elm qeybə izafət olunsa və ya batini işlərə izafət olunsa deməli Allah təalə ***Xabir-dir***. Zahiri işlərə izafət olunarsa Allah təalə ***Şəhiyd*-dir.** Bu bəzi alimlərin izahıdır. Deməli Allahın əş-Şəhiyd ismi əl-Əlim və əl-Xabir isminə yaxın kəlamdadır. İbn Kəsir (Allah ona rəhmət etsin) buyurur ki, Allah onların fellərinə şahiddir. Sözlərini hifz edəndir və onların gizlin saxladıqları şeyləri biləndir. Şeyx Sə'di (Allah ona rəhmət etsin) buyurur ki, əş-Şəhiyd, yəni bütün şeylərə nəzarət edəndir, görəndir, bütün səsləri eşidəndir və bütün məxluqları dəqiqliklə görür. Onun elmi hər şeyi əhatə edib.

Əsbəhəniyyu (Allah ona rəhmət etsin) buyurur ki, hər bir əməl edən kəs əməli etmədən dayansın. Bir az fikirləşsin ki, Allah təbərak və təalə onun etdiyi bu əmələ şahiddir və ona görə hesab edəcəkdir.

***{ وَمَا تَكُونُ فِي شَأْنٍ وَمَا تَتْلُو مِنْهُ مِن قُرْآنٍ وَلاَ تَعْمَلُونَ مِنْ عَمَلٍ إِلاَّ كُنَّا عَلَيْكُمْ شُهُوداً إِذْ تُفِيضُونَ فِيهِ وَمَا يَعْزُبُ عَن رَّبِّكَ مِن مِّثْقَالِ ذَرَّةٍ فِي الأَرْضِ وَلاَ فِي السَّمَاء وَلاَ أَصْغَرَ مِن ذَلِكَ وَلا أَكْبَرَ إِلاَّ فِي كِتَابٍ مُّبِينٍ}***

***"Sən hansı bir işdə olsan, Qurandan nə oxusan, siz nə iş görsəniz, başınız ona qarışarkən Biz sizə şahid olarıq. Nə yerdə, nə də göydə zərrə qədər bir şey Rəbbindən gizli qalmaz. Bundan daha kiçiyi və daha böyüyü yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın. "(Yunus /61)***

# *Əl-Cəmiyl  və əl-Vitr*

**Lüğəti məna:**

Əl-Cəmiyl ismi əl-cəməl sözündən alınıb. Əl-Cəməl lüğətdə əl-husn mənasındadır, yəni gözəl, qəşəng, göyçək və s. bu kimi mənalar verir.

***{  وَلَكُمْ فِيهَا جَمَالٌ...}***

***" Sizin üçün orda cəməl (gözəllik) vardır. "(Nəhl /6)***

İbn Siydəh (Allah ona rəhmət etsin) buyurur ki, əl-cəməl əl-husn mənasındadır.

Allahın bu ismi peyğəmbərin ﷺ hədisində varid olub. Abdulla ibn Məsudun rəvayətində qeyd olunur ki, peyğəmbər ﷺ belə demişdir: ***"Allah cəmildi  və cəmalı (cəmil olanları) sevir."***

**Allah haqqında bu ismin mənası:**

Xəttabi (Allah ona rəhmət etsin) buyurur ki, əl-Cəmil, yəni əl-mucmi və əl-muhsin (gözəl). İbnul Əsir (Allah ona rəhmət etsin) buyurur ki, Allah təbərak və təalə cəmildir. Gözəl feilləri və kamil vəsfləri var. İbn Qeyyim (Allah ona rəhmət etsin) "Nuniyyə" şerində buyurur ki, ***"O, həqiqi mənada cəmildir. Necə cəmil olmasın ki, bütün məxluqlarda olan gözəllik onun gözəlliyinin bəzi əsəridir. Məxluqlarda olan gözəlliyin rəbbi ağıl sahiblərinə görə daha gözəl və daha layiqdir ki, gözəl olsun. Onun camali zatında, vəsflərində, feillərində və adlarındadır. Onun zatına və sifətlərinə heç bir şey oxşamır. Allah ona atılan böhtanlardan münəzzəhdir."***

Əl-Hərras (Allah ona rəhmət etsin) ibn Qeyyimin bu qeyd etdiyimiz Nuniyyə şerini şərh edərkən belə deyir:  O ki, qaldı *əl-Cəmil*-ə Cəmil Allahın isimlərindəndir. Mənası isə çoxlu gözəllik deməkdir. Allahın bu vəsflə sabit olması mütləq şəkildə cəmallıqdır. Kainatda olan cəmallar hamısı Allahın cəmalının əsəridir. Bu da o deməkdir ki,

məxluqların içərisində nə qədər gözəl görsən deməli o gözəlliyi ona verən daha gözəldir. Allah zatı, adları, felləri, sifətləri ilə Cəmildir. O ki, qaldı zatı ilə gözəlliyinə məxluqa mümkün olmayan bir şeydir ki, ondan nəyisə ifadə etsin və ya necəliyinə çata bilsin. Bu məsələni başa düşmək üçün sənə bunu bilmək kifayət edər: cənnət əhli o qədər nemətlərə baxmayaraq rəbblərini gördükləri zaman, onun cəmalına baxdıqları zaman hər bir şeyi unudacaqlar. Bütün gördükləri ləzzət yox olacaq. Onlar istəyəcəklər ki, bu haldan qurtarmasınlar.

Adlarının cəmil olmasına gəldikdə isə Allahın bütün adları husnədir və mütləq şəkildə cəmildir. Allahın hər bir adı kamil ***həmd***ə, kamil ***məcid***ə, kamil ***cəmal***a və kamil ***cəlal***a dəlalət edir.

Sifətlərinin cəmal olmasına gəldiksə isə Allahın bütün sifətləri və feilləri kamildir.

Əl-Vitr isminin lüğəti mənası:

***Əl-Vitr*** ismi lüğəti mənada tək deməkdir. Əl-Lihyəniyyu (Allah ona rəhmət etsin) buyurur ki, Hicaz əhli təki vitr adlandırırdılar. Deyəndə ki, bir kişi vitr namazını qıldı, yəni tək rukətli namaz qıldı anlamındadır.

Allahın bu ismi peyğəmbərin ﷺ hədisində sabit olub. Buxari və Muslimin rəvayətində gəlib ki, peyğəmbər ﷺ buyurur ki, ***"Allahın yüzdən bir dənə az ismi vardır. Hər kim onu əzbərləryərsə cənnətə daxil olar. O, vitrdir və vitri də sevir."*** Bu hədis dəlalət edir ki, əl-Vitr Allahın isimlərindir.

**Allah haqqında bu ismin mənası:**

İbn Quteybə (Allah ona rəhmət etsin) buyurur ki, Allah Vitrdir, yəni ***"huva vahidun"*** - O, təkdir. Xattabi (Allah ona rəhmət etsin) buyurur ki, əl-Vitr tək deməkdir, hansı ki, onun şəriki və oxşarı tayı bənzəri yoxdur. Huleymi (Allah ona rəhmət etsin) buyurur ki, əl-Vitr tək deməkdir. Beyhəqi (Allah ona rəhmət etsin) buyurur ki, əl-Vitr, yəni Allah təkdir onun şəriki yoxdur və onun bənzəri yoxdur. Hafiz ibn Həcər (Allah ona rəhmət etsin) buyurur ki, əl-Vitr tək deməkdir. Allah haqqında mənası odur ki, o, təkdir və onun zatında oxşarı yoxdur. Quran və Sünnə dəlalət edir ki, Allah təkdir. Necə ki, Allah buyurur: ***De: O Allah təkdir (İxlas /1)***

***{... فَلاَ تَجْعَلُواْ لِلّهِ أَندَاداً وَأَنتُمْ تَعْلَمُونَ }***

***" Siz bunu bildiyiniz halda heç kəsi Allaha tay tutmayın " (Bəqərə /22)***

Və başqa ayədə buyurur ki:

*{... هَلْ تَعْلَمُ لَهُ سَمِيّاً}*

*"Heç ona oxşarını tanıyırsanmı? "(Məryəm /65)*

# *Əl-Muqəddim  və əl-Muaxxir*

**Lüğəti məna:**

*Qadəmə* sözü fəthə ilə işləndikdə qabaq getmək, qabaqcıl olmaq, əvvəl gəlmək və s. bu kimi mənalardadır.

*{ يَقْدُمُ قَوْمَهُ يَوْمَ الْقِيَامَةِ فَأَوْرَدَهُمُ النَّارَ وَبِئْسَ الْوِرْدُ الْمَوْرُودُ }*

*"(Firon) Qiyamət günü öz camaatının qabağına düşüb onları oda aparacaq. Girəcəkləri yer nə pis yerdir! "(Hud /98)*

Lakin bu isim dammə ilə olanda, yəni *Qadumə* olduğu zaman isə mənası qədim, köhnə anlamında işlənir. *Aqdəmə* şücaət mənasında işlənir. Həmçinin *qaddəmə bəynə yədeyhi* dedikdə *onu qabaqladı* kimi mənada işlənir.

*{يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تُقَدِّمُوا بَيْنَ يَدَيِ اللَّهِ وَرَسُولِهِ...}*

*"Ey iman gətirənlər! (Heç bir şeydə) Allahı və onun elçisini qabaqlamayın"(Əhzab /1)*

Lakin bu söz *əl-qadəmu* olarsa artıq qədəm mənasında olacaq.

Bəzən bir işdə öndə olmaq mənasında da işlənir.

*{... قَدَمَ صِدْقٍ عِندَ رَبِّهِمْ ...}*

*"Rəbbinin dərgahında onların etdikləri yaxşılıqların mükafatı vardır "(Yunus /2)*

*Əl-Muaxxir*  isminin lüğəti mənası:

*Əl-əxir* əvvəldən sonra gələndir. *Cəə əxiran* deyildikdə *axırıncı gəldi* kimi başa düşülür. Ona görə *ət-təəxxur, ət-təqaddum*-un əksidir. Təxir də təqdimin əksidir.

*{لِيَغْفِرَ لَكَ اللَّهُ مَا تَقَدَّمَ مِن ذَنبِكَ وَمَا تَأَخَّرَ ...}*

*"Allah (bununla) sənin əvvəlki və sonrakı günahlarını bağışlayacaq "(Fəth /2)*

Allahın bu iki ismi peyğəmbərin ﷺ hədisində varid olub. Bu iki isim hədis ilə sabit olub. Peyğəmbər ﷺ belə dua edərdi: *"SənMuqəddim və Muaxxirsən."* Həmçinin namazda təşəhhüdlə salamın arasında belə deyərdi: *"Sən Muqəddim və Muaxxirsən. Səndən başqa ilah yoxdur."*

**Allah haqqında bu isimlərin mənası:**

Xattabi (Allah ona rəhmət etsin) buyurur ki, əl-Muqəddim, yəni əşyaları mənzillərinə endirəndir. Onlardan istədiyini qabağa çəkir, istədiyini isə gecikdirir. Allah qədəri məxluqatı yaratmamışdan qabaq qabağa çəkmişdir. Allah məxluqatı yaratamamışdan qabaq hər şeyi artıq təqdir etmişdir. Sonra buyurur ki, övliyalarından sevdiklərini digər qullarından qabağa çəkmişdir. Həmçinin Allah yaratdıqlarından bəzisinin dərəcəsini bəzisindən üstün etmişdir. Allah qullarından bəzisinin qabağa çəkib, üstün edib. Həmçinin məxluqlardan istədiyinə müvəffəqiyyət verməklə onları sabiqlərin məqamına çatdırmışdır. Bəzilərinin isə mərtəbələrini geriyə çəkmişdir. Bu iki ismi cəm etmək, bir yerdə demək, onları ayırmaqdan daha yaxşıdır.

Həlimiyyu (Allah ona rəhmət etsin) buyurur ki, əl-Muqəddim yüksək rütbə verəndir. Əl-Muaxxir isə yüksək məqamı dəff edəndir. Yəni gecikdirib təxirə salır.

Beyhəqi (Allah ona rəhmət etsin) buyurur ki, əl-Muqəddim və əl-Muaxxirin mənası odur ki, əşyaları mənzillərinə endirəndir. Nəyi, kimi istəyir qabağa çəkir və təxir edir.

İbnul Əsir (Allah ona rəhmət etsin) buyurur ki, Allahın isimlərindən biri də əl-Muqəddimdir. Mənası isə əşyaları qabağa çəkir və onları öz yerinə qoyur. Hər kim təqdimə layiqdirsə onu qabağa çəkir. Əl-Muaxxir isə əşyaları təxir edir və onları öz yerinə qoyur. Bu isə muqaddimin əksidir.

İmam Nəvəvi (Allah ona rəhmət etsin) əl-Muqaddim və əl-Muaxxir isimləri haqqında buyurur ki, yaratdıqlarından istədiyini müvəffəqiyyəti ilə rəhmətinə qovuşdurur. İstədiyini qabağa çəkir, istədiyini isə bundan uzaqlaşdırır.

Bəzi alimlər deyiblər ki, Allahın təqdimi kövni və şəri-dir. Ət-təqdim kövni və şəri təqdiminə şamil edilir. Yəni Allah kövnən bəzi məxluqları bəzilərinə təqdim edib. Allah peyğəmbərlərdən bəzisini bəzisindən üstün edib. Bu, şəri təqdimdir. Bunlar hamısı Allahın hikməti ilə olur. Allah məxluqatından bəzisini təqdim edib. Bəzisini isə təxir edib.

İblis yaradılış tərəfdən Adəmi qabaqlayıb. Amma Adəmin ondan sonra xəlq olmasına baxmayaraq məqam baxımından ondan qabaqdadır. İblis isə məqam baxımından ən sonuncusudur.

Peyğəmbərimiz ﷺ yaradılış baxımından təxirə salınıb. Yəni sonuncu peyğəmbərdir. Lakin zirvəsi əl-muqaddəm olub.

Bu iki ismin mənası budur ki, Allah təbərak və təalə nəyinsə təqdim olması vacibdirsə istər felən, istər hökmlə nəyi istəyir və necə istəyirsə oun təqdim edir. Bununla da bilinir ki, Allah nəyi təqdim edibsə o, muqəddəmdir. Nəyi təxir edibsə o, muaxxərdir.

Hətda bunun hikməti bizə gizli qalsa belə.Lakin dəqiq bilirik ki, Allah hikmət sahibidir, felləri kamildir və hikmətlə olur.

Biz bu iki ismin Allahın isimləri olduğunu bilәndən sonra bununla necə müamilə etməliyik ? Əgər Allah bizim üçün valideynlərin haqqını digərlərindən üstün edibsə, yəni təqdim edibsə biz mütləq bu haqqı qabağa çəkməliyik.

***{...أَنِ اشْكُرْ لِي وَلِوَالِدَيْكَ ...}***

***"Mənə və valideynlərinə şükür et! "(Loğman /14)***

Yəni Allaha ibadət etməklə, valdeynlərə isə yaxşılıq etməklə şükr et.

Peyğəmbər ﷺ Allahın qabağa çəkdiyini həmişə qabağa çəkərdi. Peyğəmbər ﷺVida həccində təvaf edib qurtardıqdan sonra Səfa dağının yanına gəlir. Peyğəmbər ﷺ Səfa dağı istiqamətində gedərkən belə deyərdi:

***"Allahın başladığından başlayıram"*** Sonra isə bu ayəni oxuyur:

***{ إِنَّ الصَّفَا وَالْمَرْوَةَ مِن شَعَآئِرِ ...}***

***"Həqiqətən, Səfa və Mərvə Allahın qoyduğu nişanələrdəndir "(Bəqərə /158)***

Allah ayədə Səfa dağını ilk zikr etdiyi üçün, ondan başladı deyə peyğəmbər də ﷺ ***"Allahın başladığından başlayıram"***dedi.

Müsəlman biləndən sonra ki, Allah əl-Muqəddim və əl-Muaxxirdir onu qəlbinə zərrə qədər də şübhə gəlməməlidir ki, Allah kimisə qabağı çəkib və kimisə təxir etməsi ilə ona zülm edib. Müsəlman gərək bu cür şübhələrdən çəkinsin. Allah kimi təqdim edibsə bunu öz lütfü və fəziləti ilə edib. Kimə təxir edibsə bu, Allahın adilliyi ilə olub.

# *Əd-Dəyyən*

**Lüğəti məna:**

Əd-Dinu lüğətdə əl-cəzə, yəni cəza, mükafat və ya əvəz mənalarındadır.

***{...أَئِنَّا لَمَدِينُونَ}***

***" Məgər biz cəzalandırılacağıq ? " (Saffət /53)***

***{ مَالِكِ يَوْمِ الدِّينِ }***

*" Din gününün sahibi "(Fatihə /4)*

Yəni, hesab gününün, cəza və mükafat gününün sahibi. Həmçinin alimlər deyir ki, əd-dinu ***ət-tə'a***, yəni ***itaət*** mənasındadır. Məsələn, ***dənə ləhu,*** yəni, ***ona itaət etdi.*** Həmçinin əd-dinu ***'ədə*** mənasındadır. Məsələn, ***"zəlikə min dini"*** lüğəti mənası ***bu, mənim dinimdəndir*** kimi tərcümə olunur. Lakin ***bu, mənim adətimdəndir*** kimi məna daşıyır.

Allahın bu ismi peyğəmbərin ﷺ hədisində varid olub. Bu isim hədislə sabit olub.

Peyğəmbər ﷺ buyurur: ***"Allah qulları həşr edəcək və onları çağıracaq. O səslə, hansı ki, uzaqda olanlar yaxında olanlar kimi eşidəcək. Allah deyəcək ki, mən Məlikəm və mən Dəyyənəm."***

**Allah haqqına bu ismin mənası:**

Xattabi (Allah ona rəhmət etsin) buyurur ki, əd-Dəyyən, yəni haqq-hesab edən. Yaxşılıqdırsa mükafatlandıran, pislikdirsə cəzalandıran. Həmçinin buyurur ki, əd-Dəyyən *əl-həakim* mənasındadır.

Əl-Həlimiyyu (Allah ona rəhmət etsin) buyurur ki, əd-Dəyyən *"məliki yəumiddin"*-dən götürülüb. Yəni hesab gününün sahibi, hesab edən. Əgər xeyirdirsə mükafat, şərdirsə cəza verəcək. Allah əməl edənlərin əməlini zay etməyəcəkdir.

İbnul Əsir (Allah ona rəhmət etsin) buyurur ki, əd-Dəyyən *əl-qahhar* və *əl-həakim* mənasındadır.

**{ الْيَوْمَ تُجْزَى كُلُّ نَفْسٍ بِمَا كَسَبَتْ لَا ظُلْمَ الْيَوْمَ إِنَّ اللَّهَ سَرِيعُ الْحِسَابِ }**

***"Bu gün hər kəsə qazandığının əvəzi veriləcəkdir. Bu gün haqsızlıq olmaz. Şübhəsiz ki, Allah tez haqq-hesab çəkəndir. "(Ğafir /17)***

**{ وَنَضَعُ الْمَوَازِينَ الْقِسْطَ لِيَوْمِ الْقِيَامَةِ فَلَا تُظْلَمُ نَفْسٌ شَيْئاً وَإِن كَانَ مِثْقَالَ حَبَّةٍ مِّنْ خَرْدَلٍ أَتَيْنَا بِهَا وَكَفَى بِنَا حَاسِبِينَ }**

***"Biz qiyamət günü ədalət tərəziləri ilə haqq-hesab çəkəcəyik. Heç kimə hər hansı bir şeydə ədalətsizlik edilməyəcəkdir. (Görülmüş iş) bir xardal dənəsi mislində olsa belə, onu gətirib (tərəziyə) qoyacağıq. Biz haqqı araşdırmağa bəs edərik. "(Ənbiyə /47)***

**{ إِنَّ اللّهَ لاَ يَظْلِمُ مِثْقَالَ ذَرَّةٍ وَإِن تَكُ حَسَنَةً يُضَاعِفْهَا وَيُؤْتِ مِن لَّدُنْهُ أَجْراً عَظِيماً }**

***"Həqiqətən, Allah zərrə qədər də olsa zülm etməz. Əgər (qulun gördüyü iş) yaxşı əməl olarsa, (Allah) bunu artırar və öz tərəfindən böyük mükafat verər." (Nisə /40)***

Qurtubi (Allah ona rəhmət etsin) buyurur ki, hər bir mükəlləf olunana vacibdir ki, Allah əd-Dəyyən olduğunu bilsin. Ömər ibn Xattab (Allah ondan razi olsun) deyirdi ki, Allah sizi hesab etməmişdən qabaq öz nəfsinizi hesaba çəkin.

# *Əl-Mənnən*

**Lüğəti məna:**

***Mənnun*** lüğətdə hədiyyə, bəxşiş, ənam və s. bu kimi mənalardadır. ***Mənnə,*** yəni mərhəmət göstərdi, yaxşılıq etdi və ya ***mənnə aleyhi,*** yəni ona ehsan etdi. Əl-Minnə ***ə'tayə*** mənasındadır, yəni bəxşiş, hədiyyə və s. Həmçinin əl-mənnu ***ən-naqs*** mənasındada işlənir:

***{لَهُمْ أَجْرٌ غَيْرُ مَمْنُونٍ...}***

***"Onlar üçün tükənməz mükafatlar hazırlanmışdır."(İnşiqaq /25)***

Həmçinin əl-mənnə halva və buna oxşar bir şeydir.

***{...وَأَنزَلْنَا عَلَيْكُمُ الْمَنَّ وَالسَّلْوَى ...}***

***"Sizə mənna və bildirçin endirdik "(Bəqərə /57)***

Əl-Munnətu dammə ilə işləndikdə artıq qüvvət mənasına gəlir. Yəni əl-quvvətu.

Allahın bu adı peyğımbərin ﷺ hədisi ilə sabit olub. Ənəsin (Allah ondan razı olsun) rəvayətində gəlib ki, Ənəs peyğəmbərin ﷺ yanında idi və bir kişi namaz qılırdı. Sonra o kişi Allahın əl-Mənnə ismi ilə dua edir. Peyğəmbər buyurur ki, ﷺ o kişi Allahı elə adı ilə çağırdı ki, hansı ki, Allah o adla dua edildiyi zaman dualara cavab verir. İstənildiyi zaman istənilən şeyləri verir.

Quranda isə bu söz feil formasında gəlir.

***{لَقَدْ مَنَّ اللّهُ عَلَى الْمُؤمِنِينَ إِذْ بَعَثَ فِيهِمْ رَسُولاً مِّنْ أَنفُسِهِمْ ...}***

***"Allah möminlərə, öz aralarından onlara (Allahın) ayələrini oxuyan, onları (günahlardan) təmizləyən, onlara Kitabı və Hikməti (Sünnəni) öyrədən bir elçi göndərməklə mərhəmət göstərmişdir. "(Ali İmran /164)***

**Allah haqqında bu ismin mənası:**

əz-Zucəcə (Allah ona rəhmət etsin) buyurur ki, əl-Mənnən yaxşılıq edən mənasındadır. Allah təbərak və təalə qullarına nemət  və ruzi verməklə yaxşılıq edib.

Xattabi (Allah ona rəhmət etsin) buyurur ki, əl-Mənnən çoxlu əta edən mənasındadır. Əl-Həlimiyyu (Allah ona rəhmət etsin) buyurur ki, əl-Mənnən əzəmətli bəxş edəndir. O, həyat verib, danışıq qabiliyyəti verib, məntiq verib, ağıl verib və insanı ən gözəl biçimdə xəlq edib və s.

***{... وَإِن تَعُدُّواْ نِعْمَتَ اللّهِ لاَ تُحْصُوهَا ...}***

***"Əgər Allahın nemətlərini sayacaq olsanız, onları sayıb qurtara bilməzsiniz. "(İbrahim /34)***

Əbu Bəkr əl-Ənbəriyyu (Allah ona rəhmət etsin) buyurur ki, Allahın adlarından biri də əl-Mənnəndir. Yəni nemətləri ilə fəxr etmədən nemətləndirir. Sonra buyurur ki, ***ibtidəən*** nemət verəndir. Allahın qullarına minnəti var. Qullarından isə Allaha heç kim minnət edə bilməz. İbnul Əsir (Allah ona rəhmət etsin) buyurur ki, Allahın adlarından biri də əl-Mənnəndir. Yəni əta edən, nemət verən. Qurtubi (Allah ona rəhmət etsin) buyurur ki, əl-Mənnən əvəssiz əta edəndir.

Alimlər deyirlər ki, insan da bu sifətlə vəsflənə bilir. Lakin bəzən tərifə layiq olur, bəzən isə məzəmmətlənir.. Məsələn, bir insan öz malından Allah rizası üçün xərcləyir və əvəzində heç bir minnətdarlıq, təşəkkür belə istəmir və savabını Allahdan umur. Bu, tərifə layiq olan hissəsidir. Bir insan malından verir və sonra daim danışır, başa qaxır. Bu isə məzəmmətlənən hissəsidir. Başqa bir misal, qul öz etdiyi əməli ilə Allaha minnət edir. Bu iş artıq haram olur. Məxluqda mənnən isminin bu hissəsi artıq haram olur. Peyğəmbər ﷺ deyərdi ki, Allah belə kəslərin Qiyamət günü üzünə baxmayacaq. Hər bir müsəlman bilməlidir ki, mütləq şəkildə əl-Mənnən olan Allahdır.

# *Əl-Həyiyyu və əs-Sittir*

**Lüğəti məna:**

***İstihyə*** həya sözündən alınıb. Məsələn, ***raculun həyiyyun***, yəni həyalı kişi nəzərdə tutulur.

Allahın bu ismi peyğəmbərinin ﷺ hədisi ilə sabit olub. Səhih hədisdə varid olub ki, peyğəmbər buyurur ki, ***həqiqətən Allah Həyiyyundur, Sittirundur. Həmçinin Həyanı və Sətri sevir.*** Başqa bir hədisdə buyurur ki, ***sizin Rəbbiniz Həyiyyun və Kərimdir. Qulu ona əl qaldırıb dua edəndə onu boş qaytarmaqdan həya edir.***
Quranda bir ayədə isə isim kimi yox fel kimi gəlib.

***{ إِنَّ اللَّهَ لاَ يَسْتَحْيِي أَن يَضْرِبَ مَثَلاً مَّا بَعُوضَةً فَمَا فَوْقَهَا ...}***

***"Həqiqətən, Allah ağcaqanadı və (istər böyüklükdə, istərsə də kiçiklikdə) ondan da üstün olanı məsəl çəkməkdən həya etməz. "(Bəqərə /26)***

**Allah haqqında bu ismin mənası:**

əl-Mubərak Furi (Allah ona rəhmət etsin) buyurur ki, Allah Həyiyyundur. Yəni çoxlu həya edəndir. Allah bu sifətlə özünü vəsf edib və biz də başqa sifətlər kimi bu sifətlə vəsf edirik. Ona iman gətiririk və keyfiyyətinə varmırıq. İbn Qeyyim (Allah ona rəhmət etsin) buyurur ki, Allah Həyiyyundur, yəni qulları ona asilik edib açıq-aşkar günah etdikləri vaxt onları rüsvay etmir və o günahı örtür. Çünki Allah günahları örtən və bağışlayandır.
İnsanoğlu Allahın ona verdiyi nemətlə günah edir. Məsələn, verdiyi ayaqla insan günaha gedir, verdiyi əl ilə günah işlədir, verdiyi var-dövlət ilə Allaha asi olur. Halbuki, Allah kamil qüdrət sahibidir ki, səni günah başında və ya istədiyi vaxt həlak etsin. İnsan öz zəifliyi, fəqirliyi, möhtaclığı ilə günah etməklə Allaha zərər verə bilməyəcək. Bununla belə insan günahı edir. Lakin Allah həyiyyundur deyə onu rüsvay etmir. Ona günahını örtəcək səbəblər verir. Nəticədə onun günahı izhar olmur.

Müsəlman bu sifətlə Allahı vəsf edərkən Allahın sifətini məxluqun sifətinə bənzətməməlidir. Allahın sifətlərinin oxşarı yoxdur və keyfiyyəti bizə məlum deyil. Allah həya edib deyəndə bu, insanın həya etməsi kimi anlaşılmamalıdır. Allahın həya sifəti öz cəlalına və kamalına layiq olan sifətdir. İnsan həya edərkən bəzən pərt olub həya edir, bəzən məyus olub həya edir. Allah isə insana bənzəməkdən uca və böyükdür.
Bu dünyada ən böyük həya insanın Allahdan həya etməsidir. Bəzi sələflər deyərdi ki, bildim ki, Allah mənə baxır və mənə nəzarət edir, utandım məni günah və asilik üzərində görsün. Günahı tərk etdim.

***Əs-Sittir*** isminin lüğəti mənası:

***Sətərə*** gizlətmək, örtmək mənasındadır.
Allahın bu ismi peyğəmbərin ﷺ hədisi ilə sabit olub. Peyğəmbər ﷺ səhih hədislərin birində buyurur ki, ***həqiqətən Allah Həyiyyun və Sittirdir. Həyanı və sitri sevir***.

**Bu ismin Allah haqqında mənası:**

Behyəqi (Allah ona rəhmət etsin) buyurur ki, əs-Sittir, yəni Allah qullarının günahlarını çoxlu örtəndir. Günahları izhar edib onu rüsvay etmir. Qullarından bu sifətə sahib olanları sevir. İbnul Əsir (Allah ona rəhmət etsin) buyurur ki, Allah Həyiyyun və Sittirundur. Həyanı və sitri sevir. Allahın şənindəndir ki, sitri sevir. Əl-Munəviyyu (Allah ona rəhmət etsin) buyurur ki, əs-Sittir, yəni eybləri örtən.
İnsan günah edərkən onunla fəxr etməməlidir. Onu camaat içində bəyan etməməlidir. Sitr etməlidir, gizlətməlidir.

***{إِنَّ الَّذِينَ يُحِبُّونَ أَن تَشِيعَ الْفَاحِشَةُ فِي الَّذِينَ آمَنُوا لَهُمْ عَذَابٌ أَلِيمٌ فِي الدُّنْيَا وَالْآخِرَةِ وَاللَّهُ يَعْلَمُ وَأَنتُمْ لَا تَعْلَمُونَ}***

***"Möminlər barəsində iyrənc şayiələrin yayılmasını istəyənlər üçün dünyada və axirətdə acılı-ağrılı bir əzab vardır. Allah bilir, siz isə bilmirsiniz."(Nur /19)***

Bir hədisdə gəlib ki, ***kim möminin eyblərini örtərsə Allah da Qiyamət günü onun eybini örtər.***

# *Əl-Qabid və əl-Basit*

**Lüğəti məna:**

***Qabəda*** götürmək deməkdir. Məsələn, ***qabətdu şey***, yəni bir şeyi  götürdüm. Qabid ***basit***-in əksidir.  Həmçinin deyiblər ki, əl-qabd bütün ovucla götürməyə deyilir. Ərəblər əli açıq olmayana, xərcləməyənə qabdun deyillər.

***{وَيَقْبِضُونَ أَيْدِيَهُمْ ...}***

***"Onlar xəsislik göstərirlər "(Tövbə /67)***

***Qubidə*** kəlməsi isə ölmək mənasındadır.
**Əl-Basit** ismi isə tam qabd-ın  əksidir. Məsələn, ***basatdu şey,*** yəni bir şeyi yaydı. ***Əl-Bastatu*** genişlik mənasındadır. Əl-Bəsat geniş bir yerə deyilir. ***Bəsta yədəhu,*** yəni əlini uzatdı. ***Bəsitul cisim,*** yəni cisim baxımından böyük olan.

***{إِنَّ اللّهَ اصْطَفَاهُ عَلَيْكُمْ وَزَادَهُ بَسْطَةً فِي الْعِلْمِ وَالْجِسْمِ وَاللّهُ يُؤْتِي مُلْكَهُ مَن يَشَاءُ وَاللّهُ وَاسِعٌ عَلِيمٌ ...}***

***"Allah sizin üzərinizə onu (hökmdar) seçdi, elm və bədəncə onun gücünü artırdı. Allah öz mülkünü istədiyi kəsə verir. Allah (hər şeyi) Əhataedəndir, Biləndir." (Bəqərə /247)***

***{ وَقَالَتِ الْيَهُودُ يَدُ اللّهِ مَغْلُولَةٌ غُلَّتْ أَيْدِيهِمْ وَلُعِنُواْ بِمَا قَالُواْ بَلْ يَدَاهُ ... مَبْسُوطَتَانِ }***

***"Yəhudilər dedilər: "Allahın əli bağlıdır!" Onların öz əlləri bağlandı və dedikləri sözə görə lənətə gəldilər. Əksinə, onun hər iki əli açıqdır"(Məidə /64)***

Allahın bu ismi peyğəmbərin ﷺ hədisində keçib. Quranda isim kimi gəlməyib. Peyğəmbər ﷺ buyurur ki, ***həqiqətən Allah əl-Musair, əl-Qabid və əl-Basitdir.*** Quranda isə feil formasında gəlib.

***{... وَاللّهُ يَقْبِضُ وَيَبْسُطُ وَإِلَيْهِ تُرْجَعُونَ}***

***"Allah (kimisinin ruzisini) azaldar, (kimisinin ruzisini də) artırar. Siz ona qaytarılacaqsınız. "(Bəqərə /245)***

Həmçinin feil formasında hədislərdə də varid olub. Peyğəmbər ﷺ buyurur ki, ***Allah gecə əlini açır ki, gündüz günah edənlərin tövbəsini qəbul etsin. Gündüz də əlini açır ki, gecə günah edənlərin tövbəsini qəbul etsin. Hətta günəş məğribdən çıxana qədər.***

Həmçinin peyğəmbər ﷺ buyurur ki, ***Allah Yeri qabd edəcək (götürəcək).Səmaları isə sağ əlində bükəcək. Sonra deyəcək ki, mən Məlikəm. Yer üzünün məlikləri hardadı?***

**Allah haqqında bu ismin mənası:**

əz-Zucəcə (Allah ona rəhmət etsin) ***"Allah (kimisinin ruzisini) azaldar, (kimisinin ruzisini də) artırar. Siz ona qaytarılacaqsınız. "(Bəqərə /245)*** ayəsinin təfsirində buyurur ki, **yəqbidu,** yəni azaldır. İstədiyinin ruzisini dar edir. **Yabsut,** yəni istədiyinin ruzisini genişləndirir. Bunu da qullarının məsləhəsinə görə edir. Burda ***bast,*** ruzini çoxaltmaq, genişləndirmək mənasındadır. ***Qabd*** isə daraltmaq mənasındadır.

***{ وَلَوْ بَسَطَ اللَّهُ الرِّزْقَ لِعِبَادِهِ لَبَغَوْا فِي الْأَرْضِ وَلَكِن يُنَزِّلُ بِقَدَرٍ مَّا يَشَاءُ إِنَّهُ بِعِبَادِهِ خَبِيرٌ بَصِيرٌ }***

***"Əgər Allah öz qullarına bolluca ruzi versəydi, onlar yer üzündə həddi aşardılar. Lakin o, istədiyi şeyi qədərincə göndərir. Həqiqətən, o,öz qullarından Xabirdir, Basirdir."(Şura /27)***

Bu ayə açıq aydın Allahın əl-Basit isminin mənasını bəyan edir. Allah bizə bildirir ki, kimin ruzisini az edirsə və kimin ruzisini çox edirsə qullarına məsləhə baxımından edir. Əl-Həlimiyyu (Allah ona rəhmət etsin) buyurur ki, əl-Basitin mənası odur ki, öz fəzilətini qullarına yayır. Əl-Qabid isə kimə istəyir az verir, kimisə hansısa nemətdən

məhrum edir.
Behyəqi (Allah ona rəhmət etsin) buyurur ki, əl-Qabid və əl-Basit istədiyinin ruzisini geniş edir və istədiyini az edir. Bəzi alimlər deyir ki, yaxşı deyil ki, sən Allahın tək əl-Qabid ismini çağırasan. Yaxşı olar ki, əl-Qabidlə birgə əl-Basit də deyəsən.

Həmçinin Əl-Qabid ruhları ölümlə alandır.. Əl-Basit isə cəsədlərə ruh verəndir. Bu kimi mənalar qeyd edilmişdir.

İbnul Əsir (Allah ona rəhmət etsin) buyurur ki, Allahın əl-Basit isminin mənası odur ki, Öz hikməti və lütfü ilə qullarından istədiyinə ruzini bol-bol əta edir, ölüm anında isə ruhları qabd edir, alır. İmam Əsbəhəni (Allah ona rəhmət etsin) buyurur ki, Allahın adlarından biri də əl_Qabid və əl-Basitdir. Mənası isə odur ki, qullarına baxaraq onların ruzisini bol və dar edir. Öz fəziləti ilə ruzini artırır, adilliyi ilə isə azaldır.

Şeyx Sə'di (Allah ona rəhmət etsin) buyurur ki, əl-Qabid və əl-Basit, yəni ruzini və ruhları alır, qəlbləri və ruziləri isə istədiyinə rəhməti və hikməti ilə verir.

Ədəbdəndir ki, bu iki ismi bir yerdə zikr edəsən. Çünki tam qüdrət ikisini bir yerdə zikr etdikdə olur.
Həmçinin Hərras (Allah ona rəhmət etsin) Nuniyyə şerini şərh edərkən bildirir ki, bu isimləri tək ayrılıqda zikr etmək olmaz. Səna etdikdə gərək iki ismi də zikr edəsən. Mütləq kamillik ikisini bir yerdə dedikdə hasil olur. Əgər tək əl-Qabid ismini zikr etsən sanki Allahın sifətini qüsurlandırmış olursan. Amma hər iki adı zikr etsən artıq bəyan edirsən ki, Allah hikməti ilə kimdən qabd edir və kiməsə bast edir. Yəni kiminsə ruzisini dar edir və kiminsə ruzisini genişləndirir.

Bəzi alimlər buyurur ki, Allahın əzəmətli bast etməsi qullarının qəlbinə rəhmət salmasıdır, iman nuru verməsidir, haqqı bast etməsidir.

# *Əs-Seyyid*

**Lüğəti məna:**

***Səadə, siyadətun*** - lüğətdə rəhbərlik etmək, idarə etmək, başçı olmaq və s. bu kimi mənalardadır. İkrimə (Allah ona rəhmət etsin) buyurur ki, əs-Seyyid, yəni, qəzəbi ona qalib gəlmir. Həmçinin deyiblər ki, əs-Seyyid ***əl-Kərim*** mənasındadır. Əl-Fərra (Allah ona rəhmət etsin) buyurur ki, əs-Seyyid əl-Məlik mənasındadır.

Həmçinin seyyid şərəf mənasında da işlənir.

***{... وَأَلْفَيَا سَيِّدَهَا لَدَى الْبَابِ ...}***

*" İkisi də qapının yanında qadının əri (seyyidi) ilə rastaşdı. "(Yusuf /25)*

Allahın bu ismi peyğəmbərin ﷺ səhih hədisi ilə sabit olub. Peyğəmbərin ﷺ yanına nümayəndələr gəlir və ***"əntə seyyidunə"- "sən bizim seyyidimizsən"*** - deyirlər. peyğəmbər ﷺ isə cavabında onlara deyir***: "əs-seyyidullah təbərak və təalə"- "seyyid Allahdır."*** Bu hədis dəlalət edir ki, əs-Seyyid Allahın adlarındandır.

**Allah haqqında bu ismin mənası:**

Xattabi (Allah ona rəhmət etsin) buyurur ki, Allah Seyyiddir və bütün xəlq ona quldur.

Əl-Həlimiyyu (Allah ona rəhmət etsin) buyurur ki, əs-Seyyid, yəni mütləq şəkildə ona möhtac olmaq. Əl-Əzhəriyyu (Allah ona rəhmət etsin) buyurur ki, əs-Seyyid, yəni xəlqin məliki, sahibi. İbnul Əsir (Allah ona rəhmət etsin) buyurur ki, əs-Seyyid hansı ki, idarə etməyə yalnız onun haqqı çatır. İbn Qeyyim (Allah ona rəhmət etsin) buyurur ki, deyəndə ki, Allah Seyyiddir, yəni mənası əl-Məəlik, Məuvlə və Rabb mənasındadır.

# *Əl-Muhsin*

**Lüğəti məna:**

***Əl-Husn*** pisin, çirkinin əksidir, yəni yaxşı, gözəl mənasındadır. Cəmi isə ***məhəəsin*** deməkdir. Məsələn, ***raculun həsənun,*** yəni gözəl kişi, yaxşı kişi. Başqa bir misal, ***həssəntu şey,*** yəni bir şeyi gözəlləşdirdim, yaxşılaşdırdım.

***{... وَقَدْ أَحْسَنَ بَي إِذْ أَخْرَجَنِي مِنَ السِّجْنِ ...}***

***"O mənə lütf etdi. O məni zindandan çıxartdı " (Yusuf /100)***

Ehsan sözü də bu sözdən götürülüb. Ər-Rağib deyir ki, ehsan sözü iki mənada işlənir:

1. Digərinə ənam etmək. Məsələn, filankəsə yaxşılıq etdi, digərinə ənam etdi və s.
2. Öz fellərinlə, əməllərinlə ehsan etmək. Məsələn, yaxşı iş görmək və s.

Qurandakı ayələrə fikir versək görərik ki, Allah bizə ehsan etməyi əmr edir.

***{إِنَّ اللّهَ يَأْمُرُ بِالْعَدْلِ وَالإِحْسَانِ ...}***

***"Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi əmr edir "(Nəhl /90)***

Alimlər deyir ki, ehsan məqamı adillik məqamından üstündür. Çünki adillik nəyi verməlisənsə onu verirsən və nəyi götürməlisənsə onu götürürsən. Lakin ehsan nəyi verməlisənsə ondan artığını verirsən. Götürəndə isə az götürürsən.

Onlara Allah təbərak və təalə öz kitabında muhsinlərin əcrini daha böyük edib.

***{... وَإِنَّ اللَّهَ لَمَعَ الْمُحْسِنِينَ}***

***" Həqiqətən Allah muhsinlərlə birgədir."(Ənkəbut /69)***

Allahın bu ismi peyğəmbərin ﷺ hədisində sabit olub. Peyğəmbər ﷺ buyurur ki, ***Allah təalə Muhsindir və ehsanı sevir.*** Bu hədis dəlalət edir ki, Muhsin Allahın isimlərindədir.

**Allah haqqında bu ismin mənası:**

Qurtubi (Allah ona rəhmət etsin) buyurur ki, əl-Muhsin Allahın isimlərindəndir. Quranda yalnız feil formasında varid olub.

***{... وَقَدْ أَحْسَنَ بَي ...}***

***"O, mənə ehsan(yaxşılıq) etdi ." (Yusuf /100)***

Qurtubi (Allah ona rəhmət etsin) sözünə davam edərək buyurur ki, mənası isə fəzilət sahibi deməkdir. ***Əl-Mənnən, əl-Vəhhab*** isminin mənasına qayıdır. Həmçinin buyurur ki, əl-Muhsin ***əhsən***-in ismi failidir. Heç gizli deyil ki, Allah təalə məxluqlarına nə qədər ehsanlar edib, onları nemətləndirib və fəzilətləndirib. Əl-Munəmi (Allah ona rəhmət etsin) buyurur ki, Allah Muhsindir. Yəni mövcud olanlar onun ehsanından ehtiyacsız qalmırlar. Hamı Allahın ehsanı ilə nemətlənir.

Alimlər deyir ki, əl-Muhsin, adları da, felləri də kamil husndur. Həmçinin deyiblər ki, əl-Muhsin, hər şeyi gözəl xəlq etdi və ya bütün yaratdıqlarına geniş rəhmətindən, lütfündən, kəramından ehsan etdi – deməkdir.

Həmçinin deyiblər ki, əl-Muhsin, möminlərə ehsan etdi, onları husnəni, yəni Cənnəti vəd verdi, günahkarlara ehsan etdi, yəni onlara möhlət verməklə və onları adilliklə hesab edəcək.

# *Əl-Muqiyt*

**Lüğəti məna:**

Bu isim ***"əl-quuti"*** sözündən alınıb. Zuccəcə (Allah ona rəhmət etsin) buyurur ki, lüğət əhli deyir ki, Muqiyt bir şeyə qadir olmaq mənasındadır. Həmçinin buyurur ki, əl-Muqiyt Həfiyz və Həəfiz mənasındadır.

{ وَكَانَ اللّهُ عَلَى كُلِّ شَيْءٍ مُّقِيتاً ...}

**“Allah hər şeyi Qoruyandır. ”**(Nisə /85)
Bu ayədəki ***“muqiytən”*** sözündə məqsəd ***“hafizan”***-dır.

Əz-Zucəciyyu (Allah ona rəhmət etsin) buyurur ki, əl-Muqiyt bir şeyə qadir gəlməkdir.

Qurtubi (Allah ona rəhmət etsin) buyurur ki, Muqiyt ismi faildir. ***Əqatə, yəqitu, iqatətən.***

Allahın bu ismi Quranda cəmi bir dəfə zikr olunub.

{وَكَانَ اللّهُ عَلَى كُلِّ شَيْءٍ مُّقِيتاً ... }

***“Allah hər şeyi Qoruyandır. ”(Nisə /85)***

**Allah haqqında bu ismin mənası:**

İbn Cərir (Allah ona rəhmət etsin) yuxarıdakı ayənin təfsirində buyurur ki, alimlər ayədə qeyd olunan ***“əl-muqiyt”*** kəlməsi haqda ixtilaf etmişdirlər. Bəziləri demişdir ki, Allah hər bir şeyə ***Şahid və Hafiyz***-dir. Bəziləri isə demişdir ki, ***əl-Muqiyt*** hər bir şeyə tədbir ilə duran və hər bir şeyi idarə edəndir. Bəziləri də, ***əl-Muqiyt***-in ***əl-Qadir*** mənasında olduğunu söyləmişdir. Suddi (Allah ona rəhmət etsin) buyurur ki, əl-Muqiyt isminə gəldiksə isə mənası ***qadir***-dir. İbn Cərir (Allah ona rəhmət etsin) bu isim haqqında deyilənlərin hamısını zikr etdikdən sonra buyurur ki, bu sözlərin içərisində daha səhih olanı budur ki, əl-Muqiyt ***əl-Qadir*** mənasındadır. Həmçinin alimlərdən bu mənanı dəstəkləyənlərdən Xattabi, əl-Fərra, ibnul Quteybə olub.

Əbu Ubeydə (Allah ona rəhmət etsin) buyurur ki, əl-Muqiyt ***əl-Həəfiyz*** mənasındadır. Əl-Kəssəi (Allah ona rəhmət etsin) buyurur ki, əl-Muqiyt ***əl-Muqtədir*** mənasındadır. Ən-Nuhəs (Allah ona rəhmət etsin) buyurur ki, Əbu Ubeydənin söylədiyi daha genişdir. Çünki əl-Muqiyt əl-quuti sözündən alınıb.

İbn Abbas (Allah ondan razı olsun), Əta, Qatədə buyururlar ki, əl-Muqiyt ***həfiyz*** mənasındadır. Lakin Mucahid (Allah ona rəhmət etsin) buyurur ki, əl-Muqiyt ***şəhiyd*** mənasındadır. Başqa bir rəvayətdə isə buyurur ki, ***həsib,*** yəni hesab edən mənasındadır. Səid ibnul Cubeyr, Suddi, İbnuz Zeyd deyirlər ki, əl-Muqiyt ***əl-Qadir*** mənasındadır. Dəhhaq (Allah ona rəhmət etsin) buyurur ki, əl-Muqiyt ***ər-Razzəq*** mənasındadır. İbn Cərir (Allah ona rəhmət etsin) buyurur ki, daha səhih olanı budur ki, əl-Muqiyt ***əl-Qadir*** mənasındadır.

Yuxarıda qeyd etdiyimiz alimlərin rəyləri bir-birinə yaxın olan mənalardır.

Alimlər buyurur ki, Allahın ***əl-Muqiyt*** ismi bu qeyd olunan mənaların hamısını cəm edir.

# *əl-İləh*

**Lüğəti məna:**

Əl-İləh sözü ismi məfuldur, məluh mənasındadır. Məluh - təzim və məhhəbbətlə ibadət olunan məbuddur. İlah isə Allahdır. Lakin Allahdan başqası məbud götürülərsə o, onun üçün ilah sayılır.

**{أفرأيت من اتخذ إلهه هواه}**

***"Nəfsinin istəyini ilahiləşdirən şəxsi gördünmü?" (Cəsiyə /23)***

Haqqı çatan ilah tək Allahdır. "Lə iləhə illəllah" kəlməsi də elə bu anlamdadır. Yəni, Allahdan başqa ibadətə layiq olan haqq məbud yoxdur. İbn Teymiyyə (Allah ona rəhmət etsin) buyurur ki, əl-İləh məluhdur. Məluh isə ibadət olunmağa haqqı çatandır. Yəni onda elə sifətlər var ki, həqiqi sevilən olmasını və həqiqi zəlilliyin ona olmasını tələb edir. Ona görə İbn Teymiyyə buyurur ki, "İbadət - həqiqi zəlillik və həqiqi sevgidir". Ona görə biz etiqad edirik ki, Allahdan başqa ibadət olunanlar batildir. Haqq ilah, məbud Allahdır.

**{ذلك بأن الله هو الحق وأن ما يدعون من دونه الباطل}**

***"Çünki Allah Haqdır. (Kafirlərin) Ondan başqa yalvardıqları isə batildir" (Həcc /62)***

Allahın bu ismi həm Quranda, həm də peyğəmbərinin ﷺ hədislərində keçmişdir.

**{وإلهكم إله واحد لا إله إلا هو الرحمن الرحيم}**

***"Sizin ilahınız Tək olan İlahdır. Ondan başqa ilah yoxdur, Mərhəmətlidir, Rəhmlidir."(Bəqərə /163)***

Peyğəmbər ﷺ dualarının birində belə buyurmuşdur: ***"Sən mənim ilahımsan və səndən başqa mənim İlahım yoxdur."***

**Allah haqqında bu ismin mənası:**

Allah haqqında bu ismin mənası odur ki, həqiqi ibadətə layiq olan Odur. Təhaviyyənin şərhində deyilir ki, "İləh, qəlblərin onu təzim etdiyi və Onun qarşısında zəlil olduğunu, ibadətə layiq olan məbuddur!"

Məhəbbət və təzimlə ona ibadət olunur. Abdurrəhmən əs-Sədi (Allah ona rəhmət etsin) buyurur ki, İləh bütün kamil sifətləri özündə cəm edir. Allahın bütün gözəl adları bu ada daxildir. Səhih deyimə görə Allah sözünün əsli ***"ilah"*** – sözündəndir. Allah ismi isə bütün gözəl adları özündə birləşdirir. Allah ismini tədəbbür etsən görərsən ki, bütün uluhiyyətin mənası ondadır. Onun sifətləri kamildir və şəriki yoxdur.

Demək, iləh məbud deməkdir. Məbud isə Allahdır. İbn Teymiyyə (Allah ona rəhmət etsin) buyurur ki, İləh məhəbbətlə, iclalla, ikramla ibadət olunandır. İbadətə Allahdan başqasının haqqı çatmır. Yer üzündə nə qədər ilahlar varsa hamısı batildir.

Kəlam əhli elə zənn etmişdirlər ki, İləh rububiyyət – yəni, ixtira edən, Rəbb mənasındadır. Yəni Allahdan başqa Rəbb yoxdur, yaradan yoxdur. Kim bunu iqrar edərsə artıq ***"Lə iləhə illəllah"***-a şahidlik etmiş olur.

Şübhəsiz ki, bu, batildir. Çünki müşriklər rububiyyət mənasını iqrar edirdilər. Lakin bununla belə muşrik olaraq qalmışdılar. Deməli məqsəd orada rububiyyət mənası deyil. İbn Teymiyyə (Allah ona rəhmət etsin) buyurur ki,  əksinə həqiqi mənada əl-İləh ibadət olunmağa haqqı çatandır. İləh rububiyyət mənasında deyil, məbud mənasındadır.

# *əl-Cəvad*

**Lüğəti məna:**

***"Cəədə, cuudun"*** lüğətdə səxavətli olmaq, əliaçıqlıq və ya bol, çoxlu və s. bu kimi mənalarda işlənir. Həmçinin ***"cuudun"*** mərdlik, alicənablıq, comərdlik və s. bu kimi mənalardadır.

Allahın bu ismi peyğəmbərin ﷺ hədisi ilə sabit olmuşdur. Səhih hədisdə peyğəmbər ﷺ buyurur ki, ***"Həqiqətən Allah Cavaddır və cudu sevir. Allah yüksək, uca əxlaqı sevir. Pis əxlaqı isə sevmir."***

**Allah haqqında bu ismin mənası:**

İbn Qeyyim (Allah ona rəhmət etsin) buyurur ki, Allah Cəvaddır və O,  cəvadlığı bütün məxluqlara fəzilət və ehsan etməklə aid edib.

İbn Qeyyim əl-Cəvad isminə fəzilət və ehsan vermək kimi izahlar vermişdir. Allahın ehsanı və fəziləti isə bütün məxluqlara şamil edilib. Sonra İbnul Qeyyum buyurur ki, Allah Cəvaddır, yəni Ona dua edəni, Ondan istəyəni məyus etmir.

Şeyx Sə'di (Allah ona rəhmət etsin) buyurur ki, Allahın əl-Cəvad ismi əl-Vəhhab isminin mənasına yaxındır.

Allahın əl-Cəvad isminin mənası ***"kəsirul ətayə"*** - yəni, ***"çoxlu əta edən"*** deməkdir. Allah qullarına cürbəcür nemət növlərindən əta edir. Həmçinin Allahın cəvadındandır ki, asilərin əməllərini örtür, onları rüsvay etmir, onlara qarşı həlimdir.

Həmçinin Allahın cəvadındandır ki, onun məxluqları bir an olsun belə Allahın ehsanından xali olmurlar. Allahın neməti, ehsanı, lütfü daima qullarının üzərindədir. Bütün fəzilət Onun əlindədir. Allah zatı ilə Cəvaddır. Bütün insanlar birlikdə Allahdan nəsə istəsələr və Allah onların istədiklərini versə, Allahın mülkündən heçnə azalmaz.

Allah üçün əfv etmək intiqam almaqdan daha sevimlidir. Əta etmək verməməkdən daha sevimlidir. Ona görə Allahın geniş cəvadlığındandır ki, o, övliyaları üçün Cənnətdə gözlə görülməyən, qulaqla eşidilməyən və ağıldan belə keçməyən nemətlər hazırlamışdır.

# *əl-Alə*

**Lüğəti məna:**

**"əl-Alə"** ismi lüğətdə əf'əl formasındadır. Feli isə *"a'lə, yə'lu, uluvən"* formasındadır. əl-Alə isminin mənası **"Uca, ucalıq, yüksək"** və s. deməkdir.

**{ ولله المثل الأعلى ...}**

***"Ən Uca sifət isə Allaha məxsusdur." (Nəhl /60)***

***{... وله المثل الأعلى في السماوات والأرض ...}***

***"Göylərdə və yerdə olan ən uca sifətlər Ona məxsusdur." (Rum /27)***

***{قلنا لا تخف إنك أنت الأعلى}***

***"Biz dedik: "Qorxma, qalib gələn mütləq sən olacaqsan!" (Taha /68)***

Həmçinin Uca Allah bu ümmət barəsində buyurur:

*{... وأنتم الأعلون إن كنتم مؤمنين}*

*"Möminsinizsə, üstün olacaqsınız." (Ali İmran /139)*

Allahın bu ismi həm Quranda, həm də peyğəmbərin ﷺ hədislərində varid olub.

*{سبح اسم ربك الاعلى}*

*"Ən Uca Rəbbinin adına təriflər de! "(Alə /1)*

Peyğəmbər ﷺ namazda, səcdədə ikən bu duanı deyərdi:

*"Subhənə rabbiyəl alə." (Nöqsansız olan Rəbbim ucadır.)*

**Allah haqqında bu ismin mənası:**

Allah **"əl-A'lə"**dir dedikdə, Allahın həm zatı, həm də sifətləri ilə hər şeydən Uca olması qəsd edilir. Allah, Onun Rububiyyətinə və Uluhiyyətinə zidd olan, bütün naqis sifətlərdən ucadır. Həmçinin Allah, Onun şəriki olmaqdan ucadır. Allah, Onun yanında, Onun izni olmadan kiminsə şəfaət etməsindən uca və əzəmətlidir. Allah yatmaqdan, mürgüdən və övladı olmaqdan ucadır. Allah insanları əbəs yerə xəlq etməkdən ucadır. Allah ucadır. Yedizdirir lakin Özü yemir, ruzi verir lakin Özü ruzilənmir. Hər bir şey Allaha möhtacdır, fəqirdir. Hər bir iş Ona asandır. Allah kamil sifətlərinin inkar olunmasından ucadır. Allahın zatı ucadır. Bütün məxluqlardan ucadadır, Ərşə isteva edib. Ərş isə məxluqatın sonuncusudur. Allah isə onu üzərinə istiva edib, yəni ucalıb. Həmçinin alimlər bildiriblər ki, Allahın qahr ucalığı var. Çünki Allah *vahidul qahhar*-dır. Onun izzəti və ucalığı ilə bütün məxluqlar onun qahrındadır. Bütün məxluqların idarəçiliyi Onun əlindədir. Allah nə istəyirsə, o da olur və buna heç kim mane ola bilmir. Nəyin olmağını istəmirsə, o da olmur. Əgər bütün məxluqlar yığışıb Allahın istəmədiyini icad etmək istəsələr bunu bacarmayacaqlar. Əksinə bütün məxluqlar yığışıb Allahın istəyinin qarşısını almaq istəsələr də, bunu bacarmayacaqlar. Bu da Allahın kamil qüdrətinə dəlalət edir. Bütün məxluq hər tərəfdən Allaha möhtacdır.

Şeyx Sə'di (Allah ona rəhmət etsin) buyurur ki, *"əl-Alə"* - yəni, Onun mütləq şəkildə hər tərəfdən ucalığı var. Ona görə də, alimlər ucalığın bütün növünün Allaha sabit olduğunu deyirlər. İbn Qeyyim (Allah ona rəhmət etsin) öz Nuniyyə şerində buyurur ki, ucalığın hər növü Allaha sabit olmuşdur.
Həqiqətən bu dünyada ən yüksək ibadət növü Allahın adları ilə olan ibadətdir.